Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 45 (6138) 28 noyabr 2025-ci il | Qiyməti 40 qəpik

# KƏLBƏCƏRƏ YENİ KÖÇ



## Vilayət Eyvazov Gəncədə vətəndaş qəbulu və sıra baxışı keçirəcək



Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov 2025-ci il dekabrın 1-də Gəncə şəhərində növbəti vətəndaş qəbulu və polis orqanları, o cümlədən daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirəcək.

Adalet.az xəbər verir ki, Gəncə Şəhər Baş Polis İdarəsinin inzibati binasında baş tutacaq qəbulda Gəncə, Goranboy, Naftalan, Göygöl, Samux, Kəlbəcər, Xocalı şəhər və rayonlarının sakinləri iştirak edə bilərlər. Qəbula yazılmaq istəyən vətəndaşlar Nazirliyin səlahiyyətlərinə aid məsələlərlə bağlı 30.11.2025-ci il tarixinədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər. Polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan namizədlərin sıra baxışı isə vətəndaş qəbulundan öncə, yeni dekabrın 1-də 08:00-da Gəncə Olimpiya İdman Kompleksində keçiriləcək.

Qeyd edək ki, qəbula və sıra baxışına gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.



ƏLBİR OLUB BİR AYI BİR ŞİR İLƏ,
OVLADILAR UKRAYNANI TƏDBİR İLƏ.

AQİL ABBAS

## "NAPOLİ" ON İKİ NƏFƏRLƏ OYNAYIRDI

Bax:səh-3

## DÜNYA DÜZƏLMİR Kİ, DÜZƏLMİR, BABA!



Pakistanın 2017-2022-ci illərdə baş naziri olmuş İmran Xanı, 73 yaşlı İmran Xanı həbsxanada öldürdülər.

AQİL ABBAS

## "NEFTÇİ"YƏ "ZBOR" BAŞ LAZIMDI

Bax:səh-3

*Rza Rzayev:*

## "Azərbaycanlı şərəfin qorumaq budur!"



**Və onu böyük edən budur - "Dolu" romanı həm xaricdə, həm də daxildə bizi qorxaq, düşmən qabağından qaçan, döyüşməyən, məğlub millət kimi təqdim edənlərə bədii dil ilə gerçək cavab oldu.**

Sayın Aqil Abbas 1-ci Qarabağ müharibəsində arxalı düşmən qarşısına əli yalın çıxan oğlanların ümumi obrazını yaratdı, düşmənə göstərilən müqavimətin söz ilə şəklini cızdı və ən əsası məmləkətinin, Ağdamın düşməndən necə geri alınacağının 10 il öncə yazıçı təxəyyülü ilə mesajını verdi, Ağdamın işğaldan azad edilməsi Yazıçının illər öncə hiss etdiyi kimi oldu.

Aqil ABBAS
aqilabbas@rambler.ru

## BAYRAQLARI BAYRAQ YAPAN ÜSTÜNDƏKİ QAN DEYİL!



**Yeddidən yetmiş yeddiyə hamının əzbər bildiyi, çox sevdyi bu misralar...**

***Bayraqları bayraq yapan üstündəki qandır,***
***Toprak - uğrunda ölən varsa, vatandır!***

**... qanımıza işləyib. Amma mənim fikrimcə, bayraqları bayraq yapan üstündəki qan deyil, ona qalsa SSRİ-nin də bayrağının üstündə qan vardı, Hitlerin də. Amma o qan o bayraqları bayraq yapa bilmədi, atdılar zibilliyə.**

**Düzdür, neofaşistlər hərdən bu bayrağı qaldırırlar, eləcə də bizim bəzi sarsaqlar da bu bayrağı qaldırır, amma xeyiri yoxdur, o bayraqlar çoxdan çezib.**

Bax:səh-2

## GÜNÜN LƏTİFƏSİ

Bir gün Molla Nəsrəddin bir həkimin yanına gedib deyir:

**- Həkim, bir məni yoxla görüm dərdim nədirə**

Həkim Mollanın nəbzini yoxlayıb deyir:

**- Dərdiniz aclıqdır. əyləşin, bizimlə nahar eləyin, sovuşub gedər, qorxulu deyildir.**

Molla həkimin təklifini qəbul edərək oturub möhkəm yeyir, getmək istərkən həkimə deyir:

**- Həkimbaşı, bizim evdə bu xəstəliyə tutulmuş bir neçə adam vardır. İndi ki, siz belə tez mualicə edirsiniz, mən onları da sizin yanınıza göndərməyə məcburam.**

# İlham Əliyev “AZWOOL” mineral daş yunu zavodunun açılışında iştirak edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Qaradağ rayonunda ”Matanat-A” şirkətinin ”AZWOOL” mineral daş yunu zavodunun açılışında iştirak edib.**

İqtisadiyyat naziri Mikayıl Cabbarov və ”Matanat-A” şirkətinin Müşahidə Şurasının sədri Elxan Beşirov dövlətimizin başçısına zavodun fəaliyyəti barədə məlumat verdilər.

Prezident İlham Əliyevə əvvəlcə əsası 2000-ci ildə qoyulan ”Matanat-A” şirkəti barədə məlumat verildi. İnşaat materiallarının istehsalı sektorunda 25 ildir fəaliyyət göstərən şirkətin tərkibinə ”Matanat A” Quru İnşaat Qarışıqları, AĞDAĞ gipskarton və gips əsaslı məhsulların istehsalı, AZERLİME Əhəng, Avadanlıq və dəzgahların istehsalı və ELBERG maşınqayırma zavodları daxildir. Şirkətin müəssisələrində ümumilikdə 1000-ə yaxın iş yeri yaradılıb.

Ərazisi 10 hektar olan ”AZWOOL” mineral daş yunu zavodunda ABŞ, Almaniya və Türkiyədə istehsal edilən müasir avadanlıqlar quraşdırılıb. Zavodun illik istehsal gücü 1,5 milyon kubmetr mineral daş yunudur. Müəssisədə məhsullar əsasən yerli xammaldan hazırlanır.

Mineral daş yunu zavodunun investisiya dəyəri 43 milyon manatdır. Layihənin reallaşdırılması üçün İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 10 milyon manat güzəştli kredit ayrılıb. Bununla yanaşı, müəssisə investisiya təşviqi sənədi ilə texnika, texnoloji avadanlıq və qurğuların idxalı zamanı təxminən 4 milyon manat güzəşt əldə edib. Zavodda 180 iş yeri yaradılıb.

Tikinti sektorunda istifadə olunan, ekoloji cəhətdən təmiz mineral daş yunu istilik və səs izolyasiyasını təmin etməklə yanaşı, enerjiyə qənaətə imkan yaradır. Mineral daş yunu Azərbaycanda rəqabət üstünlüyünə malik yerli məhsullardan biridir. Ona daxili və xarici bazarda böyük tələbat var. Zavodun açılışı yerli istehsalın təşviqi, daxili bazarın tələbatının ödənilməsi və xarici bazarda Azərbaycan məhsullarının rəqabət qabiliyyətinin artırılmasına xidmət edəcək. Müəssisə ölkəmizin mineral daş yununa tələbatını ödəməklə yanaşı, idxaldan asılılığı əhəmiyyətli dərəcədə azaldacaq. Həmçinin burada istehsal olunan məhsullar Gürcüstana, MDB və Yaxın Şərq ölkələrinə ixrac ediləcək.

Prezident İlham Əliyev ”Matanat-A” şirkətinin müəssisələrində istehsal edilən məhsullarla da tanış oldu. Bildirildi ki, şirkətin zavodlarında 200-dən artıq ticarət markası ilə 3 mindən çox çeşiddə məhsul istehsal edilir. Məhsullar daxili tələbatı ödəməklə yanaşı, ”Made in Azerbaijan” brendi ilə Qazaxıstan, Gürcüstan, İraq, Ukrayna, Özbəkistan və digər xarici ölkələrə ixrac olunur.

Dövlətimizin başçısı zavodu işə saldı.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə qeyri-neft sektorunun şaxələndirilməsi və inkişafı istiqamətində aparılan işlər nəticəsində ölkəmizdə yeni-yeni istehsal sahələri yaradılır. Bütün bunlar isə, eyni zamanda, yeni iş yerlərinin açılmasına, əhalinin məşğulluğunun artırılmasına böyük töhfə verir.

# Ədliyyə nazirinin müavinlərinə ali xüsusi rütbələr verilib

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin əməkdaşlarına ali xüsusi rütbələr verilib.**

Bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb.

Sərəncama əsasən, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin aşağıdakı əməkdaşlarına III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi verilsin:

Abiddin Qabil oğlu Hüseynov - Azərbaycan Respublikası ədliyyə nazirinin müavini

Toğrul Aydın oğlu Hüseynov - Azərbaycan Respublikası ədliyyə nazirinin müavini.

# Azərbaycanda dövlət qulluqçuları 2 min manatadək orta aylıq əməkhaqqı alır

**”Hazırda dövlət qulluqçularının sayı 27,4 min nəfərdir ki, onların da 30,3 faizini qadınlar təşkil edir. Ötən il dövlət qulluqçularının orta aylıq əməkhaqqı əvvəlki ilə nisbətən 2 faiz artaraq 1971 manata çatıb”.**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin plenar iclasında çıxışı zamanı deputat Vüqar Bayramov deyib. O bildirib ki, bu il reallaşan sosial paket həmin vətəndaşlarımızın əmək haqqlarında daha yüksək artımlara imkan verib. ”Bununla yanaşı, hazırda dövlət qulluqçularının orta aylıq maaşı ölkə üzrə orta aylıq əmək haqqından 2 dəfə çoxdur. Bu da dövlət qulluğuna marağın yüksək olması səbəblərindən biridir.



Dövlət qulluqçularının 7,4 faizi dövlət orqanlarında inzibati vəzifələrin ali - 3-cü təsnifatlarda çalışır. 92.6 faizi digər təsnifatlarda o cümlədən, 46,6 faizi 7-ci təsnifatı, 22,2 faizi isə dövlət qulluğunun yardımçı vəzifələri üzrə işləyirlər. Bu isə o deməkdir ki, dövlət qulluqçularının böyük əksəriyyəti üçün işə qəbul ilə bağlı tələblər tətbiq olunur. Bununla yanaşı, hazırda dövlət qulluqçularının 69.5 faizi 5 ildən çox çalışanlardır. Dövlət qulluqçularının 6,4 faizi 1 ilədək, 24,1 faizi 1 ildən 5 ilədək, 22,9 faizi 5 ildən 10 ilədək, 18,6 faizi 10 ildən 15 ilədək, 28,0 faizi isə 15 il və daha çox qulluq stajına malikdir”.

V.Bayramov qeyd edib ki, bu sahədə aparılan dərinləşdirilmiş islahatlar dövlət qulluqçularının yaş intervalına da təsir göstərib: ”Hazırda dövlət qulluğunda çalışanların tən yarısının yaşı 40-dan aşağıdır. Bu isə dövlət qulluğunda işə qəbulda keyfiyyət meyarları baxımından vacib hesab olunur”.

# Zabitlərin dinc dövrdə həqiqi hərbi xidmət müddəti 6 ay azaldılır



**Ehtiyatdan müddətli həqiqi hərbi xidmətə çağırılan və ya bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olan zabitlərin dinc dövrdə həqiqi hərbi xidmət müddəti 6 ay azaldılacaq.**

Adalet.az xəbər verir ki, bu barədə qanun layihəsi Milli Məclisin iclasında müzakirə edilib. Qüvvədə olan qanuna əsasən, dinc dövrdə həqiqi hərbi xidmətin müddəti ehtiyatdan həqiqi hərbi xidmətə çağırılanlar və ya könüllü daxil olan zabitlər üçün 1 il 6 ay, bağlaşma üzrə həqiqi hərbi xidmətə könüllü daxil olan zabitlər üçün 3 ilə qədərdir. Layihəyə əsasən, ehtiyatdan müddətli həqiqi hərbi xidmətə çağırılanlar və ya bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olanlar üçün bu müddət 1 il (bu müddət bitdikdən sonra tərəflərin razılığı ilə onlar kadr zabit heyətinə keçirilirlər), bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün bu müddət 3 ilədək (bu müddət bitdikdən sonra tərəflərin razılığı ilə yeni bağlaşma bağlanılır) olacaq. Müzakirələrdən sonra sənədlər səsverməyə qoyularaq I oxunuşda qəbul edilib.

# "Qanunsuz olaraq malın, maşının saxlanılmasından uzaq durmalıdırlar"

**”Yüklər nə zaman xarab olur? Qanunsuz və əsassız saxlama ilə bağlı olanda. Yükü bir neçə gün saxlayanda bu olur. Bizə qonşu olan ölkələrdə bir çox hallarda rahatlıqla 1-2 saata həll olunan prosedur, bizim əraziyə keçəndən sonra bir çox hallarda 1-2 gün yubadılmaqla baş verir”.**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin iclasında ”Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında” qanun layihəsinin müzakirəsi zamanı deputat Fazil Mustafa deyib.

Deputat bildirib ki, belə olan halda malın xarab olmasına görə məsuliyyət ekspeditorun üzərində qalır: ”Bu da müştəri ilə aralarında böyük mübahisələr yaradır. Gələcəkdə beynəlxalq yük daşımalarında bu problemlər daha çox ortaya çıxacaq. İndidən müvafiq qurumların məsuliyyət məsələsini qoymayılıq. Müvafiq orqan qanunsuz olaraq 3-5 gün hansısa malın, maşının saxlanılması məsələsindən uzaq durmalıdır. Ancaq məsuliyyət olanda uyğun duracaq. Məsuliyyət olmadıqda həmişə müştəri haqsız çıxacaq. Təklif edirəm ki, bu qanun layihəsində mütləq müəvfiq icra hakimiyyəti orqanının məsuliyyətinin konkretləşməsi məsələsinə baxılsın. Bu ölkənin imicidir. Ölkəyə gələn malların, yüklərin daşınması məsələsində əlavə problemlər yaşanmasın, ölkənin iqtisadi nüfuzu aşağı düşməsin”.

**Nicat**

***AQİL ABBAS***

# BAYRAQLARI BAYRAQ YAPAN ÜSTÜNDƏKİ QAN DEYİL!

**Yeddidən yetmiş yeddiyə hamının əzbər bildiyi, çox sevdyi bu misralar...**

***Bayraqları bayraq yapan üstündəki qandır,***
***Toprak - uğrunda ölən varsa, vatandır!***

**... qanımıza işləyib. Amma mənim fikrimcə, bayraqları bayraq yapan üstündəki qan deyil, ona qalsa SSRİ-nin də bayrağının üstündə qan vardı, Hitlerin də. Amma o qan o bayraqları bayraq yapa bilmədi, atdılar zibilliyə.**

**Düzdür, neofaşistlər hərdən bu bayrağı qaldırırlar, eləcə də bizim bəzi sarsaqlar da bu bayrağı qaldırır, amma xeyiri yoxdur, o bayraqlar çoxdan çezib.**



***Toprak - uğrunda ölən varsa, vatandır.***

**Bunu biz Birinci Qarabağ savaşında, eləcə də 44 günlük müharibədə torpaq uğrunda şəhid olanların timsalında gördük.**

**Bayraqları bayraq yapan əslində qan deyil, onu başının üstünə qaldıra bilən millətdir. Necə ki, işğal olunmuş bütün torpaqları azad edib, hər qarışında müqəddəs bayrağımızı ucaldan millət - Azərbaycan milləti!**

**1993-cü ildə azıb gedib çıxmışdım Amerikaya. Bir qrup jurnalist dostlarla getdik BMT-yə. Təşkilatın qarşısındakı dirəklərdə bayraqlar asılmışdı. Yaxınlaşıb Azərbaycan bayrağı asılan dirəyi qucaqlayıb sevincimdən ağladım.**

**Dostlar soruşdu:**

**- Dirəyi niyə qucaqlayıb ağlayırsan?**

**- Baxın da, bu dirəyin başında Azərbaycan bayrağı asılıb.**

**Belə bir misra var, gərək ki Hadinindi.**

***Yox millətimin imzası imzalar içində.***

**İndi böyük şövqlə deyə bilirik:**

***Var millətimin bayrağı bayraqlar içində.***

**Tanrı millətimizin bayrağını daha uca eləsin!**

# *Deputat: Zorakılıq məsələsi ilə bağlı maarifləndirmə işləri genişləndirilməlidir*



**Milli Məclisin deputatı Hicran Hüseynova parlamentin növbəti iclasında çıxışı zamanı bildirib ki, bu gün dünyada Zorakılıqla Beynəlxalq Mübarizə Günü qeyd olunur.**

Adalet.az-ın məlumatına görə, deputat vurğulayıb ki, Azərbaycanda zorakılıqla mübarizə sahəsində mühüm qanunvericilik addımları atılıb: ”Cənab Prezidentin və ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə bu istiqamətdə mühüm normativ-hüquqi aktlar qəbul edilib. Eyni zamanda, birinci vitse-prezident Mehriban Əliyevanın qanunvericilik təşəbbüsləri zorakılığa qarşı mübarizənin gücləndirilməsinə ciddi töhfə verib”. Hicran Hüseynova əlavə edib ki, mövcud çağırışlar fonunda zorakılıqla bağlı məsələlərdə daha təsirli tədbirlərin görülməsi vacibdir:

”Cəmiyyətin bütün səviyyələrində maarifləndirmə işləri genişləndirilməli, zorakılığın qarşısının alınması üçün kompleks fəaliyyət davam etdirilməlidir”.

**Nicat**

# "Kəlbəcər döyüşlə düşmən tapdağından xilas edilsəydi..."

**"Vətənimizin bizim üçün əziz, müqəddəs olan hər bir qarış torpağında Kələbəcərin xüsusi yeri vardır. Kələbəcər deyəndə əsrarəngiz təbiəti, şəfalı suları, can dərmanı nemətləri, mərd insanları, qəhrəman oğulları göz önünə gəlir. Rayonun 2023-cü il noyabrın 25-də bir güllə atılmadan azad edilməsi cənab Prezidentimiz İlham Əliyev diplomatiyasının böyük uğurudur".**



Adalet.az xəbər verir ki, bunu Milli Məclisin sədr müavini, millət vəkili Musa Qasımlı deyib.

O, bildirib ki, Kəlbəcər döyüşlə düşmən tapdağından xilas edilsəydi nə qədər şəhid verərdik:

"Allah bütün şəhidlərimizə rəhmət eləsin! 1993-cü ilin aprelində Kəlbəcər işğal edilərkən sakinlər rayonu ağır vəziyyətdə tərk etmişdilərsə, hazırda rayon dövlət büdcəmizin hesabına yenidən tikilir, sakinlər planlı halda dədə-baba torpaqlarında müasir binalarda mənzillərə yerləşdirilirlər.

Bir neçə il sonra Kəlbəcər dünyanın məşhur turizm, sanatoriya-kurort mərkəzlərindən birinə çevriləcəkdir. Hər bir məsələyə əsasən müqayisədə düzgün qiymət vermək olar.

Amma bütün müqayisələr də bəzən hər şeyi tam göstərə bilmir. Keçilən yolu doğru başa düşməkdən, düzgün nəticələr çıxarmaqdan və gələcəyimizə işıq tutmaqdan ötrü özümüzə bir neçə sual verməliyik.

Kəlbəcər necə və hansı şəraitdə işğal edilmişdi, necə və hansı şəraitdə düşməndən azad edildi? Millətimiz kimin, kimlərin fəaliyyəti və nəyin nəticəsində fəlakətli vəziyyətə, qaranlığa düşmüşdü, kimin fəaliyyəti və nəyin hesabına məqsədlərinə çatdı, yolu işıqlandı? Millətimizi arzularına çatdıranlar, yolunu işıqlı edənlər daim onun başı üstündə olsunlar! Kəlbəcər şəhər günümüz mübarək olsun!

***P.S.** Kəlbəcərin işğalını və azad edildikdən sonrakı şəraiti əks etdirən bir neçə fotoşəkil yaxın tariximizdən düzgün nəticə çıxarmaqdan və ibrət almaqdan ötrü faydalıdır. Xüsusən gənc nəsil üçün".*

**Vasif ƏLİHÜSEYN**

# Gələn il işsizlərə 28 milyon manat ödəniləcək: Kimlər və necə əldə edə bilərlər?

**"İşsizlikdən Sığorta Fondunun 2026-cı il üçün büdcə layihəsi Milli Məclisdə birinci oxunuşda qəbul olunub. Sənədə əsasən, fondun xərcləri 266.4 milyon manat olacaq. Fondun vəsaitlərinin əhəmiyyətli hissəsi aktiv sosial proqramların maliyyələşdirilməsinə yönəldilsə də 28 milyon manat işsizliyə görə sığorta ödənişləri üçün istifadə olunacaq. Bu 2025-ci illə müqayisədə 65.0 faiz artım deməkdir".**



Adalet.az xəbər verir ki, bunu millət vəkili Vüqar Bayramov deyib.

O, bildirib ki, bu vəsait əmək müqaviləsi ilə çalışan və qanunla müəyyənləşdirilmiş hallarda iş yerlərini itirən vətəndaşlarımız üçün nəzərdə tutulub: "Belə ki, ödəniş dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi, işçilərin sayı və ya ştatların ixtisar edilməsi, müəssisənin mülkiyyətçisi dəyişməsi, əvvəllər müvafiq işdə çalışan işçinin işinə bərpa edilməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi olması, əvvəllər həmin müəssisədə çalışan işçi müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxıldıqdan sonra öz iş yerinə qayıtmaq hüququndan istifadə etməsi, habelə əmək müqaviləsinin müddəti qurtarması nəticəsində əmək münasibətlərinə xitam verildiyi hallarda vətəndaşa ödənilir.

Pulu almaq üçün necə müraciət etməli?

Sığorta ödənişi almaq hüququ əldə etmiş şəxs ilkin mərhələdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin yerli qurumları və ya "DOST" mərkəzlərində işsiz şəxs kimi qeydiyyata alınmalıdır. Bundan sonra şəxs sığorta ödənişi almaq üçün ərizə və ərizəyə əlavə edilməli olan sənədləri təqdim edir və sığorta ödənişi təyin edilir.

Müraciət edən şəxsin əmək müqaviləsinin müddətinin qutarmasına görə işdən azad olunursa işsizliyin başlamasından əvvəlki ardıcıl gələn 36 təqvim ayı ərzində müddətli əmək müqaviləsi üzrə 24 aydan, hüquqi şəxs ləğv edildikdə və işçilərin sayı və ya ştatları ixtisar edildikdə, müəssisənin mülkiyyətçisinin dəyişməsi və digər hallar ilə əlaqədar hallarda işdən azad olunarsa, işsizliyin başlamasından əvvəlki 24 təqvim ayı ərzində 12 təqvim ayından çox sığorta stajına malik olması əsas tələblərdəndir.

Ödəniş sığorta stajından asılı olmayaraq, itirilmiş orta aylıq əməkhaqqının 50 faizi məbləğində hesablanır. Həmin məbləğ əvvəlki ildə ölkə üzrə orta aylıq əməkhaqqı məbləğindən çox və minimum sığorta ödənişi məbləğindən az ola bilməz. Sığorta ödənişinə əlavənin məbləği hər uşağa görə 5 faiz artırılır.

Deməli, qeyd olunan hallarda iş yerlərini itirən vətəndaşlarımız ərizə ilə müraciət edərək işsizlər üçün nəzərdə tutulan vəsaiti ala bilərlər".

**Ömər**

# "Kremlin Trampın planına münasibət bildirməməsi Kiyevin işinə yarayacaq..."

**"Vaşinqtonun hazırladığı 28 maddəlik sülh planını qəbul etdirmək üçün Ukraynaya təzyiqi artırdığı xəbəri yayılıb. Ukrayna Prezidenti Volodimir Zelenski yenə çətin vəziyyətdədir. Plan Ukraynanın maraqlarını nəzərə almır, Ağ Ev Kiyevi faktiki Rusiya qarşısında ağ bayraq qaldırmağa sürükləmək istəyir. Zelenski bu plana "hə" deyə bilməz. Ancaq Zelenski ABŞ Prezidenti Donald Trampa qəti şəkildə "yox" deməyi də lazım bilməyəcək".**




Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib. Politoloqun sözlərinə görə, əks halda iki liderin arasında yenidən münasibətlər gərginləşəcək, bu isə Ukrayna Prezidentinə lazım deyil. Zelenski məsələni uzatmağa çalışacaq, uzaqbaşı "təkliflər müzakirə ediləcək" şəklində ifadələr işlədəcək:

"Maraqlıdır ki, Kreml də Trampın planından məmnun deyil. Trampın planı Rusiyanın Ukrayna ilə bağlı istəklərinin tamamını ehtiva etmir. Misal üçün plandakı "dondurulmuş Rusiya aktivlərinin 100 milyard dolları ABŞ-nin rəhbərliyi ilə Ukraynanın yenidən qurulması və investisiya qoyuluşuna yatırılacaq" bəndi Kremli raza sala bilməz. Və ya digər bəndə görə, Rusiya beş bölgə xaricində nəzarət etdiyi digər razılaşdırılmış ərazilərdən imtina etməlidir. Kreml saxta referendumla Xerson və Zaporojyeni Rusiyaya birləşdirdiyini elan edib. Mövcud vəziyyət isə belədir ki, bu bölgələrin təxminən yarısı Ukrayna ordusunun nəzarəti altındadır. Trampın planına görə, Ukraynanın nəzarət etdiyi bu bölgələri Rusiyaya verməyəcək. Belə olan halda Kreml sahibi cəmiyyətinə və yaxın ətrafına Xersonun və Zaporojyenin yarısından imtinasının izah etməli olacaq. Kremlin Trampın planına münasibət bildirməməsi Kiyevin işinə yarayacaq. Avropa İttifaqı da Trampın planının reallığa çevrilməməsi üçün əlindən gələni edəcək".

**Vasif**

AQİL ABBAS

# "NAPOLİ" ON İKİ NƏFƏRLƏ OYNAYIRDI

**İtaliya kimi bir futbol ölkəsinin lideri ilə "Qarabağ" başa-baş oynadı. Bu futboldu, udmaq da var, uduzmaq da. Eybi yox, hələ qarşıda üç oyunumuz var, inşallah, lazım olan xalları toplayarıq.**

**Həmin gün hər şey bizim əleyhimizə idi - hava da, əli beş minlik tamaşaçı da. Bəxtimizdən Medina da zədələnib meydanı tərk elədi. Bütün bunlara dözdük, çarpışdıq. Amma nədənsə meydanda "Napoli"nin on iki nəfərlə oynadığını var-yoxları çöldə qalmış VAR da görmədi.**

**On ikinci oyunçu polşalı hakim idi. Olmayan yerdən qapımıza penalti verdi. Özü də dəfələrlə göstərdilər, oyunun qaydalarını "Napoli"nin futbolçusu pozmuşdu, bizim futbolçunun üzünə əlinin tərsi ilə vurmuşdu. Amma var-yoxları çöldə qalmış VAR bunu görmədi. Əslində gördü ey, o gözü ilə görənlər məsələni "Napoli"nin xeyirinə həll etdilər.**

**Amma Koxalski penaltini dəf edə bildi, VARdakıları var-yoxdan elədi, eləcə də hakimi.**

**Bizimkiləri kobudcasına yıxırdılar, amma gözü ilə görən hakim bunu görmürdü. Amma bizimkilər tıqq eləməmiş "Qarabağ"ı cərimələyirdi.**

**Nə isə, vaxtilə "İnter"in qapısına vurduğumuz qolu da saymamışdılar. Çünki bizə yuxarıdan-aşağı baxırlar.**

**Amma inşallah, "Qarabağ" ona yuxarıdan-aşağı baxanların gözlərini növbəti oyunlarda çıxaracaq.**

**Qurban xocaya və "Qarabağ" komandasının futbolçularına uğurlar arzulayırıq.**

**Qəm eləməyə dəyməz. Hərçənd ki, mən özüm bu gecə yata bilmədim.**

**Yeri gəlmişkən, oyunda futbolçularımızın hamısı qəhrəman idi, amma qapıçımız Koxalski qeyri-adi bir qəhrəmanlıq göstərdi. Eşq olsun!**

# "NEFTÇİ"YƏ "ZBOR" BAŞ LAZIMDI

***Ağdamın Abdal Gülablı kəndində məşhur bir qarmonçalan var idi Şakir adında. Çox duzlu-məzəli və hazırcavab adam idi. Hətta mən onun haqqında povest də yazmışam: "Çay qırağında bitib, susuz qalan ağacların sağlığına..."***

***Deməli belə, Bəxtiyar Vahabzadə, Xudu Məmmədov və professor Nurəddin Rzayev həmin kənddə qonaq olurlar. Şakir bunlara qulluq edir. Şakir sir-sifətdən çox eybəcər idi. Youtube kanalında adını yazıb, baxsanız, qarmonçalan kimi özünüz görərsiniz.***

***Onun bu sir-sifətini görən Nurəddin həkim deyir, Şakir, istəyirsən səni göndərim gözəlləşdirmə universitetində sir-sifətinə bir əl gəzdirsinlər.***

***Şakir gülüb deyir:***

***- Professor, sir-sifətimi düzəltməklə bir şey alınmaz. Əslində mənə təzə, "zbor" baş lazımdı.***

***İndi "Neftçi"də Samir Abasovu istefaya göndərdilər və klubun uğursuzluğunu bütünlüklə onun üstünə atdılar. Demirəm, Samir Abasovun günahı yox idi. Bir az kəmhövsələ idi, özünü təmkinli apara bilmirdi oyun vaxtı və.s .***

***Amma şərhlərdə oxuyuram ki, bir məqşçi kimi Samir Abasovun üstündən xətt çəkirlər və linç edirlər. Bunu qəbul etmirəm. Unudurlar ki, uzun illərdən sonra "Neftçi"ni Samir Abasov çempion eləmişdi.***

***Əslində isə qarmonçalan Şakir kimi "Neftçi"yə təzə, "zbor" baş lazımdı.***

***Həftə səkkiz, mən doqquz baş məşqçini dəyişməkdənsə, klubun rəhbərliyini dəyişmək ondan yaxşıdı.***

***Özü də eşitdim ki, kluba Ukraynadan bir xarici baş məşqçi gətirmək istəyirlər. Bilmirəm, bizim məşqçilərə it dəyib? Özümüzün gül kimi məşqçilərimiz var da...***

## *TDT ölkələri QHT-lərinin Platforması təsis olundu*

**Naxçıvanda Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin QHT-lərinin görüşü keçirilib, ortaq Platformanın yaradılması razılaşdırılıb.**

Adalet.az xəbər verir ki, sözgedən qərar TDT ölkələri qeyri-hökumət təşkilatlarının Naxçıvanda keçirilən Həmrəylik Forumunda qəbul edilib.

Forumda yeni yaradılan quruma rəhbər də seçilib. Belə ki, Milli Məclisin deputatı Azər Allahverənov Platformanın sədri seçilib.

**Platformada TDT üzvü olan və təşkilatda müşahidəçi qismində iştirak edən 8 ölkənin QHT-ləri təmsil olunub.**



# Sənətkar üçün povest növündə... Rekviyem

## Və yaxud Aqil Abbasın əsərləri, Çakondanın təbəssümü, Flora Kərimovanın proses həzzi barədə elegiya

AYDIN CAN

**2000-ci illərin əvvəlində baş redaktor olan dostuma dedim ki, səhhətim həyəcan təbili çalır, ölməyim mümkündür, amma bilirəm, kimsə məndən yazmaz, çünki məni tanımırlar, ruhun rəva görsə, xislətin icazə, bir yazı yazasan! Qısqanmayasan, paxıllıq etməyəsən! Qayıtdı ki, Aydın, özün özünə nekroloq yaz, ver mənə, imza ataram, amma 3 min işarədən artıq olmasın, biləcəklər ki, mən yazmamışam!**

- Əgər mənim ölümüm 3 min işarəlik yazıya sığarsa, kül elə yazının və həm də mənim başıma! İstəmirəm də, ölmürəm də!

Aqil Abbasın "Rəmiş" povestini oxuyanda çox məmnun oldum, çünki Rəmişi sənətkar kimi tanıyanlar nə qədər səmimiyyətlə təəssüf etsələr də, lap elə ürəkdən yansalar da, bu ölümü ifadə etmək məharətləri-səxavətləri cəmi bir və ya iki cümlelik abzasdan o yana keçəsi deyil: çətin xarakteri vardı, virtuoz sənətkar idi, lotu oğlan idi!

Elə bu?

Rəmiş bizlərin bildiyi bu boydaydımı, bu qədərmi idi, bir abzas yetərliydimi Sənətkarlığını, Oğlanlığını və İç Dünyasını çatdırmağa?

Adamdan sağlığında danışanda, ölümündən sonra kimliyini çatdıranda gərək Adamı tanıyasan! Gördüklərimizdə, müsahib olduğumuzda şahidliyimiz TANIMAQ üçün bəs eləmir!

Amma Aqil Abbas Rəmişi tanıyırdı, bilirdi kimdir, bilirdi onu necə alqışlamaq, necə "lənətləmək" ("Bu dünyadan bir Rəmiş keçdi" yazısına da nəzər yetirmək lazımdır!) və necə ağlamaq lazımdır!

Əslində, Aqil Abbasın Ağdam arealını təqdimatında ağır bir mərsiyə ruhu var, adı povest olsa da, əksər povestlərini münacat saymaq olar! Aqil Abbasın təqdimatında obrazlar... METAFORASI güclü, salğarlı, sanballı, səngin olanlardır: həm bioloji, həm də coğrafi vahid kimi!

Povestin ən vazkeçilməz məqamlarından ilki də elə budur ki: Rəmişin haçansa və necəsə "hicrət" etməyini çatdırıb! Kimsə inanmaya bilər, hesab edər ki, tanıdıqları Rəmişin həyatına bu ştrixi Aqil Abbas yazıçı təxəyyülü ilə düzüb-qoşub! Özünüzü aldatmayın - real həyatda belə faktlar var!

Biri elə mənim heç harda tanınmayan dədəm Məmməd - Anasına "Allahım" deyirdi və ona görə deyirdi ki, müharibə illərində gecənin zil qaranlığında onu yerdən-yerə çırpan gözəgörünməzlərin əlindən anası kol-kosluqda alıb xilas etmişdi: atamın bütün yaxşı keyfiyyətləri barədə cümlə-cümlə yazılarımda yamzışam, amma atamın başqa işləkləri haqda yox: oxuyan həmən deyər ki, bu, şeytan belindən və hətta şeytandan qırx gün qabaq dünyaya gəlib.

Rəmişin xislətindəki bütün yaxşılıqlar mələklərin onu oddan, yağışdan qoruyan çətir(li) olmasındadır - povestdə bu, qəşəng və qənirsiz çatdırılıb!

Rəmişin "şeytan" üzü də Atasının diliylə dəqiq çatdırılıb!

Amma Rəmişin sənətkarlığını, seçilmiş şəxsiyyət olmasını Aqil Abbas mükəmməl ifadə edib.

Poverstdə mənə ləzzət edən, heyrətləndirən məqamlar o qədər çoxdur ki, bir povest üçün çox sayıram: povest elə Bakıda, Göyçayda, Şamaxıda, Gəncədə Rəmişin şərəfinə açılan "baqatı" süfrələr kimi "boqatıy"dır-zəngindir, elə Rəmişin ifası kimi, virtuozdur!

ZƏRURİ İZAHAT: "Səslər Tablosunda da Vinçi kodu" ucalığında olan Flora Kərimova ilə görüşəndə bu şərəfdən maksimum yararlanmaq üçün soruşdum:

- Flora xanım, bilə-bilə ki, sizi siyasi mövqeyinizə görə uduzduracaqlar, niyə Faiq Ağayevlə məhkəmə davası açırsınız, axı, sizi sevənlər bundan pəncidə olur!

- Aydın, mənə nəticə maraqlı deyil, mən PROSESDƏN ZÖVQ ALIRAM!

Doğrusu, bu sözü bu anlamda mən azından 30 il idi gözləyirdim hamıdan, təkcə Flora xanımdan yox! Amma və lakin... məhz Flora xanım PROSESin nədənini duyduğunu kamil şəkildə izahladı!

Çünki PROSESlə HƏRƏKƏTin fərqini çox vaxt bilmirik!

SÖZARASI: bir narkomanın əlinə yaxşı bir "şey" düşür, çəkir, kayfda oturur dəniz qırağında, balıq tutur. Toruna düşən qızıl balıq üç arzusunu yerinə yetirəcəyini deyir. Narkoman qardaş da deyir ki, bir, Xəzərin bu üzündən o üzünə körpü tik, iki, Çingiz xanın qoşunlarını o tərəfdən bu tərəfə, bu tərəfdən o tərəfə göndər və üç, körpünü dağıt!

Qızıl balıq arzuları yerinə yetirir və soruşur:

- Bu, sənin nəyinə lazım idi?

- Bilirsən, əzizim, sanki həyat dayanıb, "dvijeniya" yoxdur, istədim ki, bir "dvijeniya" olsun!

Ölkədə PROSES və HƏRƏKƏT yoxdur - bütün sahələrdə!

ELEMENTAR BİR MƏNTİQİ SUAL: bilirsinizmi indi niyə "dissident ədəbiyyatı" və "provokasiyon antisovet" yazılar anlamında-dəyərində-statusunda, faydasında mükəmməl əsərlər yaranmır? Çünki "Kamil müəllimin çayxanası", ""Azadlıq"ın redaksiyası" tipində HƏRƏKƏTləri tənzimləyən PROSES- müzakirələr yoxdur. Düşüncə də yoxdur, məkan da!

Və.. ümid sonda ölür. Azərbaycanda nələrsə baş verir - heç olmasa, ədəbi müstəvidə, nə qədər bərbad olsa da!

Üstəlik də bizim PROSESdən xəbərimiz yoxdur, HƏRƏKƏTlərimiz mücərrəd olmasa da, anlamı və mahiyyəti mücərrəd olan nəzəriyyə tezisləri üstündədir!

Ədəbi tənqid, ekspert və elmi-ədəbi-ictimai-siyasi analitika institutlarının nümayəndələri isə heç vaxt oturuşmuş, kalka, trafaret və şablon resursdan başqa heç nəyə əl atmaq istəmir!

Menyüdə ədəbi-sosial-elmi-siyasi sifariş bəsit, kütləvi populizm desertləri üstündədir, cəmiyyət aclıq hiss etmir!

Açıq təfəkkür və qlobal düşüncə səslənməyə meydan, getməyə yol və girməyə kanal-deşik tapmır! Faktiki isə nümunələr var! Sadəcə, diapazon və düşüncə kreativliyi çatmır! Hətta bu da var e, amma bununla məşğul olanlarda yoxdur, başqaları başqa yerdə başqa cür təbliğ edir, amma cavabdeh və mükəlləf olanlar...

Ancaq Aqil Abbasın "Rəmiş" povestində "yoxdur" deyib giley etdiklərimin hamısı, həm də PROSES və HƏRƏKƏT var. Dinamikası sabit yüksələndir!

Taxtaya bərkidilmiş simlərlə musiqi dünyasına cəhdin Aşıq Xanpolada şagirdlikdən keçərək Qurban Primovun tarının hədiyyə alınmasınadək. Yol yolçuluğunda da, məclis içində də hər zaman ƏMƏL var! Xarizma diqtəsi və zamanın müəyyən etdiyi fəaliyyət hüdudlarının sərhədlərini aşma gücü, cəsarəti və bütün bunları cəzaya layiq görülmədən sərgiləmək var! Dəliliyin içində bir ağsaqqalıq olmasa da, yekə, böyük bir kişinin ərdəmlik surəti boy atır!

SÖZARASI: Ağ Şəmsəddin Sultan Mehmet Fateh ona şəyirdliyə veriləndən az sonra ondan imtina edir, deyir ki, bundan mənə şəyirdmürşid çıxmaz. Sultan Mehmet Fateh İstanbulu alanda qeybətcillərxəbislər bu faktdan yararlanmaq istəyəndə qısa və konkret cavab verir:

- Lan, sən indi onu fateh kimi görürsən, mən onu on yaşında olanda görmüşdüm! Özümə şəyird saxlasaydım, aftafa tutanım olardı, bildinmi, lan?

Qurban Primov tarını bağışlayanda onu FATEH görmüşdü - Aqil Abbas yazıçı olaraq, bunu gözəl çatdırıb!

Qurban Primov o dövrdə sənətdə mürid olanlardan biri idi!

Mənim üçün Qurban Primovun həmin hədiyyə tarının satılmaması da, sındırılması da elə başlığa çıxardığım "Cakonda təbəssümünün sehri"ni ifadə edir!

Erməni tar ustası Xaçı yaxşı ki sədefli sazın qırıqlarını yığıb muzeyə verib - muzeydəki tardan heç nə gəlməz, amma o tar kimsədə olsaydı, hə, bax, onda fəsadı olardı!

O tar idi Rəmişin "Qıratı" - "Giziroğlu Mustafa bəyin Alapaça"larına, əmuduna sinə gərdirən! Baxmayaraq ki, Rəmiş artıq gitara çalırdı! Zənginlərin "qaraj"ında antikvar silahlar, maşınlar olduğu kimi, yəni!

Rəmişin obraz sərvəti səxavətlə qələmə alınıb! Amma məhz səxavətli obrazı! İsrafçı deyil Rəmiş - öz istedadından-sərvətindən İSTEDAD SƏDƏQƏSİ verən, xüms-zəkat ayıran çox mömin bir obrazı ilə tanış oldum - ağızlardakı folklor nəğmələrindən fərqli olaraq!

Gitarasını ona heyran qızın evindən çay gətirən adaşına hədiyyəsi Tanrı yanında Nəfsin və Səxavətin Həllac Mənsur, Hatəm Tai məqamıdır! İllah da ki o qıza toxunmaması!!!

Rəmişin Paqanini ilə eyniləşdirilmə və oxşarlaşdırma təhkiyəsi AZƏRBAYCANLI VAHİDİNİN qürur və şərəf səhifəsidir - Aqil Abbasa sevgilərlə təzim edirəm!

Bir məqamda isə Aqil Abbas bu povestdəki Moskva səhnəsinə görə mənim üçün Uilyam Somerset Moem ucalığına qalxdı!

Müəllif öz ölkəsinin vətəndaşını-sənətkarını qürurlu, şərəfli və virtuoz təqdim etməyi bacarmalıdır!

Lyonyanın "Paqanini" filminin prezentasiyasında Rəmişi səhnədə tək saxlaması və sonda alqışlarla mükafatlandırması həyatda sıra sayı ilə neçəncisə olsa da, ədəbiyyatda ilkdir!

Rəmiş verdikləri ovsanaya düşən, əvəzi 700 qat qayıdan çox nadir seçilmişlərdəndir - dünyanı gəzən "Moskviç"in Gəncə ətrafında xarab olması və gedib Orta Asiyaya çıxmasından sonrakı hadisələr bunun təsdiqidir!

Sağ olsun, Aqil Abbas - bu əsrarəngiz məqamları adamın ürəyinin başını titrədəcək qədər səmimi və məsum yazır!

Hər dəfə Aqil Abbasın bir povestini, bir romanını, bir köşə yazısını oxuyanda gözlərim dolur: Aqil Abbas özü müsahibəsində mənə demişdi ki, Folkner deyirdi ki, mənim kəndimdə 4000 adam var, mən dördündən dörd roman yazmışam, 3996 roman qalıb! Bəli, Aqil Abbas öz kəndindən - Azərbaycandan 4 roman yazıb, ancaq 9999996 roman hələ qalıb. Mən də sevinirəm ki, Aqil Abbas yazır, yazmaqda davam edir, "əlindədir hələ qələm"!

Axırıncı dəfə "Çay qırağında bitib, susuz qalan ağacların sağlığına " povestini oxuyanda mütəəssir olmuşdum. Yazılar da yazdım. İndi isə... Aqil Abbasın "Rəmiş" povestini oxudum. Uilyam Somerset Moemin "Ostri britvı" və "Luna i qroş" əsərləri gözümün qabağına gəldi! Mənə "Rəmiş" daha doğma, daha şirin oldu!

Bütün rakurslardan baxanda belə, heç bir halda təftiş və təhlil tərəfinə keçmədim, keçə bilmədim, mümkün də olmadı, istəmədim də!

Bilirsiniz, niyə? Aqil Abbas istər "Rəmiş" povestində, istər Qədir Rüstəmov haqqında yazdıqlarında, istərsə də Ağdam xatirələrində o qədər USTAD təqdimat və təsvir nəhəngidir ki, elə bilirsən, sən bu an Qədirləsən, Rəmişləsən (eləcə də başqaları) və Ağdamdasan! O məclislərin bütün əzəmətini görür, ehtişamını yaşayır, həzzini alırsan! O tarixi adamların ədəbi obrazlarını qəbul edirsən, dostlaşırsan, anlayırsan, özünün olana bayılırsan!

Mən təkrar-təkrar oxuduğum və hamının əlinin altında olan "Rəmiş" povestinin ədəbi-bədii tərəfini çözməyəcəm - əsas süjet xəttindən, kompozisiyasından ştrixləri çatdırdım, amma bötüvlükdə, kim istəsə, istənilən abzasının müzakirəsini aça bilərəm və POVEST kimi möhtəşəm bir nümunə olduğunu isbatlayaram!

Əlavə olaraq deyim ki, Aqil Abbasın bu povesti ədəbiyyat həvəsliləri üçün həm də gözəl bir nümunədir: hər olayı, əhvalatı hekayəyə-povestə-romana gətirmək olmaz, hər adamı da obraza çevirmək. Aqil Abbas bu povestdə ədəbi obraz olmağa layiq birini sözləndirib-şəkilləndirib: Rəmiş seçilmişlərdəndir, seçilmişlərdən olduğu da sənətkarlıqla qələmə alınıb! SÖZARASI: Uşaq idim. Hardansa gitaraçı Rəmişin kasetinə qulaq asası oldum - bizim evdə nə maqnitofon vardı, nə də musiqi həvəskarı! Atama dedim ki, mənə bir gitara al! Solaxayam mən, gitara ustası da tapmışdım şəhərdə, qiymətini də öyrənmişdim, atama da dedim. 300 rubl! Təfərrüatı yazmıram, amma deyim ki, atam mənə gitara da almadı, hələ bir televizorun lampasını da çıxardıb gizlətdi ki, get dərslərini oxu!

Dostlar məni təriflәyəndə deyirəm ki, mən hansı sənətlə məşğul olsaydım, elə belə möhtəşəm olardım. Gitara çalsaydım, elə Rəmiş kimi virtuoz olardım!

Akif İslamzadə Alim Qasımov haqqında yazımı oxuyub etiraf elədiyi kimidir, əslində: Mən cəhd elədim Alim Qasımov kimi oxumağa, Allah səsimi aldı, bəyan etdi ki, o ifa Alim Qasımov üçündür!

Aqil Abbasın "Rəmiş"i məni daha nə barədə düşündürdü, deyim:

Təsəvvür edin ki, dünya YALNIZ Azərbaycandan ibarətdir, Ağdam özü bir ölkədir - siz bu Ağdamda İtaliyanı - La Skalanı, Fransanı, Yelisey parkını, Kolumbiyanı-Çilini, astek, mayya, ink məbədlərini, Pablo Nerudanı, Markesi, Mario Varqas Lyosanı görə bilərsiniz! Aqil Abbasın əsərlərində təqdimat bu qədər alidir!

Və... əslində də hər bir yazıçının borcu elə budur: öz əsərini- kəndini, şəhərini, ölkəsini... dünyaya ölkə miqyasında bəşəriyyətlə tanış etmək!

Əslində, hər dəfə Aqil Abbası oxuyanda başa düşürəm, hiss edirəm, təəssüflənirəm ki, Azərbaycanda Ağdamdan başqa rayon yoxdur. Məsələn, Qazax rayonu - bilginiz-filan varmı? "Qazaxşina" adıyla ittiham da etdik, hanı Aqil Abbasın Ağdam və Qədir Rüstəmov, Rəmiş və başqalarından yazdığı mahiyyətdə təqdimatlar?

Azərbaycanın Qazax adında rayonu varmı - ədəbi obraz şəklində?

"Rəmiş" povestində bütün Azərbaycan öz adət-ənənələri, milli mental dəyərləri və həm də kosmopolitizmi ilə var! Rəmiş bütün çalarlarda Azərbaycanlı sənətkarın olmalı olduğu sifəti-üzü, şarmı, xarizması olaraq, bitkin ifadə olunub!

Nəzərə alsaq ki, Azərbaycan ÇOOOX BÖYÜK ÖLKƏLƏRDƏN İBARƏT İMPERİYADIR - bunu çatdırmaq ədəbiyyatın və ədəbi tənqidin, anlamaq oxucuların işidir! Yetər ki, Aqil Abbası oxuyasan!

Bir daha deyirəm: "Cakonda" sirli təbəssümü ilə cazibədar deyil TƏKCƏ. Həm də çox böyük şərtlər və bilgilər var ki, onlardan agah olmalısan - İbrahim Nebioğlu dünənki statusunda təfsilatı ilə yazıb!

Hər bir əsərin sehri var! Hər bir müəllifin zamanı incələyə bilən PROSES yaratma, PROSESi bilmə, HƏRƏKƏTə gətirmə HƏRƏKAT sənətkarlığı-peşəkarlığı, fövqəladəliyi var!

Aqil Abbası oxuyanda yalın əllə, piyada, çəhrayı eynəklə yox, Azərbaycanı, Azərbaycanlıları sevərək, böyük bilərək oxumaq lazımdır. Müəllif olaraq, PROSESi təqdim edir, Flora Kərimovadan fərqli olaraq, həm də NƏTİCƏsinə yiyəlik edir.

Bu mənada, Aqil Abbas İMPERATOR imza(lardan)dır - İMPERATİVləri... ali, açıq təfəkkür və qlobal düşüncə ilə ifadə olunan ən sadə variantlar məcmusu olaraq!

YAZIYA SÖZARDI: Türk seriallarında bəzi əşirətlərin rəqs havalarında "xor səs" elementi var! Sadə desək, ulama məqamları - Türk Torununa fizika elm kimi məlum olmayanda, BİRGƏLİYƏ səsləyən işarəsi: şeypur, zurna, ocaq qalama variantları hələ tətbiq olunmurdu. Həmin o türklər fizikadan, radioelektronikadan xəbərsiz idilər! Totemlərindən yararlanaraq birliyə... ULAMAQLA nail olanlar hərdən bu "xor səs"ə sayğı göstərməlidirlər: Aqil Abbasın hər yazısında o "xor səs" - "ulama" var! "Rəmiş" povestində bu "ulama" elə Rəmişin özüdür, hərçənd çiynində meymun gəzdirsə də - Maestroyla dialoqu çox gözəl açıqlamadır!

Sadəcə, eşitmək, duymaq, çağırışa hay vermək üçün gərəkdir ki, gen sayıqlığı olsun!

**SON: Qədir Rüstəmov mahnımuğam, Rəmiş gitara ifaçılığında kimdirsə, hansı ucalıqdadırsa, Aqil Abbas da yazıçılıqda elə o zirvədədir! Onlar mahnı ifa edirlər - virtuoz, Aqil Abbas Ağdamı ifa edir - virtuoz!**

***P.S. "Rəmiş" povestini oxuyanda ömrümdə ikinci dəfə ürəyimdən keçdi: kaş ki, adam öləndən sonra adamın Aqil Abbas kimi bir Şair obrazında dostu ola, xalq ən gözəl ağı-mərsiyə oxuyacaq. Povest növündə və adamın öz Adında!***

***Həm də hamı tanıyacaq ki, bu dünyadan biri keçdi!***

# Özünə şəhidlik arzuladı, əsir qadını azad etdi

## Pəncəlinin ata evindən REPORTAJ

**2016-cı il Şanlı aprel döyüşlərində qəhrəmancasına şəhid olan Xüsusi Təyinatlı hərbçi Pəncəli Teymurovun ailəsini və məzarını ziyarət etmək çoxdankı arzum idi. Amma təəssüflər olsun ki, bu illər ərzində mənə qismət olmamışdı. Bu dəfə rayona səfərim zamanı iş adamı, xeyriyyəçi Rafiq müəllim Abışovla görüşəndə bu arzumu dilə gətirdim. Rafiq müəllim isə bu səfəri təşkil etməyi öz üzərinə götürdü.**

Beləliklə, noyabrın 23-də bir qrup ziyalı dostumuzla Cəlilabaddan Pəncəlinin doğulub boya-başa çatdığı Astaranın Əzərüd kəndinə yola düşdük.

Yolboyu söhbətimiz zamanı Astaranın hündür dağlarına baxanda yazıçı dostumuz Meyxoş Abdulla mənə deyir, ”Vasif, bu dağlarda böyüyən uşaq ancaq qəhrəman ola bilər. Elə deyilmi?”. Onun fikirləri ilə razılaşıram. Doğrudan da meşənin içi ilə Əzərüd kəndinə gedən dolama yolun enişli, yoxuşlu və sərt döngələri bizi təəccübləndirir. Yolda maşınları saxlayıb bu mənzərəli yerlərdə xatirə fotosu da çəkdiririk.

**Günorta saatlarında Pəncəlinin ata evinə çatırıq. Bizi şəhidimizin anası Vahimə xanım, qardaşı Elbrus və yaxınları qarşıladı. Vahimə ana Pəncəliyə Azərbaycanın Milli Qəhrəmanı adını verdiyi üçün Ali Baş Komandan Prezident İlham Əliyevə təşəkkür edir:**

”Təbrikiniz üçün çox sağ olun. Mən neçə illər idi bu günü gözləyirdim. Pəncəlini Milli Qəhrəman adına layiq gördüyü üçün ölkə başçımız, Prezident İlham Əliyevə özüm və ailəm adından təşəkkür edirəm. Ali Baş Komandanı həm də təbrik edirəm. Dünən Prezidentimizin qızları Leyla və Arzu Əliyevalar da bizdə qonaq oldu. Onlara da öz minnətdarlığımı bildirdim. Pəncəli Milli Qəhrəman adına layiq görüldüyü gündən bu yana ölkənin hər bir tərəfindən insanlar bizi ziyarətə gəlir. Biz buna görə çox sevinirik”.

**Vahimə xanımla birlikdə Pəncəlinin ev muzeyinə gedirik və burda gördüklərimiz bizə çox maraqlı gəlir. Şəhid anası deyir ki, muzeydə Pəncəlinin corablarına kimi yadigar saxlanılır:**

”Burda Pəncəlinin geydiyi ayaqqablar, paltarlar, hətta corablarını da saxlayırıq. Şəxsi əşyaları, medalları və digər əşyalar da burdadır. Mən onlara baxıb toxtaqlıq tapıram. Pəncəli həmişə məndən dolayısı yolla halallıq istəyirdi, amma mən başa düşmürdüm. Sən demə hər şey bu gün üçün imiş”.

**Şəhid anası ev muzeyinin necə tikilməsinin tarixçəsini danışır:**

”Bu muzeyin yerində ikiotaqlı evimiz var idi. Bir dəfə Pəncəli böyük qardaşı Elbrusa dedi ki, ”Mənə yer verərsən gələcəkdə burda özümə ev tikərəm?”. Qardaşı da dedi ki, Pəncəli, əlbəttə. Nə vaxt istəsən, gəl tik!”. Əslində Pəncəliyə burda ev lazım deyildi, o, Xırdalanda özünə ev almışdı. Pəncəli şəhid olandan sonra mən onun bu arzusunu gerçəkləşdirmək üçün o köhnə evimizi söküb yerində onun ev muzeyini tikdirdim. Muzeydə onun bütün şəxsi əşyaları, hətta avtomobili belə saxlanılır. O, şəhid olandan sonra hərbi hissədən avtomobilini gətirdilər. Bu mənim üçün ən ağır səhnələrdən biri idi”.

**Pəncəlinin toyunda özünə şəhidlik arzulaması anasının dediyinə görə, hamının təəccübünə səbəb olub, hətta qonaqlar ağlayıblar:**

”Pəncəlini evləndirmək istəyirdik, amma işinə görə heç evdə olmurdu. Atası mənim bacım qızını çox istəyirdi və Pəncəliyə dedi ki, o qızla evlən. Pəncəli də razılaşdı və ailə qurdular. Toyunu edəndə məsləhətləşdik və Manaf Ağayevi dəvət etdik. Manaf müəllim üç saat toyda oxudu.

Pəncəli mikrafonu götürüb özünə şəhidlik arzulayanda hamımızı ağlamaq tutdu.

Toydan sonra dedim ki, bu nə idi özünə arzuladın? Heç nə demədi. O, iki il yeddi ay evli oldu, amma heç yeddi gün evdə olmadı.

Övladı da yox idi. Pəncəli şəhid olandan sonra müğənni Manaf Ağayev övladları ilə bizə gəldi, oğlumun məzarını ziyarət etdi və ”Vətən oğlu” mahnısını oxudu”.



### “İcra başçısı demişdi ki, anası Pəncliyə baxmasın...”

”Pəncəlinin şəhid xəbəri gələndə icra başçımız demişdi ki, qardaşı gedib Pəncəlinin meyitinə baxsın, anası baxmasın, yoxsa, dayana bilməz. Dedim ki, narahat olmayın, heç bir şey etməyəcəm, sadəcə onun üzünü görüm. Bilirəm müharibədir, o döyüşüb, tikə-tikə ola bilər. Amma nişanələrinə baxacam. Pəncəlinin üzün açdılar baxdım, üzü salamat idi, amma arxa tərəfi və ayaqları parça-parça idi. Dedilər ki, qumbara ilə özünü partladıb” (Ağlayır).

**Vahimə ananın Pəncəli haqqında xatirələri bizə çox maraqlı gəlir və suallarımızı verib onu danışdırırıq. Şəhid anası deyir ki, Pəncəli ermənilərin hərbi hissəsində andiçmə mərasimində iştirak edib:**

”Ermənilərin hərbi hissəsində andiçmə mərasimində iştirak edib. Daha sonra kazarmaya girərək stolun üstündə olan əşyaları götürüb, ardıyca divara əlinin şəklini çəkərək ordan uzaqlaşıb. Erməni komandirlər itən əşyalara görə əsgərləri sorğu-suala çəkiblər, amma əşyaların yerini bilən olmayıb. Onlar divarda Pəncəlinin əlinin şəklini görəndə deyib ki, bura Pəncəli gəlibmiş. Ondan sonra Pəncəlinin başına pul qoymuşdular”.

**Vahimə ana deyir ki, Pəncəli azərbaycanlı qadını əsirlikdən xilas edib, amma biz bundan o şəhid olandan sonra xəbər tutduq:**

”Pəncəli şəhid olandan sonra Beyləqandan olan bir nəfər oğlum Elbrusa demişdi ki, Pəncəli əsirlikdə olan azərbaycanlı qadını xilas edərək Azərbaycana gətirib. Hadisə isə belə olub. Pəncəligil əməliyyata gedəndə biz tərəfdən onlara deyilib ki, düşmən sizi gördü, bu əməliyyatı təxirə salın. Amma onlar qəbiristanlıqda gizləniblər. Bu zaman ora çox pis vəziyyətdə olan bir qadın gələrək yaxının məzarı başında ağlamağa başlayıb. Qadının Azərbaycan dilində ağı deməsi Pəncəlinin təəccübünə səbəb olub. O, komandiri şəhid polkovnik-leytenant Murad Mirzəyevə deyib ki, icazə verin qadını tutub yanımıza gətirim və görək bu kimdir. Murad Mirzəyev icazə verməyib və deyib ki, ola bilsin bizim yerimizi müəyyən etmək üçün bu ermənilərin hiyləsidir. İki gün gözləyiblər və üçüncü gün qadın yenə məzar başına gələndə Pəncəli onu tutub yanlarına aparıb. Orda qadının həqiqətən azərbaycanlı olduğu məlum olub. Yaxınlıqdakı fermada işlədiyini deyən azərbaycanlı qadın əsirlikdə olmazın işgəncələrinə məruz qaldığını deyib. Pəncəli komandirinə deyib ki, bu qadını ermənilərin əlindən xilas edib Azərbaycana aparacaq. Elə dediyi kimi də edib”.

### “O, qadın mənim əlimdən, ayağımdam öpməyə başladı...”

”Günlərin bir günü həyətimizə bir neçə nəfər adam gəldi. Hamı maşından düşsə də bir qadın düşmədi. Amma elə hönkür-hönkür ağlayırdı. Maşına yaxınlaşıb onu evə dəvət edəndə qadın maşından yerə düşüb ayağımdan başıma kimi məni öpməyə başladı. Dedim ki, belə etməyin, mənim üçün günahdı. Sonra süfrə açdıq, o yemək yemədi, bir qurtum çay içdi. Ancaq gözyaşlarını saxlaya bilmirdi. Mən hələ də bu qadının kim olduğunu bilmirdim. Muzeyə daxil olub Pəncəlinin batinkalarının altını öpürdü. Özüm də təəccüblə baxırdım. Amma kim olduğunu, niyə bu qədər hönkür-hönkür ağladığını düşünürdüm. Bu qadını və yanındakı qonaqları yola saldıqdan sonra oğlanlarıma dedim ki, onun kim olduğunu araşdırsınlar. Araşdırandan sonra məlum oldu ki, bu qadın Pəncəlinin xilas etdiyi həmin o əsir qadın imiş”.

**Şəhid anası Pəncəlinin komandiri general-polkovnik Hikmət Mirzəyevin onlarda qonaq olduğunu bildirib:**

”Evdən yola baxanda görürdüm ki, qara maşınlar sürətlə Pəncəlinin məzarı istiqamətində gedir. Bir neçə gün bu gediş-gəlişi müşahidə etdim. Günlərin bir günü gəlib məni evdən Pəncəlinin məzarı başına apardılar. Gedib gördüm ki, burda hərbçi əlindən yer yoxdur, Xüsusi Təyinatlılar hamısı burdadır. On dəqiqə sonra bir maşın dayandı və bir neçə hərbçi düşdü. Hikmət Mirzəyevi uzaqdan görən kimi tanıdım. Görüşdük və o, Pəncəlinin məzarı başında durub onunla söhbət etməyə başladı. Bu görüş də bizim üçün çox təsəlli oldu”.

Qeyd edək ki, şəhid Pəncəli Teymurov aprelin 11-də doğulduğu Astara rayonunun Əzərüd kəndində torpağa tapşırılıb. 1981-ci il təvəllüdlü Pəncəli Teymurov hərbi xidmətini başa vurduqdan sonra könüllü olaraq, xidmətini davam etdirib. Yüksək bacarıq və peşəkarlığı, nümunəvi xidməti nəzərə alınaraq o, 24 iyun 2015-ci ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə ”İgidliyə görə” medalı ilə təltif olunub. 2016-cı il Şanlı aprel döyüşləri zamanı isə qəhrəmancasına şəhid olub. Ölkə başçısının göstərişi ilə ölümündən sonra ”Vətən uğrunda” medalıyla təltif edilib. Prezident İlham Əliyevin 07.11.2025-ci il tarixli Sərəncamı ilə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

**Allah cəmi şəhidlərimizə rəhmət eləsin!**

**Vasif ƏLİHÜSEYN**
**Astara, Əzərüd kəndi.**

*Rüstəm Hacıyev*



## "Tramp planı" - sülh, yoxsa kapitulyasiya?..

***Dünyanın kütləvi informasiya vasitələri, siyasətçilər, aparıcı dövlət rəhbərləri və ən nəhayət sadə vətəndaşlar neçə gündür hələ ki, nə ABŞ administrasiyası, nə maraqlı tərəf sayılan Ukrayna prezidenti təfəfindən açıqlanmayan "Tramp planını" müzakirə edirlər.***

***Ukrayna münaqişəsinin sülh (?) yolu ilə nizamlanması ilə bağlı 28 bəndlik "Tramp planının", Rusiya tərəfi ilə birgə hazırlandığını iddia edənlərdə var. Onların fikirincə, belə bir planın hazırlanması, guya hələ keçən ay Tramp və Putin arasında Alyaskada keçirilən görüşdə razılaşdırılıb.***

***Rusiya tərəfi- Putinin mətbuat katibi Dmitri Peskov və RF-sı XİN-nin sözçüsü Mariya Zaxarova and içirlər ki, "Tramp planı"nın üzün görməyiblər. Lakin, Kremlin ruporları-tele aparıcıları, siyasi şərhçiləri artıq ciddi-cəhdlə yayılan 28 bəndlik planın müzakirəsini aparırlar.***

***ABŞ prezidenti Donald Trampın, Ukrayna prezidenti Volodimir Zelenskini təhdid etməsi, ona bu sənədi imzalaması üçün bu ayın 27-nədək vaxt verməsi, onsuzda gərgin olan vəziyyəti daha da gərginləşdirib. Hələ üstəlik Ukrayniyaya göstərilən hərbi və humanitar yardımlarda korrüpsiya əmməllərinin aşkar olunması da, ciddi müzakirələrə səbəb olmaqdadır.***

***Hiss olunur ki, Tramp administrasiyası Ukraynanı hər tərəfdən sıxışdıraraq, işğal edilən ərazilərdən əl çəkməyə, təslim aktını imzalamağa məcbur etmək niyyətindədir.***

***Həm müharibə çəbhəsində, həm də siyasi arenada çətin seçim arasında qalan Ukrayna prezidenti, xalqa müraciət edərək, ya şərəfsizcəsinə kapitulyasiya aktını imzalamaq, yada ABŞ kimi yaxın müttəfiqini itirmək seçimi etmək arasında qaldıqlarını bidirdi.***

***Ukrayna prezidenti, "mən ABŞ planına hələ 2019- cu ildə cavab vermişəm"- deməklə, əslində Trampın təqdim etdiyi kapitulyasiya aktına qol çəkməyəcəyini bidirdi.***

***Rusiya prezidenti isə, heç nədən xəbəri olmamış kimi susur.***

***Müharibənin bu cür alçaldıcı "sülhlə" (kapitulyasiya) başa çatacağından təşvişə düşən Avropanın aparıcı dövlət başçıları bir yerə toplaşaraq, bu planın regionun təhlükəsizliyinə zərbə vuracağını ABŞ prezidrnti Trampın nəzərinə çatdırmaq və planın nisbətən yumşaldılmasına çalışırlar.***

***Görünən odur ki, "Tramp planının" tam mətni rəsmi olaraq açıqlanmayana qədər, müzakirələr də, müharibə də davam edəcək...***

## 101 nəfər Azərbaycana readmissiya edilib



**Azərbaycan Respublikasının imzaladığı və qüvvədə olan readmissiya sazişləri çərçivəsində cari ilin avqust-oktyabr ayları ərzində 101 nəfərin ölkəyə readmissiyası həyata keçirilib.**

Adalet.az xəbər verir ki, bu barədə APA-nın sorğusuna cavab olaraq Dövlət Miqrasiya Xidmətindən məlumat verilib.

”Dövlət Miqrasiya Xidmətinə 2025-ci ilin avqust-oktyabr ayları ərzində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyata alınması ilə bağlı 108006 müraciət daxil olub. Bundan əlavə, müvafiq dövr ərzində Azərbaycan Respublikasının ərazisində yaşama icazələrinin alınması və müddətinin uzadılması ilə bağlı 25940 müraciət daxil olub. Həmçinin 2025-ci ilin avqust-oktyabr ayları ərzində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olması üçün iş icazəsinin alınması və müddətinin uzadılması ilə bağlı 2699 müraciət qeydə alınıb. Müvafiq dövr ərzində tənzimlənməyən miqrasiyaya qarşı mübarizə tədbirləri çərçivəsində 7481 qərar qəbul edilib”, - Xidmətdən bildirilib.

## Bakıda SSRİ bayrağı qaldıranlar həbs olundu

**Sosial şəbəkələrdə kommunist ideologiyasının təbliğinə dair SSRİ bayraqları ilə yürüş etməyə cəhd göstərən bir qrup şəxs saxlanılıb.**

Bu barədə Adalet.az-a Daxili İşlər Nazirliyindən məlumat verilib. Bildirilib ki, polis əməkdaşlarının keçirdiyi əməliyyatlarla Abdulla İbrahimli, İbrahim Əsədli və yürüşdə iştirak etmiş digər şəxslər müəyyən olunaraq saxlanılıb və barələrində cinayət işi başlanılıb. İlkin istintaqla həmin şəxslərin başqa bir dövlətin dəstəyi və ayırdığı maliyyə hesabına ofis icarəyə götürərək qrup halında fəaliyyət göstərməsi və vaxtaşırı toplantılar həyata keçirməsi müəyyən olunub.




Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az


# Onlar sanki bir mələkdi...

**... Ürəyimdən şikayətim olanda həmişə Elmi-Tədqiqat Kardiologiya İnstituna üz tuturam. İllərdir orada çalışan müalicə həkimim tibb üzrə fəlsəfə doktoru, dostum Rafiq Yusifliyə müraciət edirəm.**

**Bu günlərdə yenə ora getmişdim. Hara getdik bizi hörmətlə qarşıladılar. Və ağ xalatlı bu insanlar sanki mələkləri xatırladırdı. Çünki bura gələn bütün xəstələr həkimlərə böyük ümid bəsləyirlər. Nigar adlı bir tibb işçisi hamıya hörmətlə yanaşırdı. Mənə də diqqət və qayğı göstərib, analiz üçün venamdan qan götürməyə göndərdi. Oradakı qan götürənlər də özünəməxsus bir təbəssümlə dedi ki, Allah hamınızın şəfasını versin!**

**... Növbəti müayinəm kardioqram oldu. Orada məndən əvvəl bir qazi vardı, öncə onu kardioqrama elədilər. Həmin xanım da xəstələri nəvazişlə qəbul edirdi. Dedi ki, səhər-səhər əsəbləşib-eləməyin, hamınızı qəbul edəcəyəm.**

**Bu tibb işçisi Yaqut xanım idi. Və mənim də ürəyimin kardioqramasını çəkdi. Hətta onu da dedi ki, qorxulu heç nə yoxdur.**

**Sonra həkim-kardioloq Kəmalə Hüseynovanın işlədiyi otağa getdik. Burada isə pasiyentlər EXO kardioqrama olunur. Məndən əvvəl dörd nəfər vardı. Onların hər birini Kəmalə xanım çox səbrlə, çox diqqətlə dinlədi və müayinədən keçirdi. Mənə dedi ki, müəllim, siqaret çəkənsiniz? Təbii ki, "yox" - dedim . Həkim də bildirdi ki, ekranda baxanda hiss olunur, nəfəsiniz rahatdır, ürəyinizin də gücü 56%-dir. Heç elə bil ki, ürəyinizə stend qoyulmayıb. Onun elə bu 2 kəlməsi mənə dərman kimi təsir etdi.**

**Dedim ki, Kəmalə xanım, siqaret çəkmirəm, spirtli içki qəbul eləmirəm, gündə də 4-6 kilometr piyada gəzirəm və pəhriz saxlayıram. Həkim isə "yaxşı eləyirsiniz, dərmanları vaxtında atın, hər şey inşallah yaxşı olar" - deyərək bizi gülərüzlə yola saldı.**

**Kəmalə xanımın yanında bir qadın xəstənin vəziyyəti ağırlaşmışdı, nəfəs ala bilmirdi və az qala ölmüşdü. Təcili həmin xəstənin həkimini çağırdı, onu arabaya qoyub, öz həkiminin yanına apardılar. Məlum olub ki, xəstənin təzyiqi 240 imiş. Həkimlərin köməyi ilə xəstənin təzyiqi aşağı salındı və vəziyyəti yaxşılaşdı!**

**USM həkimi Samirə xanım Hüseynova isə çox səmimi və sadə bir insandır. Bütün daxili orqanlarımı müayinədən keçirdi. Və dedi ki, bəzi narahatlıqların var, onları da balaca bir müalicə ilə aradan qaldırmaq olar.**

**Müayinələrin nəticəsi ilə müalicə həkimim Rafiq Yusifli tanış oldu, məsləhətlərini verdi. Rafiq həkim həmişə deyir ki, professor Bexterevin qəşəng bir sözü var: "Xəstə həkimin yanından çıxandan sonra özünü yaxşı hiss etmirsə, o həkim yaxşı həkim deyil!" Və mən də həmişə Rafiq həkimin yanından, eləcə də Kardiologiya İnstitutundan çıxandan sonra özümü yaxşı hiss eləmişəm, ürəyimə, qəlbimə, dizimə güc gəlib. Bu dəfə də bu gücü hiss elədim!!!**

**Kardioloqların hamısı çox kübar adamlardır. Təbii ki, belə ağ xalatlılar həmişə insanların dadına çatan mələyə bənzəyirlər!!!**

## 36 nömrəli marşrut...



**Bu marşrutda işləyən avtobuslarda bir qayda olaraq hər addımbaşı qanun pozuntusuna rast gəlmək olar! Birincisi, əksər marşrutlar kart sisteminə kiçsə də bu avtobuslarda hələ də sərnişinlər pul bağdı yola ödəyir. Yəni köhnə hamam, köhnə yaşıdır və kart sisteminə keçilməyib.**

Bununla yanaş, ən böyük nöqsan avtobuslar arasında olan intervalın çoxluğudur. Dayanacaqda avtobusları gözləyən sərnişinlər ən azı 15- 20 dəqiqə və daha artıq vaxt itirməlidir.

Təbii ki bu da, həmin marşrutdan istifadə edən insanların haqlı narazılığına səbəb olur. Hələ biz sürücülərin mobil telefonla danışmağını demirik. Avtobus sürücüləri Köhnə Günəşlidən Yeni Günəşliyi keçəndə nəqliyyat vasitəsini yüksək sürətlə idarə edirlər.

Allah eləməmiş, həmin vaxt piyada yol keçsə, yaxud texniki nasazlıq yaransa , ağır qəza qaçılmaz olar. Sözümüzün canı ondan ibarətdir ki, bu marşrutda hərəkət edən avtobusaların hamısı fiziki və mənəvi cəhətdən köhnəlib .

Onlar xətdən çıxarılıb daha müasir və yeni avtobuslarla əvəzlənməlidir! Heç şübhəsiz ki, bunları bu marşrutun sahibi etməlidir.Əgər etmirsə, Yerüstü Nəqliyyat Agentliyi marşrutu həmin sahibkardan alıb, başqa bir iş adamına verməlidir. Yoxsa , nə vaxta qədər Yeni Günəşli camaat 36 nömrəli marşrutdan narazılıq edəcək???

**EMİL FAİQOĞLU**

## Balıq da bahalaşdı...



**Ölkəmizdə iribuynuzlu heyvanlar arasında dabaq xəstəliyinin yayılması əvvəlcə quş ətinin, daha sonra isə balığın qiymətinin qalxmasına səbəb olub.Bunu da onunla izah edirlər ki, əksər insanlar heyvan əti almaqdan ehtiyat edib , quş və balıq alır.**

Baş çəkdiyimiz bir neçə bazarda bu bahalaşmanın şahidi öldür.Məsələn, 8 Kilometr bazarında 15 gün bundan əvvəl satılan sazan, farer, kütüm, dudak, nərə , qızıl balığın qiymətində 3-4 manat artım vardı. Alıcılar deyirdilər ki, bəzi hallarda qiymət artımına sui- istifadə edərək buna yol verirlər.

Onlar bilirlər ki, insanların çıxış yolu yoxdu, mütləq balıq alacaqlar, ona görə də, qiymətləri qaldırırlar. Satıcılar isə başq fikir söyləyirlər.Onlar deyirlər ki, bizə hansı qiymətə balıq gəlirsə, biz də onun üstünə bir manat pul qoyuruq.

Əgər bu balıqları topdan satışdan baha qiymətə alırıqsa, tay günah bizdə deyil və o məhsulu bizə baha qiymətə satankardadır! Göründüyü kimi, bahalaşmanı hər bir - birinin üstünə atır. Amma hadisələr və faktlar göstərir ki, balığın qiyməti bahalaşıb.Biz burada günahkar axtarmaq fikrində deyilik.Ancaq balığın satışında birmənalı olaraq sui qiyy artımına yol verilir!!!

## Bizə də istilik verilmir...



**Bu sözləri Yeni Yasamal 2 , bina 2- də yaşayan sakinlər deyirlər. Onlar onu da bildirirlər ki, bu hadisə birinci dəfə deyil. Hər il belə olur. Bizə ən tez istilik dekabrın əvvəllərində verilir.**

Bu gün də noyabrın 19- dur. Hələ də mənzilərimizə istilik verilməyib. Qonşu binalar istiklə təchiz edilsə də,amma bizim buna çox təəssüf ki, bu, istilik heç gəlir. Hər gün gözləyirik ki, bələk bu gün, sabah istilik ola, lakin olmur.Ancaq pul ödəmək lazım olanda öncə verilməyən istiliyə görə bizdən pul alırlar.

Çox qəribədir ey, istilik verməyənlər , lakin pul ödəyəsən? Harada görünüb belə işlər? Bax bizdə görünur hər şey! Hər səhər oyananda istilik sistemina əlimizi vururuq ki, bəlkə insafa gəlib , istiliyi verələr. Amma istilik verilmir və qanımız qaralır.

Görünür, " Azəristiliktəchizat" belə getsə , bizim binaya ya istilik verməyəcək, ya da gec verəcək! Əgər vaxtlı-vaxtında pul ödəyiriksə, onda onlar da zəhmət çəkib bizim binaya istilik versinlər. Əks- təqdirdə soyuq qış aylarında soyuqdan donacaq və xəstələnəcəyik!

## Təmiz havamızı qoruya bilmirik



**Otyabrın 20- dən noyabrın 20 - dək respublika ərazisində " Təmiz hava" aylığı keçirilir. Artıq həmin müddətin başa çatmasına bir neçə gün qalıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə DİN- nin Baş Dövlət Yol Polisi İdarəsi ilə bir keçirdiyi tədbirlərdə çoxlu sayda nəqliyyat vasitələrindən atmosferə normadan artıq zərərli qazların atılması faktları aşkarlanıb.Bir çox sürücülərə xəbərdarlıq edilsə də, dəfələrlə nəqliyyat vasitələrində texniki nasazlılığa görə xəbərdarlıq alan sürücülər 50 manat civarında cərimə edilib.**

Bakıda da " Təmiz hava" aylığı ilə bağlı profilaktik tədbirlər keçitilib. Həmin tədbirlər demək olar ki, mütəmadi olaraq davam edib. Noyabrın 18- də paytaxtda keçirilən müayinələr zamanı bir çox nəqliyyat vasitələrindən atmosferə normadan artıq zərərli qazların atılması faktları müşahidə olunub. Məlum olub ki, saxlanılan müxtəlf markalı avtomobillərin mühərrik sistemində nasazlıq yarandığı üçün həmin nəqliyyat vasitələrindən atmosferə normadan zərərli qazlar atılır.

Tədbirdə iştirak edən Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr bölməsinin rəisi, polis mayoru Toğrul Nəsirli deyir ki, bu tədbirlər bir daha göstərir ki, bəzi nəqliyyat vasitələrinin sürücülərinin idarə etdikləri avtomobillər heç də texniki cəhətdən saz deyil. Daha doğrusu, onların mühərrik sistemində nasazlıq var . Biz belə sürücülərlə maariflənidirici söhbətlər apardıq. Amma elə də sürücülər var ki, dəfələrlə edilmiş xəbərdarlıqlara baxmayaraq, idarə etdikləri nəqliyyat vasitələrində texniki nasazlığı aradan qaldırmayırlar. Bax onlar İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə 50 manat məbləğində cərimə edilibləR. Ona görə də, hər bir sürücü avtomobilin texniki sazlığını daim diqqət mərkəzində saxlamalıdır.

Tədbirdə nəqliyyat eksperti Elməddin müəllim də iştirak edib. O dedi ki, atmosferə atılan zərərli qazlarda yanacağın keyfiyyətsiz olması da mövcuddur. Təbii ki, yanacaq keyfiyyətsiz olanda istər - istəməz nəqliyyat vasitəsində texniki nasazlıq yaranır. Hər halda , aidiyyəti qurumlar bu məsələlərə diqqət yetirməlidir!!!

## Məktəb zavod deyil, cənablar!



**Son bir həftədə Azərbaycan mediasında bir fikir səslənir ki, müəllimlər dərs saatı hesabına deyil, səhər saat 9 - dan 18- ə kimi işləməklə əməkhaqqı alacaqlar. Yəni 8 saat məktəbdə olacaqlar.**

Hətta "Təhsil haqqında" Qanuna da bu fikirlər əlavə olunacaq! Ona görə də səslənən ideyaya cəmiyyətdə münasibət birmənalı deyil. Bir çox təhsil ekspertləri bu fikirlə razılaşmır, onun təhsilimizə çox böyük ziyanı olacağını bildirirlər! Cənablar, məktəb zavod deyil, fabrik deyil, ya da konveyr üsulu hansısa məhsul istehsal eləmir ki, kimsə , o qurğunun arxasında durub , nəyə isə nəzarət eləsin! Məktəb uşaqlara elm, bilik verir, tərbiyə öyrədir! Və əgər doğrudan da, təhsildə islahat aparmaq istəyirsinizsə, şagirdlərin belini əyən, onları şikəst edən ağır çantaların ıcərisindəki lazımsız dərsliklərdən və vəsaitlərdən xilas edən.

Ununtmayın ki, o yeniyetmələr əsgər olacaq və belələri əyilmiş gəncləri yarasız olduğuna görə, əsgərliyə aparmırlar. Bunun barəsində düşünmək lazımdır ey! Kadr dəyişikliyi islahat deyil. İslahat odur ki, inasanların və cəmiyyətin tanıdığı ədalətli, savadlı və vətənpərvər müəllimlər vəzifəyə təyin edilir. Varmı belə bir iş??? Əlbəttə, yoxdu. Direktorların təyinatda ədalətsizlik mövcuddur.

Və bir də direktoru təyin etməzlər, seçərlər. İndi təyin olunmuş direktorların əksəriyyətindən pedaqoji kollektivlər narazıdır. Çünki onların bir çoxu məktəbə elm və təhsil yeri kimi deyil, biznes mərkəzi kimi baxırlar. Bundan isə namuslu, savadlı və ədalətli müəllimlər əziyyət çəkirlər. Məktəblərdə , xüsusilə də Bakı məktəblərinin bir çoxunda rüsvət tüğyan edir. Ən azı həftədə bir dəfə sosial şəbəkələrdə pul alan məktəb direktorunun səs yazısı yayılır.

Bax , bunlar , biabırçılıqdı. Müəllimin heç bir günahı yoxdu və adi müəllimlər hər cür mükafata və sevgiyə layiqdirlər.Azəbaycan müəllimlərininnə qədər sınağa çəkmək olar. Diaqnostika qiymətləndirmə... sertifikasiya... müsahibələr... Və beş ildən bir yenidən sertifikasiya... Bunlar hamısı müəllimlərin əsəblərin korlayır... Və onlar stressdən, həyəcandan müxtəlif xəstəliklərə tutulurlar...

Müəəlimə beş - on manat pul verirlər, onu da burunlarından tökürlər. Əgər təhsildə islahat etmək istəyirlərsə, müəllimin nüfuzuna xələl gətirmədən bunu etmək lazımdır. Yoxsa 8 saat müəllimi məktəbdə saxlamaqla heç də yaxşı nəyəsə nail olmaq mümkün olmayacaq. Əksinə , bir çox müəllimlər könüllü bu peşədən uzaqlaşacaq! Cənablar, bəlkə bunu istəyirsiniz???

## Bizi niyə aldadırlar?



**Qiymətləri qaldıraranda camaata yüz cür vəd verirlər. Deyirlər ki, qiymətlər qalxanda xidmətində keyfiyyətə yüksəkcək. Elə ki, qiymətlər qalxır, hər şey tərsinə baş verir. Yəni xidmətlər yaxşılaşmaq əvəzinə , bir qədər də pisləşir! İstiliyin qiymətinin də Nazirlər Kabineti 15 qəpikdən əvvəl 30 qəpiyə, bir neçə aydan sonra isə 45 qəpiyə qaldırdı.**

Bundan millət yox, " Azəristiliktəchizat" qazandı. Düzdür, millət də əvvəl- əvvəl sevindi ki, qış aylarında qiymət artımından sonra evləri yaxşı qızdırılacaq! Təəssüf ki, belə olmadı. Bu gün noyabrın 18-dir hələ də Bakıda əksər binalara istilik verilməyib. Verilən istiliklə isə mənzilllər qızmır. Və insanlar məcbur olub, elektrik sobalarında istifadə edirlər. Belə xoşbəxtlikdən havalar bir o qədər də soyuq keçmir.

Əgər soyuq keçsə, onda görün elektrik sobalarının işləməsinə görə , insanlar nə qədər işıqpulu ödəyər . İstilik verilən bəzi binalarda xətlər köhnə olduğu üçün tez - tez sıradan çıxır. İstiliyin əməkdaşları bir yeri təmir edirlər, sonra başqa bir xəttə qəza olur. Hansı ki, təmir işləri yay və payız fəsillərində aparılmalıdır.Dövlət bu işlərə nə qədər vəsait ayrıb.

**Məlum qurumdan da bildirirlər ki, biz işimizin öhdəsindən layiqincə gəlirik. Hər harda görünən odur ki, " Azəristiliktəchizat" bir müddətdən sonra vermədiyi istiliyində pulunu camaatda alacaq! Əgər kiminsə , mənzilinə keyfiyyətli istilik , eləcə də heç istilik verilmirsə, abonent o pulu niyə ödəməlidir??? Qoy, bu barədə məlum qurum ciddi düşünsün !!!**

**EMİL FAİQOĞLU**



# LS Academy fəal gənclərlə görüş keçirib

**23 noyabr 2025-ci il tarixində LS Academy-nin direktoru, bir neçə dövlət və digər uğurlu layihələrin rəhbəri olan Lalə Şirinzadə tərəfindən "Gənclərin xidmətlərinin yüksək qiymətləndirilməsi" mövzusunda ölkənin fəal gəncləri ilə yeni görüş keçirilib.**

Tədbirdə iştirak edən Beynəlxalq Turan Təşkilatının və Beynəlxalq narkotiklə mübarizə Federasiyasının



Azərbaycan Təmsilçiliyinin rəhbəri Orxan Şahbazov Turan İdealogoyasının təbliğat kampaniyasında gənclərin rolu, bu günümüz və gələcəyimiz üçün strateji əhəmiyyətər və milli kimliyi qorunması mövzusunda çıxışlar edib. O.Şahbazov bu cür tədbirlərin gənclərin intelektual potensialını gücləndirmısində və sağlam ideoloji baza üzərində formalaşmasında böyük əhəmiyyətinin olduğunu bildirib və bu tədbirin yüksək səviyyədə təşkilatçılığına görə LS Academy-nin rəhbəri Lalə Şirimzadəyı xüsusi təşəkkürünü bildirir.

Digər qonaq Həmkarlar İttifaqının üzvüdür, 50-dən çox elmi məqalənin, 500-dən çox ictimai-siyasi yazının müəllifi olan Fərid Mustafayev elm, milli dəyərlər, ictimai fəaliyyət və gənclər siyasətinin inkişaf mərhələləri mövzularında çıxışlar edib. Sual-cavab sessiyasında isə gənclərin fəallığının yüksək səviyyədə




olduğunu bildirən F.Mustafayev bu cur fəal gənclərin göz önünə gəlməsində bu kimi tədbirlərin böyük rolu olduğunu qeyd edib.

"Yüceller film yapım" və "Türk Haber Ajansı" nın təsisçi direktoru Metin Yücel isə Türk Dünyasının ideoloji birlik, regional əlaqələrin inkişafı və birgə elmi mədəni layihələrin vacibliyi barədə çıxışlar edib. Film isdedadı olan gəncləri isə LS Academy-nin rəhbərliyi ilə açıq seçimlərə dəvət edib.

AMEA-nın Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutunda aparıcı elmi işçi, tarix üzrə fəlsəfə doktoru, dosent Sübhan Talıblı "Gənclərin xidmətlərinin yüksək Dəyərləndirilməsi" tədbirində spiker olaraq çıxış etməsindən xüsusi qürur hissi duyduğunu qeyd edərək vətənpərvər və öz ixtisasında peşəkar olan gənclərlə fikir mübadiləsinin, onların ideya, düşüncə və təşəbbüslərinin çox yüksək səviyyədə olduğunu bildirib və bu cür fəal gəncləri bir yerə topladığına, onlarin potensiallarını üzə çıxmasında rolu olan LS Academy-yə minnətdarlığını bildirib.

Tədbirdə çıxış edən LS Academy-nin direktoru Lalə xanım Şirinzadə bildirib ki, LS Academy artıq bele tədbirlərin təşkilatçılığıda sözünü demiş, təşkilatçı şirkətlər və fəal gənclər arasında böyük hörmət və güvən qazanmışdır. Bu cür tədbirlər və layihələr gənclərin inkişafında böyük rolu oynamaqla yanaşı onların bacarıqlarını qiymətləndirərək üzə çıxartmağına və öz peşələrinə uyğun olaraq dəstək olur.

**Sonda tədbirdə iştirak edən ictimai fəaliyyəti olan gənclərə diplomlar və 5 fəal gəncə isə xüsusi mükafatlar təqdim olunub.**

**Nicat**

# "Analitiklər Ukrayna savaşının bu sonluqla yekunlaşacağını öncədən proqnozlaşdırır"

**"Qərb, eləcə də Ukrayna mediası Trampın Zelenskiyə təqdim etdiyi 28 maddəlik Sülh Planının mətnini yayıb və ona 1 həftə vaxt verildiyini açıqlayıb. Mətn və məlumat gerçəkdirsə, bu, faktiki olaraq, Putinin müharibənin ilk vaxtlarındakı şərtlərinin əksəriyyətinin qəbul edilməsi, Ukraynanın bölüşdürülməsi və işğalın rəsmiləşməsi deməkdir! Plana görə, Ukrayna "yüksək təhlükəsizlik zəmanətləri qarşılığında" təkcə Krımdan yox, Donetsk və Luqanskdan da birdəfəlik əl çəkməli olacaq, rus qoşunları isə Xerson və Zaporojyedə tutduqları mövqelərdə qalacaqlar!".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şükürlü deyib. Politoloqun sözlərinə görə, Ukraynanın suverenleyi də yalnız sənəd üzərində qalacaq: praktik olaraq, o, tamamilə ABŞ, Avropa İttifaqı və Rusiyadan asılı, gələcək taleyi xarici güclərin əlində olan ərazi halına düşəcək: "Beləliklə, Harvard Universitetinin Araşdırmalar Mərkəzinin professoru, məşhur sosioloq Samuel Hantinqtonun hələ 1996-cı ildə çap olunan "Sivilizasiyaların toquşması və dünya nizamının yenidən təşkili" kitabında göstərdiyi "Bölünmüş Ukrayna" ssenarisi addım-addım gerçəkliyə çevrilir. Əslində, ABŞ-nin bütün dünya boyu apardığı siyasətin mahiyyətini və Rusiyaya da dünya nizamında hansı rolun ayrıldığını bilən ağıllı başlar, ciddi analitiklər Ukrayna savaşının məhz bu sonluqla yekunlaşacağını öncədən proqnozlaşdırır, deyirdilər. Hətta başqa bir nüfuzlu amerikalı - Henri Kissincer müharibə başlayan vaxt açıq şəkildə demişdi ki, Ukraynda sülh üçün o, ərazilərinin bir hissəsindən imtina etməli olacaq". E.Şükürlünün sözlərinə görə, ancaq təəssüf ki, bütün dünya boyu aparılan təbliğat bu ağıllı başların sözlərini özünü böyük bir yalana inandırmış axmaqlar və boşboğazlar sürüsünün, yalançı vətənpərvərlərin əliylə möhkəmləndirilmiş kütlə şüuru gurultusunda eşidilməz etmiş-



di: "Budur, son 4 ildə özünü Zelenskinin "Ukraynanın azadlığı və bütövlüyü uğrunda mübarizə aparan qəhrəman" olduğuna inandıranlar indi onu hakimiyyətə gətirən biznes şəriklərinin müharibənin qızğın dövründə Ukrayna əsgəri üçün ayrılan vəsaiti necə əclaflıqla mənimsədiklərini, talayıb xaricə daşıdıqlarını heyrətamiz təşvişlə izləyirlər! ABŞ-nin Ukraynanı meydanda tək qoymayacağına inananlar isə Tramp administrasiyasının bu cinayət faktlarını - korrupsiya ilgəyini indi Zelenskinin xirtdəyinə necə keçirdiyini və onu Putinlə razılaşma üçün necə səylə çalışdığını böyük məyusluq əhvalı, peşimançılıq göz yaşları içərisində seyr edirlər... Bəli, yayılan Sülh Planı layihəsi, hətta ictimai rəyi yoxlamaq üçün bir sənəd olsa belə, bir daha təsdiqləyir ki, Tramp Amerikası Ukraynanın gələcəyini Zelenski ilə görmür və ona başqa yol da saxlamayıb: o, ya amerikalıların istəyi ilə razılaşmalı və şəxsi təhlükəsizliyinə zəmanət alıb qarşıdakı 100 gün içərisində hakimiyyətdən uzaqlaşmalı, ya da cəsarətlə bu razılaşmadan imtina edərək, bütün bu cinayətlərdə əlinin olmadığını 4 ildir övladlarını qurban vermiş Ukrayna cəmiyyətinə sübuta yetirməli və Rusiya ilə sonadək vuruşmağı, ölməyi seçməlidir! 2015-ci ilin "Minsk razılaşması"na imza atan Poroşenkonun Ukrayna cəmiyyəti, az qala, vətən xaini qismində görmüşdü və ona yenidən etimad göstərməmişdi. Görək, indidən "Ukraynanın kapitulyasiya aktı" adlandırılan Trampın Sülh Planı Zelenskiyə hansı aqibəti gətirəcək?!".

**Eldar**

# "Kənd yumurtası bazarda qiymətləri təyin etmir, daha baha satılır..."

**"Ölkədə 5 milyon yumurta istehsalı var və əhalinin tələbatı isə 3,5 milyondur. Həmişə də bu rəqəmlər səsləndirilib. Mal ətinin bahalaşması və yaxud dabaq xəstəliyi toyuq ətinin qiymətini artıra bilər. Yumurta ətin əvəzedicisi deyil. Əhalinin isə yumurtaya tələbatı kəskin arta bilməz".**

Bunu Adalet.az-a açıqlamasında iqtisadçı Xaliq Kərimli deyib. İqtisadçının sözlərinə görə, yumurta bahalaşa bilər: "Sahibkarlıq xərci ötən illə müqayisədə çoxdur və imkan tapan kimi də qiyməti bahalaşdıra bilirlər. Bazarda da rəqabət elə də çox deyil. Yəni bir neçə inkubator var ki, qiymətləri təyin edə bilir. Onsuz da 10-12 qəpiyə yumurta qiyməti sahibkarlara sərf etmir. Onlar ziyana gedirlər. Zaman-zaman yumurta qiymətlərində artım və azalma müşahidə olunur.

Kənd yumurtası bazarda qiymətləri təyin etmir. Bu yumurta daha baha satılır və premium hesab olunur. Kənd yumurtası bazardakı qiymətlərə təsir edəcək gücdə deyil. Bazardakı qiymətlər şəhərdə formalaşdığına görə, qiyməti kənd yumurtaları təyin etmir".

**Vasif**

***RÜSTƏM HACIYEV***

# Rusiya demokratik ölkə sayıla bilərmi?

**Rusiya Fedetasiyasının prezidenti Vladimir Putin 2036-cı ilədək dövlətin milli siyasət strategiyasını təsdiq edib. Strategiya 61 bənddən ibarətdir.**

**Sənnədə göstərilir ki, ölkədə keçirilən bütün tədbirlərdə rus mədəniyyəti və ənnənələrinin təbliği 50' faizdən aşağı ola bilməz. Rus dili və mədəniyyətinin xaricdə genişləndirilməsi əsas konsepsiya olmalıdır. "Rusafobiya"-"ksenofobiya" və neonasizmlə mübarizə genişləndirilməlidir.**

**Vladimir Putin hökumətə tapşırıb ki, xarici ölkə vətəndaşlarına münasibətdə, hüquq bərabərliyi, cinsindən, irqindən, milli mənsubiyyətindən, dilindən, mənşəyindən və maddi imkalarından, vəzifəsindən, dinə münasibətindən, yaşayış yerindən asılı olmayaraq, Rusiyanın demokratik hüquqi dövlət olduğu aşılanmalıdır.**



**Rusiya prezidentinin bu fərmanından sonra, adam bu ölkədə yaşayan xalqlara qiptə etmək istəyərdi, lakin hazırki durum göstərir ki, Putinin bu fərmanı da, daha əvvəllər verdiyi sözlər kimi boş hava, adi kağız parçasından başqa bir yük daşımır.**

**Kağız üzərində özünü "demokratik dövlət" kimi təqdim etmək, hələ ölkənin həqiqətən hüquqi dövlət olması anlamına gəlmir. Suveren dövlətin ərazilərinə hərbi müdaxilə etmək, ərazilərini işğal etmək, milli mənsubiyyətinə görə, insanları təqib etmək və onlara qaşı vəhşicəsinə rəftar etmək, demokrativ ölkə anlayışı ilə heç cürə uyğun gəlmir.**

**Əslində, Rusiya Federasiyasının Konstitusiyası, Putinin imzaladığı fərmanın bir çox bəndini özündə əks etdirir. Lakin, xüsusiylədə son vaxtlar qəbul olunan- siyasi və dini baxışlarına görə, bir sıra insanların hüquqlarının məhdudlaşdırılmasna, "xarici agent" elan edilmədinə dair bir çox qanunlar və normativ aktlar, demokratiya anlayışı ilə üst-üstə düşmür.**

**Bundan başqa, ölkənin kütləvi informasiya vasitələri durmadan, açıq-aşkar ölkənin qeyri- rus millətinin nümayəndələrini aşağılamaqdan, milli mənsubiyyətlərini təhqir etməkdən belə çəkinmirlər. Maraqlıdır ki, bu təhqirləri efirlərdən səsləndiən Kremlin ruporları-solovyovlar, simonyanlar, baqdasarovlar, şeninlər və sairlərinin heç biri rus millətindən deyillər.**

**Belə olan halda, verdiyi fərmanları ilə, əməlləri düz gəlməyən Rusiya prezidentinin növbəti kağız parçası, dünya ictimayyətini Rusiyanın "demokratik ölkə" olduğuna inandıra biləcəkmi?**

## *İqtisadçı: "Trampın tarif siyasəti uğursuzluğa düçar olacaq"*



**"Elon Mask Donald Tramp tərəfindən vəzifəyə təyin olunan gün yazmışdım ki, Trumpın bu təyinatı uğursuz olacaq. Çünki, dövlət maliyyəsi və büdcə idarəçiliyi özəl sektor idarəçiliyindən köklü şəkildə fərqlənir".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. Onun sözlərinə görə, odur ki, Elon Mask bunu bacarmayacaq:

"Bu gün isə dediklərim bir daha tam təsdiqini tapdı. Cəmi 4 ay sonra, yəni may ayında Elon Mask istehfa verdi. Bu gün isə onun üçün yaradılmış "Hökumətin Səmərəliliyinin Artırılması" Departamenti artıq fəaliyyətini rəsmən dayandırdı və bir struktur kimi tam ləğv olundu. Hələ digər bir proqnozum da özünü doğruldacaq. Bu Trumpın tarif siyasəti ilə bağlıdır. Gec-tez onun tarif siyasəti də uğursuzluğa düçar olacaq".

**V. ƏLİHÜSEYN**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Monoloq

## Divarla söhbətlərim

**Yəqin ki, bu sizə həm gülməli gələcək, həm də elə belə... Yəni düşünəcəksiz ki, nəsə uydurur, nəylənsə gündəmə gəlmək istəyir, ya da ağlı uçur, əsəb pozulur, deməli sayıqlayır. Bax, bütün bunların hamısını siz düşünməkdə haqlısız. Mənim sizin heç birinizə etirazım ola bilməz. Birincisi, hər kəsin baxış bucağı var, görmək, dərk etmək qabiliyyəti mövcudur, üstəlik seçim etmək, sayqı duymaq və yaxud da özünü görməməzliyə vurub yanından keçib getmək, lap bəd ayaqda cırıb tullamaq... Bütün bunlar təzə bir şey deyil, hər gün görürük, şahidi oluruq və yaxud da eşidirik. Doğrudur, telekanallarımız belə məqamlardan şou düzəltməyi sevir. Az qala bir gün axşama kimi "Şok! Şok! Şok!" deyir və əlavə edir ki, "Bir azdan, Bir azdan, Bir azdan" və ən maraqlısıda budur ki, həmin o şokun bir azdanı keçəndən sonra bəlli olur ki, sən demə kimsə kiminsə saç düzümünə irad tutur və yaxud da hansısa bir sözünə dodaq büzür və biz bir gün axşama kimi bu şokun nə olacağını oturub gözləmişik...**

Bunu söz gəlişi dedim, daha doğrusu yazdım. Məqsədim yazının birinci abzasındakı fikrə aydınlıq gətirmək idi. Yəni, yenə qayıdıram həmin nöqtəyə ki, münasibət bildirmək də, sevib-sevməmək də hər kəsin öz ixtiyarındadı. Bu nöqtədə qulağımda rəhmətlik İlhamə xanımın ifası səslənir. O səs deyir ki, "Yaşın nə dəxli var". Yəni sevgi üçün, sevmək üçün, sevilmək üçün yaşın dəxli də, fərqi də heç bir önəm daşımır. Əsas sözün köküdür. Yəni, Sev!-dir. İndi qalır həmin o yükün altına çiyin vermək, o sevgini ürəyinə köçürmək, ruhuna hopdurmaq. Onu nəfəs kimi özünlə hər yerə aparmaq və hər yerdə də o nəfəsi almaq, ciyərlərinə çəkmək, varlığını ayaqda saxlamaq!..

Hardasa bir xatirə kölgəsi düşür üstümə. Başımı qaldırıb baxıram. İlk anda mənə çox uzaq bir məsafə təsiri bağışlayır bu görüntü. Sonra yavaş-yavaş o kölgənin qalınlaşdığını, üstünə tərəf yavaş-yavaş əyildiyini təkcə hiss etmirəm, həm də görürəm. Deməli, ya o kölgənin sahibi yaxındadır, ya da mən o kölgənin altındayam. Hər iki halda nəticə budur ki, o kölgə var. Və mən də onu görürəm. Bax, onda həmin o xatirənin ip ucu başlayır çözülməyə. Dəniz sahili, eşidilən ancaq ləpələrin pıçıltısıdı. Bu sahildə ləpələrdən başqa kimsə yoxdur. Elə bil tənhalıq hakimdir ki, onun ağırlığı adamı diz çökdürür və mən də dizlərimin büküldüyünü hiss edirəm. Əyilib bir ovcuma qum götürürəm, o biri ovcuma su. İkisini də bir anda qaytarıb atıram dənizə. Dəniz diksinir elə bil. Mən çevrilib baxıram. Sahildə dayanmısan... ləpələrlə... əsəbi şəkildə nəyisə çözürsən və özümdən asılı olmadan bu mənzərəni misralara köçürürəm:

*Sahilə gəlmisən, təklikdən bezib,*
*Ləpə tapdalayıb, dalğa qovursan...*
*Bəlkə də həsrətin perikib qaçar -*
*Bir ovuc suyu sən göyə sovursan...*

*Mən xəyal edirəm gerçək durumu,*
*Gözümün dibində gəlib durursan.*
*Səni ləpələrlə tək qoyduğumu -*
*Onu tapdamaqla, üzə vurursan...*

*Qarışıq bir ovqat... və bir də dəniz,*
*Ruhumuz ovunsun hıçqırtılarla...*
*Sahildə...səssizcə, hiss etmədən biz -*
*Süstlənsin ləpələr, pıçıltılarla...*

***

İndi dəniz mövsümüdür. Daha doğrusu, çimərlik açılır. Amma gerçəkdə dəniz fanatlarının mövsümü olmur. Onlar bütün zamanlarda dənizlə vaxtını keçirir, sevgisini bölüşür, dənizə sarılır, bəzən də özünü dənizin qoynuna atır. Bu məqamda ləpələrlə sevişmək də var, intihar da. Ona görə fanatlara hərdən içimdə acıyıram. Düşünürəm ki, qədərindən artıq olan hər şey mənasız bir nəticəyə gəlib çıxır. Təbii ki, bu mənim fikrimdi, mənim qənaətimdi. Amma bütün hallarda qədərdən artıq içilən suyun dərd verdiyini Şeyx Nizami bütün dünyaya bəyan edib. Deməli, artıq su dərd verirsə, mənim nəyəsə qulp qoymağım yersizdi. Ona görə də fanatlar özləri bilsinlər və mənim də onların işinə qarışmağımı günaha yazmasınlar. Hər kəs öz yolunda, öz işində... "Ya Allah!" deyib yolumuzun yolçusu olaq, işimizin sahibi...

Mən də elə bu istəklə üz tuturam sahilə. Gəlməyim, dənizlə görüşmək istəyim adi bir həvəs deyil, heç vaxt öldürmək də deyil. Bu sahildəki xatirələrimi arayıb-axtarmaq, onların necə olduğunu, necə yaşadığını görmək və bir də onları dinləməkdir. Bu yerdə köməyimə təbii ki, yaddaş çatır. Əgər qarıyıb, qocalıb əldən düşməyibsə, yəqin ki, əlimdən tutar, məni darda qoymaz. Pərt etməz xatirələrin yanında... budur, gəzdiyim sahil... bir az çöhrəsi dəyişib, bir az özünə əl gəzdirib, bəzənib-düzənib, bir az da yadlaşıb elə bil. Çünki aradan nə boyda zaman keçib. İllər üst-üstə yığılıb, aylar bir-birini qovub atıb illərin küncünə. İndi hünərin varsa, axtar o künc-bucağı, görüm nə tapırsan...mən israrlıyam. Əgər qarşıma bir məqsəd qoymuşamsa, onun sonuna gedib çıxana qədər israrımdan əl çəkmirəm. Nəyin bahasına olursa-olsun gedirəm. Və bu gün də sahildə axtarıram xatirələrimi. Səninlə bağlı olan xatirələrimi. Söykənib baxıram dənizə. Söykəndiyim dəmir məchər rənglənib. Bir az da fərqli olurdu. Yəni, naxışları dəyişib, amma dəniz dəyişməyib. Həmin dayandığım yerdən baxıram. Yenə qağayılar öz işindədi, bir dənizə baş vurur, o biri üzür, bir ayrısı da havalanır. Qarışıq bir harmoniya. Sanki civə sütunudur, qaynayır və mən də sakitcə içimdə dənizlə danışıram..

- Yadında qalmışammı...o da yadındadımı...səni dindirmək üçün ləpələrinə əl etməyimiz, dalğaları saymağımız unudulmayıb ki...şəkil çəkdirməyimiz...hələ o şəkili çəkdirərkən dalğaların şahə qalxmasını istəməyimiz... bu ərkəsöyünlüyümüz, bu çılğınlığımız, sonra da daşların üstündə oturub əlimiz sənin sularında, nəzərlərimiz fotoaparatda... və nəhayət çəkilən şəkil... günlərin birində də o şəkilləri dua kimi cırıb ləpələrin üstünə səpməyimiz... deyəsən, çox uzaqlara apardı məni xatirələr. Həttə bir az da üşütdüm. Ona görə əlimdəki qələmi sıxdım. Hiss etdim ki, barmaqlarım tövşüyür və yazdım.

*Qələmi möhkəm sıxan,*
*Barmaqlarım üşüyür...*
*Səbrimi sözə yığan -*
*Ağlım, ruhum, tövşüyür...*

*Gözümün dibinəcən*
*Cığır salır, nəm, cığır.*
*Çırpıram, cibiməcən -*
*Qəm tökülür, qəm çıxır...*

*Dururam, uduzmuş tək,*
*Boynu bükük, fikirli...*
*Təsbeh daşların az çək -*
*Bu sonuncu zikrdi...*

*Qayıdıram əvvələ,*
*Burda da artıq sondu...*
*Qısa qapanma ilə -*
*Baxdığın ekran söndü...*

***

Hər bir insanın özünə doğma olan və ömür boyu da canında, qanında yaşatdığı anlar, xatirələr var. Onu unutdurmaq, onu yaddaş kartından silmək qeyri-mümkündür. Ən ağır, ən çıxılmaz durumda belə o an sənin qapını döyür, ürəyini səksəndirir və bir də görürsən ki, unutdun bütün ağırlıqları, bütün çətinlikləri. Sancan ürəyimin, göynəyən sinəmin mənası çevrilib olur məhz həmin o yaddaşdakı an. Bəlkə də bu ilahi bir təsəllidi. Bəlkə də bu Allahın sənə uzatdığı əlidi. Bəlkə də bu Məlik Məmmədi quyudan çəkən kəndirdi. Qaranlığa düşən işıqdı. Yəni, hər nədirsə, xilasdı. Və biz o xilasın adını özlüyümüzdə təsəlli kimi qeyd edirik. Hətta bəzilərimiz onu ötəri təsəlli adlandırırıq. Guya təsəlli ötəri oldu ya olmadı, nə dəyişib ki. Hansı mahiyyət eroziyaya uğrayır. Məncə heç biri. Əgər təsəllini dinləmisənsə, yaşamısansa, onu təzədən necə qovacaqsan, necə imtina edəcəksən. Bu məqamda şəxsən mən bir Allah bəndəsi kimi təsəlliyə heç bir irad ifadə edə bilmirəm. Sadəcə susuram və qəbul edirəm ki, ömrümə hopan, ömrümə çevrilən həmin o təsəllinin mahiyyəti Sevgidir! Elə uzaqdan üstümə düşən kölgə də Sevgidir! Yanında olduğum, nəfəsini duyduğum da Sevgidir! Özümlə hər yerə aparıb-gətirdiyim də Sevgidir! Məni qolların üstündə hər yerə daşıyan da Sevgidir! Bunların ortaq məxrəci nəfəs! Bax, demək istəyirəm ki, aldığım nəfəs də Sevgidir! Onu da təbii ki, Allahım və Sənin üçün birmənalı şəkildə müəyyənləşdirib qəbul etmişəm. Bu yerdə yaddaşlara işıq salmaq üçün rəhmətlik, əbədiyaşar şairimiz Musa Yaqubun fikirlərinə üz tuturam... bu məqamda bugünün canlı klassiki olan Seyran Səxavətin fikirlərinə söykənirəm. Musa Yaqub yazmışdı k, "Əbülfətin pıçıltıları da Sevgidir!" Seyran Səxavət yazıb ki, " Ay Allah, Əbülfət səndən nə istəyir ki? - ancaq Sevgi! Qoy sevsin də..."

Gördünüzmü, mənim sevgi barəsində düşüncələrim də, hisslərim də, təkcə özüm üçün anlaşılan, özüm üçün qurulan dünya deyil. Onu görənlər də, duyanlar da var. Onların içərisində də adlarını qeyd etdiyim həmin bu ünlü imza sahibləri - Musa Yaqub və Seyran Səxavət də var!

Mən dəniz sahilində xatirələrimin izi ilə addımlayıram. Limana baş çəkirəm. Elə bilirəm ki, məndən qabaqda tələsib gəmiyə minirsən və əl edirsən, gəl deyirsən... inan ki, bu mənzərə mənə o qədər inandırıcı gəlir ki, yaxınlaşıram gəmilərin yan aldığı nöqtəyə... amma burada gəmi yoxdur... həmin o nöqtəyə də bir zəncir kilid vurublar. Birdən yadıma düşür ki, indi pandemiyadı. Adamların bir yerə yığışması, hətta dəniz gəzintisinə çıxması da mümkün deyil.

Mən indi yaşadığımla o duyğunu birlikdə yaşadığımız günlərə çıxıb getmişdim. Özümü səninlə birlikdə dalğaların beşik kimi yırğaladığı qayıqda hiss etmişdim. Ona görə də bu hissləri normal qəbul etmək çətin olsa da, amma buna sizlərin cəhd etməyini çox istərdim. Axı burada bir az xəyalpərvərlik də var, bir az şairlik də, bir az da nostalji hisslərdən qopub ayrıla bilməmək də... bu isə o deməkdir ki, zamanın, məkanın ayrıayrılıqda öz gücü var. Zaman səni bu gündə tutur, məkan səni o günə qaytarır. Və yaxud da məkan səni bu gündə yaşadır, zamanın qanadları səni o günə çəkib aparır. Və bu da bir hərəkətdi. Dünənə, bugünə və sabaha olan hərəkət. Yaxşı ki, sükunətdən, hərəkətsizlikdən uzağıq. Yoxsa...

Bu məqamda cümə axşamlarının birində yazdığım misralar yaddaşıma gəlir. Onda yazmışdım ki:

*Sən cümə axşamları*
*Həsrətinin adın an...*
*Salavat çevirəndə -*
*Ad çıxmasın yadından...*

*Kipriklərin küsülü -*
*Dəyməsin bir-birinə...*
*Dodaqların büzülü -*
*Susub könlün sirrinə...*

*Ancaq özündən danış -*
*Mən içində əriyim...*
*Hiss etməsin dost-tanış -*
*Mən içində kiriyim...*

*...sən cümə axşamları*
*Sıx sinənə ruhumu...*
*Mən duyub qarışdırım -*
*Yatmadığım yuxumu...*

***

**Adətən, söz sözü çəkir deyirlər. Xatirələr də belədir. Birinin ətəyindən tutdunsa, çəkib aparır o birisinə. Dəniz kənarında axtardığım izlərimiz məni o sahil boyu çox dolandırdı. Hətta bəzən sahili də unutdum, elə ləpələrin üstü ilə, dalğaları tapdalaya-tapdalaya lap dərinliklərə doğru getdim. Havalanmış adam kimi. Batmadım, nə dənizin dərinliyində, nə də şahə qalxan dalğaların boyundan hündür ənginliyində. Görünür, bütün bunlar yaşadıqlarımızın Sənin, Mənim, Allahın bildiklərinin sehrindəndi, gücündəndi. Və nəhayət, bu həm də dörd divarla danışan bir adamın sevgisinin gücüdür. Bu adam bəlkə də elə özü də divardı - Sevgi divarı! Həsrətlə vüsalın arasında qalmış Sevgi divarı. İstəsən o divara əlini çəkib alnını söykəyə bilərsən... istəsən o divara iki gül də qoymaq ixtiyarındasan - İki gül... Seçim sənindi!**

---

## Xankəndi, Ağdərə və Xocalıda məskunlaşan əhalinin sayı açıqlandı

**Hazırda Xankəndi, Ağdərə və Xocalı rayonlarında 23 min nəfərdən çox sakin məskunlaşıb. Bir neçə yaşayış məntəqəsində təmir-bərpa işləri davam etdirilir.**

Adalet.az xəbər verir ki, bu fikirləri noyabrın 24-də Xankəndi şəhərində "Konstitusiya və Suverenlik ili"nə həsr edilmiş "Səyyar Gənclər Xidməti" layihəsinin Qarabağ Universitetində keçirilən tədbirdə Prezidentin Xankəndi, Ağdərə və Xocalı rayonlarında xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov səsləndirib.

O, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa işlərinin sürətlə davam etdiyini, regionda infrastruktur layihələrinin də intensiv şəkildə həyata keçiridiyini, yeni avtomobil və dəmir yolları, hava limanları, elektrik və su təchizatı sistemlərinin qurulduğunu vurğulayıb.

Sahibkarlığın inkişafı və məşğulluğun artırılması məqsədilə həyata keçirilən sosial-iqtisadi dəstək proqramları çərçivəsində insanlara yeni iş imkanları yaradılıb. Bundan başqa gənclərin sosial fəallığının və təhsilinin ölkənin davamlı inkişafı üçün vacibliyini qeyd edən S.Qəhrəmanov, Xankəndidə yerləşən Qarabağ Universitetinin bölgənin intellektual və sosial inkişafında xüsusi rol oynadığını vurğulayıb. Hazırda universitetdə 2000-dən çox tələbə təhsil alır və onlar müxtəlif sosial-innovativ layihələrdə iştirak edirlər. Qeyd edilib ki, bölgənin davamlı inkişafı və sakinlərin öz doğma torpaqlarına qayıdışı məsələsi dövlətin prioritet vəzifələrindən biridir və bu tədbir də regionda gənclərin inkişafı, həm də gələcəkdəki sosial layihələr üçün mühüm bir addımdır.

## Metropoliten üçün Fransadan 172 min manatlıq sifariş edildi

**"Bakı Metropoliteni" QSC İşarəvermə və Rabitə Xidməti üçün SK30K tipli ox sayğacı başlıqlarının alınması ilə bağlı yeni satınalmaya yekun vurub.**

Adalet.az xəbər verir ki, bir mənbə əsasında həyata keçirilən satınalma üzrə müqavilə Fransanın "Hitachi Rail GTS France SAS" şirkəti ilə bağlanıb. Satınalmanın ümumi dəyəri 172 min 331 manat 25 qəpik təşkil edir.

"Hitachi Rail GTS France SAS" metro və dəmir yolları üçün siqnalizasiya və nəzarət-kommunikasiya sistemləri hazırlayan, "Hitachi Rail"ə məxsus Fransada yerləşən nəqliyyat texnologiyaları şirkətidir.

# Rəşad Məcid haqqında kitabın və elektron məlumat bazasının təqdimatı olub

**Milli Kitabxanada Azərbaycan Mətbuat Şurasının sədri, Yazıçılar Birliyinin sədr müavini, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcidin 60 illiyi ilə əlaqədar nəşr olunmuş "Qala Adam" kitabının və "Rəşad Məcid-60" elektron məlumat bazasının təqdimat mərasimi keçirilib.**

Adalet.az xəbər verir ki, Milli Kitabxananın direktoru, professor Kərim Tahirov Azərbaycanın müasir ictimai mühitində, ədəbiyyat, media və mədəniyyət sahəsində Rəşad Məcidin xüsusi yeri olduğunu önə çəkərək "Qala Adam" kitabı vasitəsilə bu barədə, həmçinin yubilyarın müstəsna şəxsi keyfiyyətləri haqqında ətraflı məlumat almağın mümkünlüyünü vurğulayıb.

1992-ci ildə "525-ci qəzet"i yaradan gənc Rəşad Məcidin bu addımını çox böyük uğur kimi qiymətləndirən K.Tahirov, sözügedən qəzetin hazırda da Azərbaycan mətbuatında, ümumən mədəniyyətimizdə önəmli yer tutduğunu vurğulayıb.

Daha sonra "Rəşad Məcid-60" mövzusunda elektron məlumat bazasının təqdimat mərasimi keçirilib və bazadakı materiallar tam şəkildə tədbir iştirakçılarına təqdim edilib.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar tədbirin keçirilməsində, kitabın nəşrində və elektron bazanın hazırlanmasında əməyi olanlara təşəkkür edərək, uzun zamandan bəri tanıdığı, son 20 ildən artıq müddətdə bərabər çalışdıqları Rəşad Məcidlə bağlı yüksək fikirlərini dilə gətirib. O, Rəşad Məcidi son dərəcə etibarlı, sözündə və mövqeyində möhkəm insan olmaqla bərabər, çox istedadlı şair və publisist kimi qiymətləndirib. Anar R.Məcidin publisistik yazılarının Mirzə Cəlilin, Üzeyir bəyin publisistikasının uğurlu davamı olduğunu qeyd edib və ona ən xoş arzularını çatdırıb.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli qeyd edib ki, bütün yönləri ilə yaradıcı olan Rəşad Məcid müasir Azərbaycan - müstəqillik dövrünün ustad publisistidir və janrların bütün növlərində professional şairdir. Onun publisistikası ictimai və zamanın çağırışlarına cavab verən publisistikadır. Daha sonra, İsa Həbibbəyli Rəşad Məcidin qələmə aldığı "11 sentyabr" hekayəsinin mükəmməlliyindən söz açaraq qeyd edib ki, bu hekayəni oxuyan hər kəs zövq alır. AMEA prezidenti onun şeirlərindən də danışaraq R.Məcidin orijinal ruh və məzmuna malik poeziya yaratdığını diqqətə çatdırıb.



Mədəniyyət Nazirliyinin Kitab sənayesi şöbəsinin müdiri Vasif Qurbanzadə Rəşad Məcidin çoxşaxəli fəaliyyətini yüksək qiymətləndirib və onun ölkənin mədəni həyatına gördüyü işlərlə dəyər qatdığını vurğulayıb. O, R.Məcidin yaratdığı "525-ci qəzet"in Azərbaycan ictimai fikrinin inkişafına əhəmiyyətli bir dönəmin ən mühüm hadisəsi olaraq xüsusi təkan verdiyini deyib. V.Qurbanzadə bir vaxtlar R.Məcidin rəhbərliyi ilə yaradılmış və Milli Kitabxanada fəaliyyət göstərən "Gənc Ədiblər Məktəbi"dən də söz açaraq bildirib ki, bu, Azərbaycan ədəbiyyatının inkişafı üçün ən mühüm addımlardan biri sayılır. Nazirliyin şöbə müdiri bu məktəbin yenidən fəaliyyətə başlamasını vacib olduğunu, bu vəsilə ilə Azərbaycan mədəniyyətinin dünya miqyasında bir çox uğurlara imza ata biləcəyini söyləyib.

AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Misir Mərdanov çıxış edərək deyib ki, Rəşad Məcidi təxminən 20 il əvvəl "525-ci qəzet"dən tanımışam və o zamandan bəri aramızda qarşılıqlı əlaqələr davam edir: "O, daim irəli gedən, yenilikci insan, istedadlı şairdir. Rəşad müəllim lap cavan yaşlarından artıq cəmiyyətdə öz işlərinə görə ağsaqqallıq statusunu qazanıb. "525-ci qəzet" hazırda Azərbaycanda ən çox oxunan qəzetdir, burada mədəniyyət də, tarix də, ədəbiyyat da, şəxslər haqqında da məlumatlar, məqalələr öz əksini tapır. Şəxsən şahidəm ki, bütövlükdə Azərbaycan cəmiyyətinin, xalqımızın Rəşad Məcidə böyük hörmət və rəğbəti vardır".

Milli Məclisin üzvü, yazıçı-publisist Aqil Abbas çıxışında vurğulayıb ki, "Qala Adam" kitabı R.Məcidin portretini, çoxşaxəli fəaliyyətini ətraflı şəkildə əks etdirsə də, onun yaradıcılığı, fəaliyyəti, insanlığı burada yazılanlardan qat-qat artıqdır: "Biz onunla onillərdən bəri çox yaxın, qardaş kimi dostuq, Rəşadın dostluğu hər zaman ən yüksək səviyyədə olub. Onun Vətən və millət sevgisi də yüksək mənada hər kəsə məlumdur".

Daha sonra çıxış edənlər - BDU-nun Milli mətbuat tarixi kafedrasının müdiri, professor Cahangir Məmmədli, Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov, ölkəmizin Bosniya və Herseqovinadakı səfiri, filologiya elmləri doktoru Vilayət Quliyev, MEDİA-nın icraçı direktorunun müavini, tarix üzrə fəlsəfə doktoru, yazıçı-publisist Natiq Məmmədli, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kafedra müdiri, professor Əli Əmirli, Jurnalistikanın İnkişafına Yardım Fondunun sədri, BDU-nun professoru Qulu Məhərrəmli, "Qala Adam" kitabının tərtibçisi, yazıçı-publisist Nadir Yalçın və digər tədbir iştirakçıları Rəşad Məcidlə bağlı fikirlərini bölüşərək ona yeni uğurlar arzulayıblar.

Sonda Rəşad Məcid çıxış edərək bütün qonaqlara, iştirakçılara, tədbirin uğurlu təşkilinə görə Milli Kitabxananın əməkdaşlarına minnətdarlığını bildirib.

# "Mədəniyyətimizin şəxslər problemi yoxdur..."

**"Mədəniyyət aləmində baş verən hay-küyə qarışmadan bəzi fikirlərimi bölüşmək istərdim. Birincisi, kökündən yanlış düşüncədir ki, mədəniyyəti dünyada şəxslər təmsil edirlər. Hər bir mədəniyyət ortaya qoyduğu əsərlərlə, ideyalarla, anlayışlarla təmsil olunur. Bizdə bunlar qıt olduğuna görə məcbur yerini şəxslərlə doldururuq".**

Adalet.az xəbər verir ki, bunu yazıçı Aqşin Yenisey deyib.



Onun sözlərinə görə, şəxs də elə bilir ki, onun olmadığı yerdə mədəniyyət də olmur:

"Məsələn, bu gün dünyanın yüzlərlə böyük sənət, elm adamları var ki, heç vaxt Azərbaycana gəlməyiblər, heç vaxt da gəlməyəcəklər, amma öz əsərləri, fikirləriylə yaşadıqları ölkədən yüzlərlə azərbaycanlının beynini, düşüncələrini idarə edirlər. Biri mən! Yəqin ki, heç vaxt müasir alman filosofu Çul Xanı Muğam teatrında görməyəcəyəm, amma adam kitablarıyla bütün beynimi işğal edə bilib. Mədəniyyəti təmsil etmək budur. İkincisi, mədəniyyətə tətbiq olunan konyuktura. Bizdə bu konyukturanın nə az, nə çox düz 2500 yaşı var. Bizim mədəniyyəti hələ də Platon yönləndirir.

Platon nə deyirdi?

Deyirdi ki, sənət tərbiyəçidir. Platonun xəyalında utopik bir dövlət ideyası var idi və sənət adamlarından tələb edirdi ki, əsər yaradarkən yalnız bu dövlətin qanunlarına istinad etməlidirlər. Homer, Hesiod kimi yunan şairlərini söyürdü ki, onlar uşaqlarımızın tərbiyəsini pozur. Hesiodun tanrısı Uran düz-əməlli ailə başçısı deyil. Homerin Zevsi də ilahə Heranı görəndə özünü alqasımlı oğlanları kimi aparır və s. Platonun sənətə, kültürə baxışından kim çıxdı? Stalin! Platon özünün utopik dövlətində mədəniyyəti necə görmək istəyirdisə, Stalin bunu olduğu kimi sovet xalqlarının mədəniyyətinə tətbiq etdi. Necə ki, Hegel Robespyerin qəddarlığının günahını Kantın ağıl və azad iradəsinin ayağına yazırdı. Məncə, biz mədəniyyət adı altında necə bir kəhanətin içində olduğumuzu müzakirə etməliyik.

Bu platonik, stalinist kəhanətdən çıxış yolları axtarmalıyıq. Demək istədiyim odur ki, mədəniyyətimizin şəxslər problemi yoxdur, ideya, vizyon problemi var...".

**Vasif ƏLİHÜSEYN**

*VAQİF OSMANLI*

# VİCDANININ SƏSİNİ DİNLƏYƏN İNSAN



**Çox zaman "ziyalılıq" anlayışını yerli-yersiz, sağasola işlədərək dəyərini kiçiltməkdəyik. Subyektiv düşüncəmə görə, vicdanlı, ədalətli, əqidəli, intellektli, səmimi, sadə, humanist, ləyaqətli, azadfikirli, cəsarətli, qürurlu, əyilməz, əzilməz, sınmaz, vətəndaş mövqeyini qorumağı bacaran, milli mənafeyini, xalqın mənafeyini şəxsi mənafeyindən üstün tutan, həqiqətin keşiyində dayanan və digər müsbət mənəvi keyfiyyətləri özündə cəmləşdirən insan olmaq ziyalılığın meyarıdır. İnsanlıq belə şəxsiyyətlərin çiynində yaşayır. Onlar Vətənini, yurdunu, millətini urvatlandıranlardır.**

**Professor Rafiq Əliyev belə ziyalılarımızdandır. Beş dildə kitablar yazan, Təbrizdə, ABŞ-da, Almaniyada, İsveçdə, uzaq Avstraliyada və başqa ölkələrdə Vətənimizi ləyaqətlə təmsil edən Rafiq müəllim təfəkkürü Qərbə, əxlaqı Şərqə uyğun gələn mənəviyyat adamıdır. Yaxından tanıyanlar onu "Şərqlə Qərb arasında möhtəşəm körpü", yaxud "bir ölkədən başqa ölkəyə işə gedən" bilim adamı kimi təqdim edirlər.**



**Rafiq müəllimin fikrincə, "ziyalı mənsub olduğu millətin simasını müəyyənləşdirən, ağlı ilə xalqın yoluna işıq salan şəxsiyyətdir". O, özü də "bunu bacaran, buna nail olan alimi, fikir adamını ziyalı adlandırır. Özünün şəxsiyyəti də bu kriteriyalara uyğun gəlir. Bir də professor tam əmindir ki, əsl ziyalı hər zaman öz vicdanının səsini dinləyəndir.**

**Rafiq müəllimin bu cəmiyyətdən istəyi nədir? Bunu bir müsahibəsində jurnalistə konkret deyir: "elə belə də yazın, normal yaşamaq istəyirəm!" Rafiq müəllimin normal yaşam ölçüsü azad, demokratik, ancaq qanunların şah olduğu, insanlara dəyər verilən, "dostluqda tarazlıq gözlənilən", əhalisinin heç olmasa 2-3%-i əsl ziyalı olan, bütün eybəcərliklərə, özünə müxalif insanların düşüncələrinə saygı ilə yanaşılan bir cəmiyyətdə yaşamaqdır. O, Vətənimizi belə görmək istəyir. Jurnalist Pərvizin gözəl deyimi var: "O, (Rafiq Əliyev-V.O.) Azərbaycandır. Təkcə buna görə Azərbaycanin bir parçası olmağa dəyər". Professor vətənsevər, yurdsevər, torpağa bağlı, "vicdanının tələb etdiyini yerinə yetirən" (L.Tolstoy) İnsandır.**

**"Bir ifadə var, invariantlılıq. Yəni heç kimdən asılı olmamaq, kobud mənada, heç kəsə yaltaqlanmamaq, heç kimə yarınmamaq. Çox qəribədir ki, mənim övladlarım da, nəvələrim də həmişə invariantlılığı saxlayırlar. Heç birində sapma olmayıb. Müstəqil, heç kimdən asılı olmamaq, yarınmamaq, sınmamaq çox vacib şeydir. Palıd ki, sınmır. Amma onun yanındakı alaq otları o tərəf-bu tərəfə əsir, əyilir sınır. Amma palıda külək dəyə bilmir".**

**Bu izahda - 6-7 cümlədə elm də var, əxlaq da, ağsaqqal məsləhəti də, əsl ziyalılıq da...**

**Macar yazıçısı İmre Kertez əxlaqı insan varlığının xadiməsi adlandırır. Şeyx Məhəmməd Xiyabaninin "xalqın istiqlaliyyətini onun əxlaqi fəziləti saxlayır" deyimində böyük həqiqət var. Professorun qənaətinə görə əxlaq təfəkkür kimi beyindən gəlmir, qandan gəlir. Rafiq müəllim "böyüklüyü sadəlikdə görən əxlaq nümunəsi, insanlıq etalonu"dur, mənəviyyat adamıdır (R.Tağızadə), "nəfsini yenməklə, ona qalib gəlməklə Allaha varan, Ali Məqama çatan hürufidir" (M.Yaqub), vicdanın və elmin həmişəyanar işığıdır.**

**Rafiq Əliyevin ziyalılıq meyarlarında dostluqda tarazlıq da mütləqdir. "Mən azad düşüncəli, sınmayan insanlarla dostluq edirəm" cümləsində onun dostlarının xarakteri, dostluq əyarı dəqiq bilinir.**

**Biz ətrafımızdakı örnək götürüləsi insanların dəyərini yetərincə bilmirik. Lütfizadə kimi böyük elm adamı Rafiq müəllimlə dostluğu özünə şərəf bilirdi. Mənəvi və bilim dünyası ilə nümunə olan Xudu Məmmədovun düşüncəsi ilə desək, elə qala tiksən ki, hər yerdən görünə, izi qala. Rafiq Əliyev hətta məşhur amerikalı alim Ronald Yagerin təbirincə desək, uzaq ABŞ-dan - yeddi min mil uzaqlıqdan görünən əzəmətli qaladır - özünün tikdiyi qala...**

# Mörfinin bu sözlərini qulağınıza sırğa edin



*Murad Köhnəqala*

Yaxın dostum olmuş atası dünyasını dəyişəndən oğlu Aydın mənimlə tez-tez zəngləşir.

Dünən telefonda dedi, əmi, səninlə çox ciddi məsələ haqda danışmaq istəyirəm, mütləq görüşək.

Ürəyimdə fikirləşdim, ailə münaqişəsi olmasın! Ancaq onun həyat yoldaşından arxayın idim, bilirdim ki, hər şeydən ötrü ziddiyət yaradan deyil, uşaqları da balacadı, iki yaşı olar-olmaz.

Nəysə, "İnşaatçılar"da həmişəki kafedə görüşdük. Xoş-beşdən sonra dedim: "Söylə görüm, ey gənc, dərdin nədir?" Gülüb dedi, əmi, elə bir problem yoxdu, sadəcə, başımıza dünən bir iş gəlib, hələ də mənasını anlaya bilmirəm.

Biraz arxayınlaşdım, dedim, əndər gəlsin, görüm mənim qafiyələrimə uyğun gələcəkmi.

Adətən, atası ilə bu dildə danışırdıq. Baxdım ki, uşağın gərginliyi çəkildi, qımışdı, güldü, sakitləşdi. Dərindən nəfəs alıb başladı.

Dedi, əmi, dünən Günəşliyə bir iş dalınca getmişdim. Dostlarla təzəcə oturmuşduq ki, telefonuma zəng gəldi. Götürdüm, gördüm yoldaşımdı. Dedim, nə məsələdi, sən niyə başqa telefonla zəng edirsən? Dedi, bəs, evin qapısı çarpılıb, uşaq içəridə qalıb, mən də çöldəyəm nazik ev paltarında. Telefon da içəridə qalıb, bu qonşununkudu. Ay daa, dəli oldum!

Dedim, dayan görüm oğul, necə yəni, sənin qapın çarpılanda birbaşa bağlanır ki?

Dedi, hə, əmi! Deməli, mənzilin çöl qapısını qoyduranda dedilər, zamok belədi, çöldən tutalğac yoxdu deyə, bağlananda çöldən açarsız açmaq olmur. İstəsən sonra çöldən tutalğac qoydura bilərsən. Mən də fikirləşirdim, əşi, elə çöldən tutalğac olmasa yaxşıdı, hər gələn əl atmasın. Onsuz da hara getdik, hərənin açarı özündədi. Bizdə də özün bilirsən, əsas çöl-bayıra çıxan mənəm.

Bizdə çöl qapısı ilə balkonun qapısı "skvaznyak" olduğuna görə hər ikisi açılanda biri mütləq çarpılıb örtülür.

Biz adətən, zibil paketini qapının çölünə qoyuruq, evdən çıxanda da götürüb küçədəki zibil qabına atırıq. Deməli, yoldaşım zibil paketini çölə qoyanda qapı çarpılır və özü çöldə, uşaq içəridə qalıb. Bizdə də zamok elə qoyulub, içəridən uşağın açarı burmağa gücü çatmaz. Düzdü, yoldaşım bir neçə dəfə uşağı səsləyib, "açarı bur" desə də uşaq bacarmayıb.

Biraz keçəndən sonra uşaq başlayıb içəridə çığır-bağır salmağa. Yoldaşım lap özünü itirib, qonşuların qapısını döyüb ki, telefon alıb mənə zəng eləsin.

Mərtəbəmizdəki qonşulardan yalnız biri evdə olub.

Nəysə, mənə zəng elədi. Soyuq hava, yoldaşımın halını təsəvvür elədim. Tez onu sakitləşdirdim, dedim, narahat olma, bu dəyqə taksiyə oturub gəlirəm. Uşaqlarnan sağollaşıb məhlədəki taksilərin birinə oturdum, haydı Yasamala! Taksiyə də dedim, vəziyyət belədi, sən canın, gör, probkasız yerlərlə sürə bilirsənmi. Beləcə, gəlib Xalqlar Dostluğuna tərəf burulanda arxadan bir maşın gəlib sağ tərəfdən özünü bizə çaxdı. Ay daa! Dedim, ilahi, bu nəydi?!

Nəysə, sürücülərin ikisi də düşdü. Biri deyir, günah səndədi, o biri deyir, mən düz gedirdim, sən gəlib mənə çaxmısan. Nə başını ağrıdım, taksiyə dedim, əmoğlu, mən gedirəm, ta polisi gözləmək halım yoxdu. Bu da deyir, qardaş, gözlə, səni aparacam mütləq. Dedim, yox ee, qardaş, qaçım metroya, ən yaxşısı metrodu. Dedi, görürsən ziyanlıqdı, heç olmasa taksinin pulunu ver. Nəysə əmi, dişim bağırsağımı kəsir, Yasamal üşün danışdığım pulu tam ödədim buna. Metroya da bir kilometrdən çox qalıb, qaçdım metroya. Metrodan çıxıb avtobusa, ordan da qaça-qaça evə!

Nəysə, gəldim lifti basdım 9-cu mərtəbə! Açarı da cibimdə bir neçə dəfə yoxlamışam ki, heç olmasa itirməyim. Liftdə qalxanda açarı şalvarın cibindən çıxarıb gödəkcəmin cibinə qoydum ki, çatan kimi dərhal əlimə gəlsin. Nəysə, 9-da lift dayandı, tər məni basıb. Liftin qapıları açılanda yaylığımı çıxarıb tərimi silmək istəyirdim ki, inanmazsan, açar dəstəsinnən cibimdən liftin çıxışındakı aralığa düşdü. Ta, bu qədər də olmaz daa! Az qaldı başıma hava gəlsin!

Gəldim qapımızın ağzına, gördüm yoldaşım nazik ev donunda həm həyəcandan, həm soyuqdan sitildəyir. Məni görən kimi sevinmiş üstümə cumub: "Tez gəl görək, uşaq içəridə özünü öldürür!" - dedi.

Qapıya yaxınlaşıb uşağı çağırdım ki, görüm səsi necə gəlir. Nəsə, içəridən gələn yanıq iyi hiss elədim, ancaq bunu deyib anasını qorxutmaq istəmədim. Yoldaşım qışqırdı: "Ayə, qapını aç, nə uzadırsan?!"

Qonşu yazıq da həyəcanlanıb. Dedim, vəziyyət belədi, açarı salmışam liftin şaxtasına!

"Ayə, sən nə danışırsan?" - yazıq başını divara vurur. Dedim, yaxşı sakitləş, mən indi gedib komendantı tapacam, liftin şaxtasına düşmək lazımdı.

Komendanta zəng eləmişəm, vəziyyəti başa salmışam. O da dedi, uzaqdayam, gözlə gəlirəm. Qonşumla düşmüşük aşağı.

Komendantı gözlə-gözlə gələcək. Hannan-hana gəlib çıxıb. Təzədən soruşur, təzədən izah eləmişəm. Bu da astagəl adamdı, az qalıram qucağıma alıb qaça-qaça aparam bunu. Nəysə, düşmüşük şaxtaya, orda bir dəmir var, birləşib qaldırmışıq yuxarı, mən düşmüşəm şaxtaya, telefonun işığında tapmışam açarı. Tez fırlanıb qalxmışam 1-ci mərtəbəyə, ordan da 9-a!

Nəysə, qapını açanda gördüm içəridə tüstü, yanıq iyi! Uşaq qaçıb gedib ən arxa otağa.

Baxdım ki, mətbəxdəki qaz plitəsinin elektrik gözü yanır. Yoldaşıma deyirəm bunu sənmi belə qoyub çıxmışdın? Deyir, yox. Düz deyir, biz yeməyi qaz yanan gözündə bişiririk.

Bəs, necə olub?

Demək, yoldaşım soyuducudan yeməyi qızdırmaq üçün çıxarıbmış, sadəcə, qazanı elektrik tərəfə qoyubmuş ki, birazdan qazı yandırıb üstünə qoysun.

Beləcə çölə çıxıb. Uşaq da içəridə tək qalanda plitənin elektrik gözünü işə salıb.

Baxdım ki, yemək qaynayıbquruyub kömürə dönüb.

Nəysə, əmi, həmin gün elə bil kimsə bizə qarğış eləyirdi. Yoldaşım da deyir, bizi kimsə cadulayır. Gəlmişəm, səndən məsləhət almağa, biz neyləməliyik? Bu nə iş idi başımıza gəldi? Belə təsadüf ola bilməz, axı!

Dedim, ey oğul, guş qıl mənə! Buna Mörfi qanunu deyərlər!

Mörfi qanunu eşitmisənmi? Dedi, o nədi, belə şey eşitməmişəm.

Dedim, qulaq as!

Dedim, Eduard Mörfi 1990-cı ildə vəfat eləmiş bir ingilis mühəndisidi. Bu Mörfi 1949-ci ildə, illərin əziyəti ilə yığılmış bir raket texnikası üzərində sınaq aparaкən, cihazlardan birini cuzi səhv bağladığına görə bütün sistemi çökdürüb. Bu qəzadan sonra mühəndis insanları hər zaman gözlənilməz hadisələrə hazır olmağa çağırmış və özünün tərsliklər qanunlarını yazmışdı. Sonradan sənin kimi adamlar da öz başına gələnləri onun bu qanunlarına əlavə edərək yekə bir tərslik məcəlləsi yaratmışlar. İndi sənə Mörfi qanunlarından yadımda qalan bir-ikisini deyəcəm, başa düşəcəksən. Məsələn:

*Tunelin o başında görünən işıq gələn qatarın işığı ola bilər.

*Həll olunan hər problem yeni problemlər yaradır.

*İşləməyən əşya təmirə gətiriləndə işləməyə başlayır.

*Uzun müddət gözlədiyin avtobus sən siqaret yandıran kimi gəlib çıxır.

*Əgər özünüzü yaxşı hiss edirsinizsə, narahat olmayın, keçəcək.

*Siqaret tüstüsü həmişə siqaret çəkməyən adama tərəf gedir.

*Axtardığımız şeyi ən axırıncı baxdığımız yerdən tapırıq.

*Mağazada ən xoşuna gələn ayaqqabı ayağını sıxacaq.

*Səhv yığdığın telefon nömrəsi heç vaxt məşğul göstərmir.

Beləcə, hərə öz uğursuzluq təcrübəsini Mörfinin qanunlarına əlavə edərək yekə bir tezislər məcmuəsi düzəltmişlər.

Səni təbrik etmək olar, artıq sən də bir tezis əlavə etdin:

*Əgər qapının çarpılaraq bağlanmaq etimalı varsa mütləq bağlanacaq.

Ancaq, bütün bu qanunlar insanları ayıq-sayıqlığa səsləmək üçündür. Yəni, hər bir ehtimalı önləməlisən. Hə, biri də yadıma düşdü deyir:

*Əgər bir problemin 99 faiz həll olunma ehtimalı varsa, mütləq yerdə qalan o 1 faiz qalib gələcək.

Ona görə, əzzim Aydın, sən ən birinci o qapının kilidini həmin gün dəyişdirməli idin, ya da açarın bir nüsxəsini mütləq yaxın bir yerdə gizlətməli idin. Ən düzgünü kilidi dəyişdirmək idi. Mörfi qanunu bu dəfə sənə dəymәyib, cavanlığına bağışlayıb. Həyat belədi, bütün pis ehtimalların qarşısını almalısan.

Hər cür gözlənilməz bəd hadisəyə isə həmişə hazır olmalısan.

# SELİN VƏ BABA

## (Selinlə babanın təbiət haqqında söhbətlərindən)



Selincan, biz səninlə düyamızdakı canlılar və onların təbiətdə əhəmiyyəti barədə söhbət etmişdik. Əlavə olaraq deyim ki, böyük və ya kiçikliyindən asılı olmayaraq, təbiətdə onların hər birinin öz yeri, öz payı var. Bunu hamı bilməli və onlara hörmətlə yanaşmalıdır, - dedi baba. - İndi sənə bu yaxınlarda eşitdiyim iki maraqlı hekayəni danışacağam. Görəcəksən ki, baharda təzəcə açılmış sarı bir çiçəklə balaca bal arısı necə dost olub və bu dostluqdan hər ikisi necə faydalanıblar. İkinci hekayə isə payız vaxtı Zaqatala meşəsində nəhəng palıd ağacından tək, tənha qalmış balaca palıd yarpağının-Yarpaqcığazın macərası haqqındadır.

### ÇİÇƏYİN ARI İLƏ DOSTLUĞU

Günəşli bir yaz səhəri idi. Meşənin kənarında balaca, sarı rəngli bir çiçək açıldı. O, ətrafa baxıb sevincək dedi:

- Salam! Mən bu gün ilk dəfə dünyaya göz açdım. Görəsən, kiminləsə dost ola bilərəmmi?

Hər tərəf sakit idi. Uzaqda quşlar cikkildəşir, yüngül meh yarpaqları tərpədirdi. Cavab gəlmədiyi üçün çiçək bir az darıxdı.

Elə bu vaxt vızıltı eşidildi. Balaca bir arı çiçəyin yanına qondu.

- Salam, gözəl çiçək! Mən bal arısıyam. Sənin ətrini uzaqdan hiss edib uçub gəldim, - dedi.

Çiçək utancaq şəkildə gülümsədi:

- Mən də yenicə açılmışam. Dost axtarıram Mənimlə dost olmaq istəyərsənmi?

Arı qanadlarını sevincək çırpdı:

- Əlbəttə! Mən sənin şirənlə qidalanaram, sənə isə toxumlarını yaymaqda kömək edə bilərəm. Beləcə ikimiz də bir-birimizə xeyir vermiş olarıq.

Bu sözlər çiçəyi çox sevindirdi.

Beləcə, hər gün arı çiçəyin yanına uçub gəlirdi. Çiçək ona öz ətirli şirəsindən pay verirdi, arı isə onun tozcuqlarını başqa çiçəklərə daşıyırdı. Meşədə daha çox çiçək açırdı.

Bir gün çiçək arıya dedi:

- Sən mənə təkcə kömək etmirsən, həm də dostluğunla günümü gözəlləşdirirsən.

Arı gülümsədi:

- Dostluq elə budur! Təbiətdə hər kəs bir-birinə kömək etsə, hər yer daha gözəl və təravətli olar.

Günlər keçdi, çiçək böyüdü, toxumları yayılmağa başladı. Meşədə yeni çiçəklər açdı. Arı hər dəfə uçarkən o çiçəklərə də baş çəkir, əvvəlki dostunu xatırlayırdı.

Çiçək isə mehə pıçıldayırdı:

- Dostluq təbiətin ən gözəl hədiyyəsidir.

Beləcə, çiçək və arının dostluğu bütün meşəyə sevinc və təravət gətirdi.

### UÇAN YARPAĞIN MACƏRASI

Payız artıq gəlmişdi. Ağacların yarpaqları saralmış, meşə qızılı rəngə bürünmüşdü. Nəhəng palıd ağacının üstündə bircə kiçik sarı yarpaq qalmışdı. Onun adı Yarpaqcığaz idi. O, hələ budaqdan ayrılmamışdı.

Bir səhər Yarpaqcığaz asta-asta yellənərək ağaca dedi:

- Ey müdrik palıd ağacı, mən uzaqlara uçmaq, dünyanı görmək istəyirəm!

Ağac mehribanlıqla cavab verdi:

- Qorxma, Yarpaqcığaz. Vaxtı gələndə külək sənə yol göstərəcək.

Elə bu vaxt yüngül külək əsdi və Yarpaqcığaz budaqdan qopub havaya qalxdı. O, sevinc içində sağa-sola dönə-dönə uçurdu.

- Ura! Baxın, mən necə uçuram! - deyə həyəcanla qışqırdı, Yarpaqcığaz.

Külək gülümsədi:

- Bəli, macəran indi başlayır. Gəl, səyahət edək!

Onlar meşənin üzərindən keçdilər. Aşağıda quşlar cikkildəşir, dələlər qaçışır, çiçəklər küləyə baş əyirdi.

Yarpaqcığaz aşağı enərkən bir dələ yanından sıçrayıb keçdi.

- Sən uçan yarpaqsan? - dələ təəccüblə soruşdu.

- Bəli! Küləklə səyahət edirəm.

Dələ əlini yellədi:

- Uğurlar! Amma ehtiyatlı ol, külək bəzən çox güclü ola bilər!

Bir az sonra Yarpaqcığaz bir sərçənin yuvasının yanına düşdü.

- Ay yarpaq, ehtiyatlı ol! - sərçə dedi. - İstəyirsən, bir az budağımda dincəl.

- Çox sağ ol, amma mən macərama davam etməliyəm. Hələ çox yer görəcəyəm! - Yarpaqcığaz cavab verdi.

Sərçə onu yola saldı.

Axşamüstü külək zəiflədi. Yarpaqcığaz asta-asta dövrə vurub yerə düşdü. O an bir uşaq yaxınlaşıb yarpağı gördü. Sapsarı yarpağı götürüb sevincək dedi:

- Necə də gözəlsən! Səni kitabımda saxlayacağam.

Uşaq yarpağı kitabının arasına qoyub evlərinə apardı. Günlər keçdi, Yarpaqcığaz qurudu, amma solmadı. Uşaq onu kitabdan açıb hər dəfə baxır, müəlliminə göstərirdi.

- Bu yarpaq mənə payızı xatırladır, - deyə gülümsəyirdi.

Yarpaqcığaz isə xoşbəxt idi. Çünki onun səyahəti bitməmişdi - indi o, uşağın kitabında bir xatirəyə çevrilmişdi.

Hər yolun sonu yeni bir başlanğıcdır. Təbiət dəyişsə də, gözəllik heç vaxt itməz.

Qələmə aldı:
baba - Ağamahmud Səmədov

# "Yanımdan keçən həyat"

**Tərənə Musayeva - bu imza sonradan mənim üçün doğma bir ada çevriləcəkdi və onun adını özümə görə uyğunlaşdırıb Leyla çağıracaqdım. Sevdiyim bir çox isimlərin bir adı vardı, Leyla.**

Çox qısa bir vaxtda tanıdım və imzasını qəbul etdim. Çox təvozakar bu xanımdı. Şəhid və qazi bacısı olduğunu mənə demədi. Xeyli sonra özgə bir tanışımdan öyrəndim. Hekayələrini oxudum. Hekayələrinin birində soyuq qar xatirəsindən bildim ki qardaşı İlqar 1-ci vətən müharibəsində şəhid, digər qardaşı Rövşən qazi olmuşdu.

### "Anam"

"Yanımdan keçən həyat" Tərənənin neçənci kitabıdı, hayında deyiləm, çünki son vaxtlar bizimkilərin nəsr əsərlərini canım çıxa çıxa oxuyuram, əslində özümü yola verirəm. Amma, bu kitabın ən qısa bir yazısından-hekayəsindən başladım, elə metro qatarındaca, adamların tənəli baxışları altında oxudum "Anam"ı. Və ağrımadım. Qarşımda bir müqəddəs Ana surəti gördüm. Gördüm, anam Pəri.

"Bu mənim anamdı! Bəlkə yaxşı tanıda bilmədim. ...öz ananı xatırla ... ən yaxşı xüsusiyyətini xatırla, mənim anamı görəcəksən!"

Mənim Anam bütün Anaların ən yaxşı tərəfidi!

Mənim anamın ən böyük əzəlliyi ... bir Şəhid, bir Qazi böyütməsidi".




***

"Bibim" - uşaq diliylə nəql edilən real həyat səhnəsidi. Yazıçının kiçik hadisəyə böyük ürəkli münasibətidir. "Bibim" bir intizar hekayəsidi, adamı səbirsizliklə ardınca bibimgilə aparır.

Pəncərə qarşısında oturmaq uşaq vərdişidi, uşaq düşüncəsi ilə ətrafında olan şəxslərə münasibətini öz məsum baxışları ilə anladır. Uşaq düşünür ki, babam məni bibimgilə niyə aparmaq istəmir, sən demə köhnə kişilərin mentallı təfəkkürü bunu qəbul etmək istəmir. Babam buna görə məni bibimgilə aparmaq istəmirmiş ki...

"Bibim ...yalnız mənim bibim deyildi, o artıq üç-beş günə dünyaya gələcək əkiz balalarının anası idi".

### "Bir qış günü və ya ququ quşulu saat"

Qar üstünə yağan qar, xoşbəxt uşaqlıq vaxtının qartopu oyunundan sonrakı qızdırma, xəstəlik "... İlqarın yanaqlarının "qızıləhmədi" almasına bənzəməsi və "Heydərbaba"nın Rübabə xanımın ifasında səslənən "bilməz idim ayrılıq var, itginlik var, ölüm var" ifadələri hekayədə qəfil olaydan xəbər verir. Həmin qızdırmalı soyuq qarlı qış gecəsində qardaşın bacısına ərmağan etmək istədiyi ququ quşulu saat yolda bir neçə dəfə sürüşüb qar üstünə düşəcəkdi, ta bir də ququ quşunun səsi çıxmayacaqdı.

Bir dəfə - ömür billah bircə dəfə ilk və son nəğməsini oxuyan quşun sutkanın bütün saatlarında enerji gücünə oxutdurmaq insan nəslinin intellektinin ən eybəcər nəticəsimi?

Ququ quşunun öz yuvasına çəkilərək susması (söhbət ququ quşulu saatdan gedir), həyətdəki tut ağacının kəsilməsi, " İlqarın yanaqlarındakı "Qızıləhmədi" almasının rənginin torpağın rənginə qarışmasından" sonrakı mahnı sözləri bu adıçəkilən hekayənin ən ağrılı akordu idi . "Bilməz idim ayrılıq var, itginlik var, ölüm var"

***

"Yanımdan keçən həyat"ın kərpic kərpic böyüyən qarla, günəşlə, çırıl-çılpaq suvaqsız mübarizə aparan "Üşüyən ev"i var. Bu ev içdən nə qədər bəzənilsə də 45 ildə vaxtından çox tez yaşlanıb, qocalıb çökməyə başlamışdı. Bir ailənin ömründən keçən isti yurd-yuva qayğısının soyuq hekayəsi adamın canına üşütmə sala bilən hər kəsin hekayəsidir.

***

"Ağ ev və ya səssizlik" xatirə yazısında kənd evinin həyətindən-bağ-bağçasından, təndirxanasından tutmuş evin içərisində qonaq otağına kimi təsvir etməsi müəllifin dərin müşahidəsini şərtləndirir. Vaxtı ilə səsli haylı-haraylı evin qəflətən gecə qapını döyən ölüm xəbərindən sarsılan uşaq və doğmaların hönkürtüsü ağ evlərin də növbəsinə çatır. Ağır xəstəsi olan evlər sükuta səssizliyə məhkum. "Ana səs, Ata səssizlik idi". Bu acı xatirə hekayənin təsirliyinin pik nöqtəsidi.

### "Alman markalı maşın"

50 il yaşadığı şəhərdə deyil, doğulduğu çox uzaq , ucqar kənddə dəfn olunmağı vəsiyyət etmiş yaşlı qadının meyiti elə həmin uzun, çox uzaq yolda - sərhəddəki şəhərin otelinin arxasındakı avtodayanacaqda alman markalı maşının üstündə gümüşü qara tabutda oğurlanmışdı. Bu maraqlı hekayə insan nəslinin doğulduğu məkana uzun illər yabançı qalmağının təsadüfi qisasıdır, sağ ikən öz şəxsi həyatını rövnəqləndirən, dostdan doğmadan xəbəri olmadan, uzaq alabəzək ölkələrdə rahat həyat sürən, yalnız həyatının sonunda doğulduğu torpaqda dəfn olunmağı üstün tutan cəmiyyətin faciəsidir.

Müəllifin manqurt adamlara olan çağırışı belədir: torpaq təkcə doğulmaqla deyil, onu unutmamaq və harda olursansa ol o torpağa, o torpaqda daimi yaşayanlara sayğı ilə yanaşmaq lazımdır.

Alman markalı maşın da burda təsadüfi seçilməyib, Avropanın rəngli həyat əxlaqı həmişə hər yerdə boy göstərməməlidi, yoxsa bu şərq davranış, həyat tərzi müddət keçdikcə bir gecə gümüşü qara tabut kimi yox ola bilər.

***

"Zərif hekayət" Tərənə Müsayevanın çağımızın qızlarının orta məktəbdən sonra gələcək ali təhsil haqqında suya düşən düşüncə və xəyalından bəhs edən ən həssas hekayətidi, bir və bir neçə ola biləcək hekayəti. Orta təhsildən bir başa evlilik həyatına qədəm qoyan zərif cinslərin ailə münasibətlərində əksiklik olsa da onların qürur və mənliklərini qoruyub saxlaya bilməsi rəğbət doğurur və "... zərif bir qadının şip-şirin hekayətidi" sonluğu ilə bitir.

***

**"Topuş" bu kitabda "bütün sevgilərə rəğmən balaların itirən gün gözlərinə hopmuş kədər heç bir zaman silinib getməyən" köpəkdən bəhs edən son hekayədi. Yazar bu hekayədə Topuşun timsalında köpəklərin sədaqəti barədə yazmağı düşünürdüm və bunları yazdım" deyir.**

### Ta son

"Yanımdan keçən həyat" - sən demə, bu müəllifin oxucularla dördüncü görüşüdü. Mən də 100-cü səhifədən sonrakı hekayələri oxudum. Fürsət olunca 100 səhifəlik "Yeddidən onyeddiyə" ni də oxumağı söz edirəm. Amma elə təkcə bu 63 səhifəni oxumaqla müəllifin yazıçı olduğunu qəbul edə bilərsən. Sənə uğurlar olsun, əziz oxucu.

**Xosrov Natil**

**VAQİF YUSİFLİ**
**Filologiya elmləri doktoru**

# ŞAİR ÖMRÜ



**Azərbaycan Yazıçılar Birliyinin üçüncü mərtəbəsində, otaqları birində saçına tez qırov düşmüş, nəhəng cüssəli bir şair əyləşirdi. (Dostu Qabil onu Dədə Qorquda oxşatmışdı). Şeir gətirirdilər yanına, o da oxuyub tövsiyələrini çatdırır, məsləhətlərini verirdi. Şeirlər xoşuna gəlirdisə, müəllifin üzünə gülümsəyib, bir-iki kəlmə xoş söz deyirdi. Sonralar bəyəndiyi şeirlərin üstünü yazıb "Azərbaycan", "Ul- duz" jurnallarına göndərirdi. Bəyənmədiyi şeirlərin müəlliflərinə gəlincə, şəxsən mənim bir neçə dəfə gördüyüm bu idi ki, Fikrət müəllim Mirzə Ələkbər Sabirdən iki misra söyləyirdi: "Şeir bir gövhəri ziqiymətdir, Salmaram vəsfi-druğ ilə onu qiymətdən". Sonra isə zarafatla deyirdi ki, sənin şeirlərin ağacdakı kal meyvə kimidir, qoy yetişsin, onda gətirərsən. Bu ağsaqqal şair günlərin birində yarızarafat, amma deyərdim ki, tam ciddi səslənən bir şeir yazdı:**

***Mən sayım, sən sadala,***
***Gör kimlər şeir yazır?***
***Mühəndislər, polislər,***
***Həkimlər şeir yazır.***
***Deputatlar, vəkillər,***
***Hakimlər şeir yazır.***
***Elmdən yorulanda***
***Şeir yazır hacılar,***
***Məşədilər, mollalar.***
***Evin tikilsin, millət,***
***Bu qədər şair olar?***

Əlbəttə, istedadı varsa, həkim də, hakim də, elmi içi də lap molla da şeir yaza bilər, amma ağsaqqal şairimiz şeirimizdə baş alıb gedən kütləvi qrafomaniyaya qarşı çıxırdı.

O, Şamaxıda doğulmuşdu. Amma Şamaxıda çox az yaşadı, orada ibtidai məktəbi bitirəndən sonra Kürdəmirdə orta təhsilini, Bakıda isə sənət məktəbini bitirdi. Montyor idi, evlərə işıq çəkirdi, altı-yeddi il, Naftalanda, Tərtərdə montyor işlədi, Sovet ordusunda xidməti borcunu yerinə yetirdi. Sonra ADU-nun filologiya fakültəsində təhsil aldı. Sonra isə bütün taleyini ədəbiyyata həsr elədi.

O, ədəbiyyata "altmışıncılar" sırasında gəldi. Yaşca Anardan da, Elçindən də, Fikrət Qocadan da, İsi Məlikzadədən də böyük idi. Bu adları xatırlamağım əbəs deyil "Altmışıncılar" ədəbiyyata təzə nəfəs gə tirdilər, onların şeirləri, hekayələri, povestləri tənqid də olundu, tərifləndi də, amma əsas odur ki, tezliklə bu ədəbiyyatın xarakterini müəyyənləşdirən simalara çevrildilər. Lap əvvəldən Fikrət Sadıq da böyük şairimiz Rəsul Rzanın qələminə düşdü: "Fikrət Sadığın ən yaxşı şeirləri ruhən cavan, ehtiraslı, lakin saçına çox tez müdriklik ağı düşmüş adamı xatırladan şeirlərdir.

"O illərdə özüm də kiməsə oxşamaq istəyirdim. İlk şeirlərimin çoxu nəzirə idi. Sənət məktəbini qurtarıb işıqçı oldum. Fəhlə oldum. Naftalanda neft kəşfiyyatında işlədim. Doğma Azərbaycanı qarış-qarış piyada gəzdim. Çox şey öyrəndim. O illər ömrümə yazıldı. Bimr az da bərkidim. Şeir yazırdım. Amma çap eləməyə çalışmırdım, doğrusu, hələ ürək eləmirdim. Ürək eləməsəm də, yazdıqlarım məni universitetin filoloji fakültəsinə gətirib çıxartdı.

Təhsil illərimdə və ondan sonrakı ömrümdə həmişə məni bir sual düşündürüb: bu günün şeiri necə olmalıdır?

Dünənin şeiri, üstəgəl sabahın şeiri bərabərdir bu günün şeirinə. Bu tapmacanı ağac timsalında açaq. Kök varsa, gövdə tutacaq, qol-budaq atacaq. Kök-dünən, gövdə-bu gün, qol-budaq - sabahdır, bu günün şeiri ağacın gövdəsidir.

Bütün zamanlarda müasir şeir gövdə olub.

Gövdə ağaca necə lazımsa, şeir də cəmiyyətə eləcə gərəkdir".

Yaşının "ekvator xəttini" keçəndən sonra qələmə aldığı bu sətirlər mən deyərdim Fikrət Sadığın şair ömrünün həm başlanğıcını, həm də davamını çox gözəl səciyyələndirir. İndi, 70 yaşının zirvəsindən ötən illərə boylananda da "bu günün şeiri necə olmalıdır?" sualına eyni cavabın veriləcəyi şübhə doğurmur. Və bir də şeir haqqında Fikrət Sadığın dediyi bu fikir bütün zamanlar üçün məqbuldur: "Şeir o zaman hamının olur ki, ordakı dünyaduyum ən azı on adamın ürəyindən xəbər vermiş olsun. Yəni heç olmasa on adam sənin yazdığını görüb, duyub, amma qələmə alıb yazmayıb, ya yazıb çatdıra bilməyib, amma sən bu sözləri onlardan əvvəl demisən. Odur ki, hamıya doğma olub".

Budur, bu doğmalığın təzahürü olan bir şeir - "Üçüncü simfoniyanı dinləyərkən".

***Bir ağız Osvensim fəryadı,***
***Bir tutam yaslı bulud.***
***Sonra günəşin addım səsləri,***
***Sonra tufanqabağı sükut,***
***Dalğaların parçalanması,***
***Qayaların ovulması,***
***Bir də Dədə Qorqud.***

Dahi bəstəkar Qara Qarayevin musiqisindən yaranan bu şeir-təəssürat o zaman tez-tez səslənən assosiativ şeirin ən parlaq nümunələrindən idi. Göründüyü kimi, burada ustad Rəsul Rzanın "rəngləri"nin təsiri (forma baxımından) aydınca seçilirdi. Ancaq təsir, yaxşı mənada heç vaxt təqlidə, yamsılamaya çevrilmir. R.Rzanın bu baxımdan "altmışıncılara" təsiri ustad-şagird münasibətləri səviyyəsində dərk olunmalıdır. "Altmışıncılar" R.Rzadan həyata, gerçəkliyə münasibətdə cəsarət, sözə münasibətdə isə poetik sərbəstlik əxz etdilər.

Fikrət Sadıq poetik fərdiyyəti etibarilə bir çərçivəyə sığan şair deyil. Bunu necə anlamaq olar? Ən sadə halda: onun poetik təfəkkürü Azərbaycan şeirinin bütün vəznlərində və əksər formalarında çevikliyi ilə diqqəti cəlb edir. Buraya F. Sadığın "Kök-el ədəbiyyatıdır, ağız ədəbiyyatıdır, folklor tükənməz çeşmədir.

Yalnız ədəbiyyat bu çeşmədən su içməsə solar" fikrini də əlavə edək. Doğrudan da, F.Sadıq bu mənada layladan, bayatıdan ən müasir şeirə qədər böyük bir yol keçir.

Vaxtilə Xalq yazıçısı Elçin F.Sadığın 50 yaşına həsr etdiyi bir məqaləsində yazırdı: "Fikrət Sadıq çox görmüş, dediklərini bilavasitə təcrübədən keçirmiş, bilavasitə duymuş, hiss etmiş şairdir. Fikrət çətinliklərdən yazır- özü çətinliklər çəkmişdir, müharibə illərinin ac-yalavac, fərəhsiz uşaqlığından, yeniyetməliyindən yazır - özü belə yaşamışdır; işıqçəkən bir fəhlənin həyatından poema yazır-özü işıqçəkən fəhlə olmuşdur.

Bu sadə sualların arxasında Fikrət poeziyasının həyatdan gəlməsi və həyata bağlılığı dayanmışdır, torpağa, xalqın güzəranına bələdlik dayanmışdır. Fikrət öz xalqının psixologiyasını, təfəkkür tərzini yaxşı bilir və duyur, onun poeziyasının özü də həmin milli təfəkkür tərzinin yetişdirməsidir".

***Çörəklə sınvağa çəkiblər xalqı,***
***Qarışıq salıblar haqla-nahaqqı.***
***Bu yazıq camaat neyləsin, axı,***
***Vətən satılanda-kitab satılmaz.***

Onun ömür yolunu illərdə əks etdirən qısaca tərcümeyihalına nəzər salıram. Uzun illər işıqçı olub Elə bəlkə şeirldərindəki işıq da ömrünün o işıqlı günlərindən yaranıb. Ədəbi fəaliyyətə tələbəlik illərində, universitet nəşriyyatının buraxdığı "Gənclik nəğmələri" almanaxında dərc etdirdiyi "Artist" şeiri ilə başlayıb. "Cığır" adlı şeirlər kitabı (1963) onun poeziyaya ilk cığır açmaq istəyindən doğub. Daha sonrakı illərdə "Ömrün bir günü" (1965), "Dəniz küçəmizə gəlir" (1968), "Sevgi yağışı" (1970), "İşığın yaşı" (1974), "Ağ cığır" (1979), "Yerdən göyə ümid" (1981), "Məndən soruşsalar" (1985), "Dünya öz işindədir" (1989), "Seçilmiş əsərlər" (1991) və b. kitablar çap olundu. Gözəl tərcümələri də var. Ancaq böyük Şəhriyardan tərcümə elədiyi "Azərbaycan" şeirinin bəzi beytlərini xatırladaq:

***Könlüm quşu qanad çalmaz***
***sənsiz bir an, Azərbaycan,***
***Xoş günlərin getmir müdam***
***xəyalımdan, Azərbaycan!***
***Səndən uzaq düşsəm də mən,***
***eşqin ilə yaşayıram,***
***Yaralanmış qəlbim kimi***
***qəlbi viran, Azərbaycan!***

Misilsiz şeirdir, həm də misilsiz tərcümə! Başqa söz tapa bilmirəm.

Daha nəyi xatırladım? F.Sadıq çox yerdə işləyib. Naftalanda, Kürdəmirdə işıqçı olmağından dedim. Şamaxıda kənd müəllimi (əsli elə oralıdır), rayon qəzeti redaksiyasında ədəbi işçi, Ensiklopediyada elmi redaktor, sonra şöbə müdiri, "Gənclik" nəşriyyatında redaktor, kinostudiyada elmi-kütləvi və sənədli filmləri birliyi idarəsində baş redaktor (qeyd edim ki, "İçərişəhər", "Naxçıvan", "Süleyman Rüstəm" sənədli filmlərinin ssenariləri onundur), Yazıçılar İttifaqında bədii ədəbiyyatın təbliği bürosunun direktoru..Həmişə öz halal əməyi və qonorarı ilə gün-güzəran keçirən F.Sadıq iki oğul, bir qız atasıdır. Oğlu Orxan artıq istedadlı nasir kimi tanınır, dğrd kitabın müəllifidir.

**Fikrət Sadıq dünyasını dəyişsə də, onun şeirləri və xatirəsi həmişə qəlbimizdədir.**



Ələmdar MƏMMƏDOV

# Mən bu zamana sığmazam

## Zirvəyə doğru: İlyas - İlahi qüvvə, köməyə gələn

(əvvəli ötən saylarımızda)

**1989-cu ildə Azərbaycan Xalq Cəbhəsi ictimai hərəkat kimi o vaxtki Nazirlər Sovetində dövlət qeydiyyatına alınanda Nazirlər Sovetinin sədri Ayaz Mütəllibovla AXCnin sədri Əbülfəz Eçibəy arasında 8 bənddən ibarət bir saziş bağlanmışdı. Sonralar həm respublikanın siyasi rəhbərliyi, həm də Moskvadan gəlmiş İttifaq rəhbərləri Primakov və Girenko, habelə bunların təsiri ilə SSRİ Baş Prokurorunun Bakıya gəlmiş müavini Abramov Respublika prokuroru İ.İsmayılovdan tələb edirdilər ki, AXC qeydiyyat zamanı A.Mütəllibovla bağladığı sazişi pozduğuna görə onun dövlət qeydiyyatının ləğv olunmasına dair Nazirlər Sovetinə təqdimat göndərsin. İlyas müəllim həmin sazişin qanun və digər normativ akt statusunda olmadığına görə prokuror nəzatəti təsiri altına düşməməsi əsası ilə onların tələbini rədd etmişdi. İlyas müəllimdən narazı qalan Moskvadan gələn yüksək ranqlı məmurlar və Respublika rəhbərliyi SSRİ Baş prokuroru A.Suxarevə şikayət etmişdilər ki, İ.İsmayılov bizə kömək etmir, AXC-ni müdafiə edir.**

...Mərkəzi Komitə katiblərindən biri bacısı oğlunun prokurorluqda işə qəbul edilməsi barədə xahiş etmişdi. İlyas müəllim namizədi qəbul edir və sorğu-sualdan sonra deyir:

**- Sən biliklərini artırmalısan. Bir il hazırlaş gələn il baxarıq.**

Bir ildən sonra İlyas müəllim təkrar namizədi qəbul edir və hüquq elmindən xəbəri olmadığının şahidi olub, həmin şəxsi prokurorluğa qəbul etmir. Müstəqillik dövründə də yüksək vəzifələr tutan "dayı" qohumunun işə qəbul edilməməmsini heç vaxt unutmadı!!

Bu, o demək deyil ki, İlyas müəllim vəzifəli şəxslərin uşaqlarının prokurorluğa götürülməsinin əleyhinə olmuşdur. İlyas müəllimin kadr seçimində kimin adamı olması deyil, kim olması əsas idi.

Rayon prokuroru vəzifəsinə bir qayda olaraq təyinat 1-ci katiblərin razılığından sonra baş tuturdu. Odur ki, işçinin peşə keyfiyyətləri ilə yanaşı, qanunda nəzərdə tutulmasa da, "yola get-mək"qabiliyyəti də nəzərə alınırdı.

Məsələn, Prokuror nəzarətinin bütün sahələri üzrə püxtələşmiş Lənkəran rayon prokurorunun böyük köməkçisi Paşa Tahirzadənin 1981-ci ildə rayon prokuroru vəzifəsinə irəli çəkilməsi an məsələsi olanda, istəməyən qüvvələr onun guya partiya sovet orqanları ilə dil tapa bilməməsi iddiasını irəli sürmüşdülər. Bu əsasla P.Tahirzadənin layiq olduğu rayon prokuroru vəzifəsinə təyinatı gerçəkləşmədi.

Tanınmış prokurorluq işçilərindən biri xatirələrində yazır: "Lənkəran ŞPK-nin 1-ci katibi İ.Məmmədov 15 namizədin arasından tanımaza, bilməzə məni seçmişdi"...

Rayonların birinə prokuror təyinatından sonra katib İlyas müəllimə zəng edir. Onların arasında belə dialoq baş verir.

Katib:

**- Yoldaş İsmayılov, bizə prokuror göndərmisiniz, lakin biz onu tanımırıq. Belə adamla necə işləyəcəyik?**

İ.İsmayılov:

**- Yoldaş katib, mən Sizə kolxoz sədri və yaxud sovxoz direktoru deyil, qanunların icrasına nəzarət edən prokuror göndərmişəm. Siz partiya işçisi kimi bilməlisiniz ki, prokuror Mərkəzi Komitənin katibliyinin nomenklaturasıdır, raykomun yox. Mən Mərkəzi Komitə ilə razılaşdırmışam.**

İlyas müəllim burada da qanun və qaydalara əməl edilməsini ön plana çəkməklə, əvvəlki təsəvvürləri alt-üst etmişdi.

Və yaxud, cox yerlərdə partiya cəzası alıb işdən çıxarılan vəzifəli şəxslərin barəsində materiallar prokurorluğa göndərilir, prokurorlar da katiblə münasibəti korlamamaq üçün, ən cüzi xətaya görə cinayət işi başlayıb məhkəməyə göndərir və insanlar məhkum edilirdilər. Lakin İlyas müəllimin prokurorluğunun ilk aylarından az əhəmiyyətli xətalara görə insanların məhkum edilməsinin əleyhinə çıxdığına görə, yerlərdə də prokurorlar katiblərin çaldığı ilə oynamır və təbii ki, belə hallar nomenklaturanı İlyas müəllimdən narazı salırdı.

İlyas müəllim mafioz qüvvələrə qarşı mübarizədə ağlasığmaz çətinlik və məhrumiyyətlərlə rastlaşmalı olurdu. Məsələn, Çox nüfuzlu mafioz bir şəxsin - "X", xüsusilə külli miqdarda dövlət əmlakını talaması ilə əlaqədar aparılmış istintaq nəticəsində onun təqsiri sübut olunmuş və barəsində həbs qətimkan tədbiri seçilmişdi. Respublikanın ən yüksək vəzifə sahibləri bu məsələdə İlyas müəllimə təsir etməyə başladılar. İlyas müəllimin geri çəkilməməsini görən həmin qüvvələr "X"-i psixi xəstə çıxartdılar. Əlavə ekspertiza keçirildi və rəyin saxta olduğu müəyyən edildi. Saxta rəy vermiş məşhur professorun haqqında cinayət işi başlandı. Professorun müdafiəçiləri onun "repressiyaya məruz qalması" barədə ölkənin baş mətbuat orqanı olan "Pravda" qəzetində geniş yazı dərc etdirdilər. İlyas müəllim Moskvaya gedərək "Pravda" qəzetinin redaktoru olə görüşüb yazıdakı bütün müddəaları alt-üst etdi.

1990-cı ilin fevral ayında Respublika prokurorluğunda keçirilən kollegiya iclasında MKnın inzibati orqanlarla iş şöbəsinin müdiri Yasif Nəsirli çıxışında çoxlu sayda mitinqçilərin həbsdən azad olunması barədə İlyas müəllimə birbaşa ittiham irəli sürərkən, o, özünəməxsus ötkəm formada dedi:

**- Biz hamımız bu xalqın övladlarıyıq. Hər küçəyə çıxanı həbsə alıb, mühakimə etməliyik?! (Kollegiyanın işində SSRİ Baş Prokurorunun 1-ci müavini iştirak etdiyi üçün onlar rus dilində danışırdılar).**

Bu misallarla hesab edirəm ki, yeni rəhbərlik üçün İlyas müəllimin, necə deyərlər, arzuolunmaz şəxs olmasının səbəblərini oxucuya izah edə bildim.

İlyas İsmayılovun respublikanın yeni rəhbərliyi tərəfindən haqsız təzyiqə məruz qalmasını görən Azərbaycan ziyalıları və hüquq ictimaiyyəti onun müdafiəsinə qalxmışdı.

Mətni unudulmaz müəllimimiz Məmməd Xələfov tərəfindən yazılmış bir teleqramı oxucuların nəzərinə çatdırıram:




***Azərbaycan KP MK-nin bürosuna***

"Hörmətli yoldaşlar! Bağban bağının ətirli meyvəsi ilə öyündüyü kimi, müəllim də savadlı, ləyaqətli tələbələri ilə fəxr edir.

Bunlar çox təbii və pak hisslərdir. Respublikamızın prokuroru İlyas İsmaylov bizim gərgin, uğurlu əməyimizin parlaq ulduzudur. O, xalqımızın savadlı, ağıllı, obyektiv, insaflı, büllur kimi təmiz, ortalığa çıxarıla bilən işgüzar övladıdır. Xalqımızın belə övladları, təəssüf ki, çox azdır. Onların taleyinə diqqətlə yanaşılmalıdır, əks halı zaman bizə bağışlamaz.

Xalqımızın düçar olduğu bu bəlada hamımızın - həm bizim hər birimizin və həm də böyük umur sahiblərinin günahı vardır. Zaman hər kəsin payını verəcəkdir, buna şübhə olmamalıdır.

İlyas İsmayılov haqqı müdafiə olunmağa layiq övladdır, onun barəsində ədalətsizliyə yol verilməməlidir"

Hörmətlə:
Məmməd Xələfov - h.e.d professor
Murtuz Ələsgərov - h.e.d. professor
Məsumə Məlikova - h.e.d. professor
Qasım Manayev - h.e.d. professor
Əziz Əsədov - h.e.d. professor
Tofiq Qafarov - h.e.d. professor
Əyyub Əsgərov - h.e.d. professor
Cəfər Mövsümov - h.e.d. professor
Kəmalə Sarıcalinskaya - h.e.n. dosent
Məmmədxan Rəsulov - h.e.n. dosent
Yusif Mehdiyev - h.e.n. dosent

13 mart 1990-ci il

***

SSRİ Baş Prokurorluğu da müttəfiq respublika prokurorları arasında ən sanballı və savadlı hesab edilən İlyas İsmayılovun təkrar müddətə Respublika prokuroru vəzifəsində qalmasında maraqlı idi. Təsadüfi deyil ki, İlyas müəllimin 5 illik Konstitusiya müddəti 1990-cı ilin Yanvar ayında tamam olduğu halda, əvəzçi kimi Onu avqust ayına kimi saxlamışdılar.

SSRİ Baş prokurorunun 1-ci müavini, prezident A.Mütəllibovun qəbulunda olarkən o, İlyas müəllimdən şəxsi narazılığı olmadığını, Onun yüksək səviyyəli hüquqşünas olmasını deməklə bərabər bildirmişdi ki, mən İlyas İsmayılovun qaydaları ilə işləyə bilmərəm...

Nəhayət, İlyas İsmayılov 1990-cı ilin avqust ayında Konstitusiya müddətinin başa çatması ilə əlaqədar Azərbaycan SSR Respublika prokuroru vəzifəsindən azad edilərək, SSRİ Baş Prokurorluğunun idarə hüquqlu şöbə rəisi vəzifəsinə təyin edildi.

1990-cı ildə xain qüvvələr İlyas müəllimin Nardaranda yerləşən bağ evini yandırdılar. İş dalınca şəhərə gələn altı nəfər fəhlə həyatını itirdi. Cinayətkarlar güman etmişdilər ki, İlyas müəllimin böyük oğlu Etimad dostları ilə bağ evindədir.

Mən həmin günlərdə Moskvaya - İlyas İsmayılova zəng etdim. Məsləhət bildim ki, Bakıya gəlməsin. İlyas müəllim cavabında dedi:

**- Mən fatalistəm. Ölümdən qorxmuram və iki gündən sonra Bakıya gəldi.**

Bağ evinin kimlər tərəfindən yandırılması müəyyən edilmədiyinə görə başlanmış cinayət işinin icraatı dayandırıldı. Lakin bəlanın hansı istiqamətdən gəldiyini təxmin eləmək çətin deyildi. Boynu qoltuq görməmiş, İlyas İsmayılov ədalətinin pəncəsindən qurtula bilməyən bir çox insan İlyas müəllimə düşmən kəsilmişdi. Yaxın dostlar və ilyassevərlər baş verə biləcək bədbəxt hadisələrin ola biləcəyini əvvəlcədən sezib İlyas müəllimin ən şox hörmətli keçmiş insanlara müəyyən siqnallar ötürmüşdülər. Lakin təəssüf ki, həmin şəxslər süstlük göstərdilər...

**Qeyd edildiyi kimi, İlyas İsmayılov SSRİ Baş Prokurorluğunun Cəzaçəkmə Müəssisələrində Qanunların İcrasına Nəzarət Şöbəsinin rəisi təyin edildi. Bu vəzifədə də o, milli qeyrətini ortaya qoydu. Belə ki, Azərbaycanda ağır cinayətlərə görə məhkum olmuş şəxsləri RSFSR-in müxtəlif bölgələrində ağır işlərə cəlb edirdilər. İlyas müəllim özünün təşəbbüsü ilə həmin məhbusların cəzalarının qalan hissəsinin Azərbaycanda çəkməsinə nail oldu. O, SSRİ Baş prokuroruna yazdığı xidməti məktubunda bunu belə əsaslandırmışdı ki, məhbus ailəsinə yaxın yerdə cəza çəkərkən daha tez islah olunur.**

(ardı var)

### *Travma alanda ilk nə etməliyik?*

**"Hər il ölkəmizdə müxtəlif travma və qəza halları baş verir. Bu zaman zərərçəkənə göstərilən ilk yardım çox vaxt onun həyatını xilas edə bilər. Hər bir vətəndaş travma hadisəsində necə davranacağını bilməli və ilkin yardım qaydalarına bələd olmalıdır".**

Adalet.az-ın məlumatına görə, bunu Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun Baş direktorunun müavini - baş həkim Nizami Məmmədov "Sağlam radio"nun (93 FM) "Sağlam səhər" verilişində deyib.



Onun sözlərinə görə, vacib məsələ təhlükəsizliyin təmin edilməsidir:

"Hadisə yerində əvvəlcə vəziyyəti dəyərləndirmək, həm öz, həm də zərərçəkənin təhlükəsizliyini qorumaq lazımdır. Əgər yanğın, qaz sızması və ya elektrik təhlükəsi varsa, ora yaxınlaşmaq olmaz. Təhlükə aradan qaldırıldıqdan sonra yardım göstərmək mümkündür. Növbəti addım təcili tibbi yardım çağırmaqdır. Hadisənin yeri, yaralanmanın xarakteri və zərərçəkənlərin sayı barədə aydın məlumat verilməlidir. Yardım gələnə qədər operatorun verdiyi təlimatlara əməl etmək vacibdir. Zərərçəkənə yaxınlaşdıqda ilk olaraq onun şüuru, tənəffüsü və nəbzi yoxlanılmalıdır. Əgər zərərçəkən şüurludursa, onu sakitləşdirmək, hərəkət etdirməmək və vəziyyətini sabit saxlamaq lazımdır. Şüursuz vəziyyətdə olan şəxslərdə isə tənəffüs yoxdursa, süni tənəffüs və ürək masajı başlanılmalıdır. Qanaxma müşahidə olunarsa, dərhal dayandırmaq həyati əhəmiyyət daşıyır. Bu zaman təzyiqli sarğıdan və ya lazım gəldikdə turnikedən istifadə edilir. Hər bir dəqiqə vacibdir - qanaxmanın qarşısını vaxtında almaq insanın həyatını xilas edə bilər".

Baş həkim qeyd edib ki, sınıq və çıxıq hallarında zərərçəkəni hərəkət etdirmək olmaz: "Sadəcə olaraq ətraf sabit vəziyyətdə saxlanmalı və tibbi yardımın gəlməsi gözlənilməlidir. Eyni zamanda, zərərçəkən soyuq hava şəraitindədirsə, onu isti saxlayacaq vasitələrlə örtmək, psixoloji cəhətdən sakitləşdirmək tövsiyə olunur. Unutmaq olmaz ki, düzgün və vaxtında göstərilən ilkin yardım çox zaman ixtisaslaşmış tibbi müdaxilədən öncə həyati funksiyaları qorumağa kömək edir".

**Sübhan**

# Vahid Əzizin poetik yaradıcılığına ədəbi-nəzəri ekskurs...



Qurban Bayramov,
tənqidçi-ədəbiyyatşünas,
Səməd Vurğun mükafatı
laureatı...

***"Mən hər zaman dediyim sözün məsuliyyətini dərk etmişəm, bu və ya digər kəlməni dilimə gətirməzdən əvvəl onu dəfələrlə götür-qoy etmişəm..."***

**(Vahid Əziz)**

***"Göz yaşını gildir-gidir,***
***Axıtdığın vaxt olacaq;***
***Şair qaranquş kimidir -***
***öldürən bədbəxt olacaq..."***

**(Vahid Əziz)**

Çağdaş ədəbiyyatımızın görkəmli nümayəndələrindən olan Azərbaycanın Xalq şairi, ictimai dövlət xadimi, vətəndaş şair, görkəmli qələm sahibi Vahid Əziz milli düşüncə, milli təəssübkeşlik baxımından, fitri istedı, fəhmikarlığı ilə çox qələmdaşları sırasında fərqli, özünəməxsus, əlahiddə yer tutan sənət adamıdır. Deyim ki,"Küləyi görmək" fəhmi hər şairə nəsib olmur və təsadüfi deyildir ki, onun ilk şeirlər kitabı elə bu cür adlanır - "Mən küləyi görürəm" ("Gənclik" nəşriyyatı, 1969). Bu, əslində Allah vergisidir ki, bu qəbildən şairə şeirlər "vəh" təkin nazil olur... Və Vahid Əzizin bu ilk kitabında ilk şeiri 1968-ci ildə dərc olunan şairin Fikrət Sadığın redaktəsi ilə cəmi 19 şeiri təqdim edilibdir... Bu misralar necə də yenidir, təravətlidir, sərbəstdir, sərbəst şeirdir: "Yoruldum qaçmaqdan xəyalımın arxasınca. Körpə deyiləm ki, kəpənək qovam bahardan-bahara. Bəsimdir ünvan oluğum imzasız məktublarına insanların.Uzaqlara qaçacağam günlərimin adiliyindən lap uzaqlara." Bu orjinallıq Rəsul Rza kimi nəhəngin niyə də diqqətini cəlb eləməsin?.. "Mavi düşüncələrim", "Mənim romantikam", "Ana", "Qəriblik", "Sərnişin fikirlər", nəhayət "Mən küləyi görürəm" və s. bu qəbildən şeirlər də belə...

Vahid Əzizin maqiq təxəyyülünün bəhrəsi olan və "Əllərimin kölgəsi" ("Gənclik" nəşriyyatı, 1985) adlanan kitabı haqqında dövrün azman şairlərindən olan Xalq şairi Nəbi Xəzri "Düşündürən sətirlər" adlandıdığı məqaləsində yazmışdı:

"Məncə, kitab nahaq "Əllərimin kölgəsi" adlanmayıb. Çünki, kölgə özü Günəşin, işığın övladıdır. İşıqsızlıqda, Günəşsizlikdə kölgə yaranmaz. Burada əllərin kölgəsi arzuların, ümidlərin izi kimi qəbul olunmalıdır.

...Bu, sərrast müşahidənin orjinal və şairanə ifadəsidir. Bu, ancaq gözlə görünən yox, ürəklə duyulan həyat sirri, təbiət sehridir." (Bax: "Ədəbiyyat və incəsənət" qəzeti, 25 oktyabr 1985.)

Füzulinin "Heyrət, ey büt!!" - deyimi və bu deyimdə gizlənən "həyat sirri" yada düşür və arzular, ümidlər işığının şüləyində yaranan belə sərələr - şeirlər məxsusi olaraq milli sərvətə çevrilir... Və "milli sərvət" toxunulmazdır:

***Mənim, əl vurmayın, bir misrama da,***
***Qalsın nəğmələrim yazdığım kimi.***
***Qələmim dolaşıb bəyaz varaqda,***
***Özüm yer üzündə gəzdiyim kimi.***

***Şair başdan-başa yanar ürəkdir,***
***Qovrulub dönmüşəm külə, yanmışam.***
***Görməyə nə var ki, duymaq gərəkdir,***
***Necə duymuşamsa, elə yazmışam.***

Məqamıdır, onu da xatırladım ki, Vahid Əzizin təzə ayaq tutub yeriyən yaradıcılığı haqqında "Tanışlıq" (1968) məqalə-uğurlamasında ilk söz söyləyən, onun istedadının cövhərindəki mahiyyəti duyan, qiymətləndirən ustadlar ustadı, Xalq şairi Rəsul Rza olmuşdur: "Şeirlərini oxudum. Vərəqləri çevirdikcə, qarşımda istedadlı bir şairin surəti canlanırdı. ... Bunlar ki, şeirdir. Bu şeirlər qibtə oyadacaq qədər poetikdir. Burda ağıl, hiss, arzu, xəyal, qəlb döyüntüsü elə bir vəhdətdə ifadə olunmuşdur ki, oxuyursan, sevinirsən, sinən qürurla qabarır. Bu mənim yurdumun balasıdır." ". (Bax: Rəsul Rza. "Tanışlıq" - məqalə -uğurlama. "Ədəbiyyat və incəsənət" qəzeti, 16 mart 1968-ci il.) Və öncəgörən müdrikin sözü gerçək oldu, Vahid Əziz həm bir şəxsiyyət kimi, həm bir şair kimi "yurdun balası" oldu!!

Ədəbi tənqiddə şairlərin qələmə aldıqları mövzulara görə belə bir təsnifat aparılır - məhəbbət şairi, təbiət şairi, lirik şair, lirik-epik şair, vətənpərvər şair, nəğməkar şair və s... Müşahidəmizə görə, Vahid Əzizin fitri istedadında, yaradıcılığında bütün bu cəhətlər - mövzu siferaları qəribə bir tərzdə cəmləşmiş və hamısı da qədərincə, bədii-estetik dəyərincə, zəhmətinin bəhrəsi, əxlaqının ifadəsi təkin əksini tapıbdır... Əslində, Vahid Əziz dəyişməz, daim artan, inkişafda olan müəllim-sənətkar səviyyəsində, "yanar ürəkli", ləyaqətli söz xiridarıdır...

Qənaətimcə - Vahid Əziz öz dövrünün, zamanının, yaşadığı mühitin şairidir, gördüyünü, duyduğunu yazıb, məşşatəlik etməyib və on görə də dövrü, zamanı onun, o da dövrünü, zamanının poetik məhək daşına çevrilibdir... Bu məhək daşı Araz boyu hərəkət edir, Təbrizə boylanır, diləyi, arzusu Zəngəzura dirənib dastna dönür, Dəmir qapı Dərbənd qapılarının önündə eləcə daşa çevrilir:

***Dağlarımın üzü gülmür, nə yandı,***
***Torpağımın bir "Gülüstan" dərdi var.***
***Köçüm getdi Zəngəzura dayandı,***
***Yazan olsa, neçə dastan dərdi var.***

***Gah ox batar gözlərimə, gah nizə,***
***Baxa-baxa həsrətliyəm Təbrizə.***
***Dərbəndimlə durmaq olmur göz-gözə,***
***Dağlarımın çox "dağıstan" dərdi var.***

**("Dözmək olmur" (1997) kitabından)**

Hələ bura Qarabağ dərdini ("Qarabağ", "Qaçqın şəhərciyinin qəbristanlığı", "Çadır uşağı", "Dərsə gecikən...", "İgid əgər", qəbildən şeirlərdə, poeziyamızın zəfərə ehtiramın etirafı olan "Param-parça" kitabı (2021), demək olar ki, bütövlükdə) əks etdirən poetik mətnlərin siqlətini əlavə etsək, xalqımın nə dərdlər yükünün altından keçdiyinin poetik sözdə əks olunan tarixi mənzərəsini təsəvvürə gətirə bilərik...

Vahid Əzizin "Sabahın qatarında" adında bir şeiri var. "Aylı pəncərə" ("Gənclik" nəşriyyatı, 1974) kitabındadır. Mən bu şeiri oxuduqda, tam qənaətə gəldim ki, Vahid Əziz sabahların şairidir və o bu qatarın sərnişini yox, lokomotividir:

***Dünəndən bu günə,***
***bu gündən sabaha,***
***Sabahdan sabahların***
***sonsuzluğuna qədər -***
***zamanın qatarı.***
***Getməyə ümidli bir sərnişin kimi***
***oyanıram gecənin,***
***gündüzün dayanacaqlarında.***
***...Gedirəm:***
***Mən sabahın qatarındayam.***

Bu misralar dürüst bir qənaəti də, yadıma saldı: "Qərbi Azərbaycanın Dərələyəz mahalının Herher kəndində (23 noyabr 1945, Herher, Dərələyəz mahalı, Paşalı rayonu. Sonralar Əzizbəyov rayonu Əzizbəyov kəndi adlandırılıb. Altı yaşında Azərbaycanın Tərtər rayonunda məskunlaşıblar. Q.B.) dünyaya göz açmış Vahid Əzizin yaradıcılığı "yetmişinci" illər poeziyasının paytaxtı oldu! Vahid Əziz anlayır ki, bir şair kimi gələcək nəsillər qarşısında borcludur, çünki nə vaxtsa onun gözü ilə bizi görəcəklər." ( Bax: Murad Baykal.Təmiz havaların



poeziyası... Yalın ayaqların torpaq duyğusu... "525-ci qəzet", - 2024.- 9 yanvar,№ 2.- S.14;15.)

Bu misralar, elə buradakı şeirlər və Vahid Əziin bu ahıl çağında yazdığı şeirlər də eyni havada orjinaldır, yeni deyimlərlə, ənənəvi mövzulara yeni, ürəyəyatımlı yanaşmalarla zəngindir. Vahid Əziz oxucularla şablon, quru dillə danışmır, daima yenilik axtarışında və orjinallıq kəşfindədir... Nikbinlik, həyata bağlılıq, inam, ülviyyət onun lirik qəhrəmanının əsas xarakterik keyfiyyətidir:

***Mən yağışam - buludlrdan tökülən,***
***Dan yeriyəm - Günəş ilə sökülən,***
***İstərəm ki, min boyayla çəkilən***
***Düzlərə gül kimi səpələr məni.***

**("Aylı pəncərə" kitabından.)**

Burada dünyamızın ahəngi, harmoniyası, insanın təbitdə, təbiətin insanda birgəliyi və vəhdətaniyyəti bədii mətnin nüvəsində hərəkətdədir, insanın ucalığı təbiətin ucalığında, təbiətin ucalığının (insan da təbiətin bir parçasıdır!) müqəddəsliyinin dərkindədir ki, şairi, onun lirik qəhrəmanını "arzular yolçusu" edir, Mikayıl Müşfiqin "Arzuya bax, sevgilim, söylə üreyincəmi, tellərindən incəmi" misralarının ovqatına bürünür, "Ağac" şeirində olduğu kimi, adi ağac olmaq arzusu lirik qəhrəmanı qapsayır ki, munis körpəyə beşik olsun:

***Dünyaya ağac kimi***
***gəlmək də gözəlmiş -***
***bəlkə bəxtim gətirdi,***
***zərif-zərif yonuldum.***
***Narahat bir körpəyə***
***yellənən beşik oldum.***

**("Ədəbiyyat və incəsənət" qəzetində, 28 avqust 1981.)**

Diqqət edin, əslində "yonulmaq" əzabdır, işgəncədir, ağrıdır. Şair bu ağrı-acını necə də "zərif-zərif yonuldum" ifadəsi ilə yumuşaldır, bu ağrını zərifliklə qəbul edir, çünki, sonda müqəddəs, ülvi, təmiz bir məqama qovuşacaq, ağac bir narahat körpəyə rahatlıq bəxş edən beşik olacaq!.. Bax, budur, möcüzə - cəsurluqdan, ağrılardan keşərək cəsurluğa, ucalığa, qorxmazlığa çevrilən poetik möcüzə...

Poetik mətnin forma, janr xüsusiyyətlərinə gəlincə, Vahid Əziz yaradıcılığında bu cəhətdən zəngin, rəngarəng polifonizmin şahidi oluruq. Vahid Əziz poeziya nəhrində sərbəst üzməyi bacarır. Onun klassik Azərbaycan şeir formatlarından tutmuş, modern-sərbəst şeirin ən müxtəlif çalarlarında - bütün vəzn, ifadə, forma əlvanlığına ustalıqla sahiblənməsin görürük...

Vahid Əzizin poetik yaradıcılığı müstəqillik dövrü ədəbiyyatımızda yeni nəfəs, yeni pafos, tamam yeni mahiyyət kəsb edir... Ömrü boyu müstəqilliyimizin təşnəsində olan şairin yaradıcılığı yeni bir vüsətlə yeni mərhələyə qədəm basır. Onun "Dözmək olmur" şeirlər və poemalar kitabı ("Gənclik" nəşriyyatı, 1997) bu mənada səciyyəvidir. Burada Azərbaycanda keçid dövrünün keşməkeşləri, Qarabağ münaqişəsinin xalqımıza vurduğu zərbələr, qaçqınlıq, köçgünlük əzabları, mənəvi sıxıntılar, itirdiyimiz hər şey, hər şey şeirin traqik mövzusuna çevrilib, sarı sim tonunda misralanıb:

***Heç kəs yaşamaz doyunca,***
***Zirvə yox vətəndən uca.***
***Atılırıq qucaq-qucaq***
***Odunda qalanmaq üçün.***

**("Dözmək olmur" 1997 kitabından.)**

Mühüm bir mətləbə də nəzər salaq. Mənim ədəbi qəhrəmanım Vahid Əzizlə yaşdaşıq, necə deyərlər saqqaldaşıq... Niyə "ədəbi qəhrəman" deyirəm... Bunun da mənası var. Ədəbi tənqiddə gətirdiyim "Poeportret" janrı özündə bunu ehtiva edir. Əvvəllər zarafat tərzində olsa da, barələrində məqalələr, ədəbi oçerklər, sonra poeportretlər yazdığım yazıçı-şair dostlarıma deyərdim ki, Sizlər mənim ədəbi qəhrəmanlarımsınız! Siz bədii əsərlərinizdə təxəyyülün gücü ilə düşündüyünüz, arzuladığınız qəhrəmanların bədii obrazlarını yaradırsınız, onlara istəyinizcə ad qoyursunuz, mən isə əsərlərimdə Sizlərin gerçək ədəbi obrazınızı yaradıram. Görünür, "hər zarafatda həqiqətin də payı var" - deyimi, bica deyil. Sonra bunu gerçək qənaətə çevirdim...

Dedim axı, Vahidlə yaşdaşıq, o məndən 5-6 ay böyükdür. Mətləb bundan ibarətdir ki, eyni dövrdə yaşamışıq, uşaqlığımız müharibədən sonrakı mərhələdə keçib. Eyni ağrıları, eyni sevincləri, eyni çətinlikləri, eyni asanlıqları keçirmişik, oxşar astanalardan keçmişik... İkimiz də Qarabağda, qonşu, diz-dizə, kürək-kürəyə bölgələrində yaşamışıq, eyni havanı udmuşuq... Eyni siyasi, sosial, ictimai, ideoloji hadisələrin şahidi və iştirakçısı olmuşuq. Və şükürlər olsun ki, müstəqilliyimizə qovuşduq, düşmən işğalından azad edilmiş Qarabağı gördük... Bütün bunları niyə söyləyirəm, niyə xatırlayıram?! Yəni, deməyim odur ki, Vahid Əzizin şəxsiyyəti, həyatı, yaradıcılığı, ovqatı mənə doğmadır, elə bil, o bir şair kimi, mən də, bir filoloq-alim kimi eyni həyatı yaşamışıq... Mənim ədəbi qəhrəmanım - hamınızın - cəmiyyətimizin şair kimi, ictimai-siyasi xadim kimi, kəsərli, heç nədən çəkinməz qələmi olan analitik publisist kimi tanıdığı, xalqın - əksəriyyətin sevimlisi olan Xalq şairi Vahid Əzizi, az qala, özüm kimi başa düşürəm, özüm kimi hiss edirəm və buna görə də onun haqqında yazdıqlarımda, dediklərimdə, düşündükələrimdə falş, yalan, sünilik ola bilməz... Onu bir kiprik qırpımında tam görürəm...

**(ardı var)**

## *F-16-larla zəngin olan ordular - ABŞ, Türkiyə...*

**Dünyanın müxtəlif bölgələrində istifadə olunan F-16 döyüş təyyarələri, həm qiymət-performans göstəricisi, həm də geniş modernizasiya imkanları sayəsində hələ də ən çox yayılmış dördüncü nəsil qırıcı kimi önə çıxır.**

**Adalet.az xarici KİV-ə istinadən xəbər verir ki, bir çox ölkənin hava qüvvələrinin əsasını təşkil edən F-16-lar hava üstünlüyü, yer hədəflərinə zərbə, elektron müharibə və pilot hazırlığı kimi bir çox tapşırıqda aktiv rol oynayır.**

**Dünyada bu ölkələr daha çox F-16- ya sahibdir.**

**1. ABŞ**

**2023-cü il məlumatlarına görə, ABŞ 936 ədəd F-16 ilə dünyanın ən böyük F-16 istifadəçisi olaraq qalır. Çoxməqsədli imkanları sayəsində bu təyyarələr hava üstünlüyü, yer zərbələri, kəşfiyyat və yüksək səviyyəli pilot hazırlığında geniş istifadə olunur. F-16-lar ABŞ Hərbi Hava Qüvvələri, Milli Qvardiya və Ordu Ehtiyat Komandanlığı tərkibində fəaliyyət göstərir.**

**2. Türkiyə**

**Türk Hərbi Hava Qüvvələrinin inventarında 243 ədəd F-16 mövcuddur. Bu göstərici Türkiyəni ABŞ-dən sonra Avropa və dünya üzrə ən böyük ikinci F-16 istifadəçisi edir. Hazırda "Özgür" modernizasiya proqramı çərçivəsində filoda geniş yenilənmə həyata keçirilir, eyni zamanda Block 70 konfiqurasiyalı yeni F-16-ların təchizatı davam edir.**

**3. İsrail**

**İsrail Hərbi Hava Qüvvələrinin ixtiyarında 224 ədəd F-16 var. Ölkənin kiçik ərazisi nəzərə alındıqda bu rəqəm xüsusi diqqət çəkir. Yerli modernizasiya paketləri və real döyüş təcrübəsi sayəsində İsrailin F-16-ları dünyanın ən təsirli və ən çox inkişaf etdirilmiş modelləri arasında göstərilir.**

**4. Misir**

**Misir 218 ədəd F-16 ilə Afrikanın ən böyük F-16 flotuna sahibdir. Ölkə mütəmadi modernizasiya və ABŞ ilə hərbi əməkdaşlıq sayəsində bu təyyarələri yüksək hazırlıq səviyyəsində saxlayaraq həm əməliyyatlarda, həm də təlim missiyalarında geniş istifadə edir.**

**5. Tayvan**

**Artan regional gərginlik səbəbilə Tayvan hava müdafiəsini gücləndirmək üçün 202 ədəd F-16-dan istifadə edir. Ada administrasiyası onları F-16V (Viper) səviyyəsinə yüksəltməklə radar, elektron müharibə və silah sistemlərini daha da gücləndirir.**



# BAYAT



№ 64 (924)



*Tofiq Abdin*

bəlkə... bir daha şeir yazmadım
yazmamağımın min bir nədəni var
bəlkə
min birdən də çox
minindən biri
bu dünyadan gedəndə
onları tapşıra biləcəyim
kimsəm yox!!!!!!!!

***

bu qorxu o tindəymiş
həmən qarşıma çıxdı
çıxıb bir yad gözündən
həmən içimə axdı

mən necə görməmişəm
mən necə kor olmuşam
bu yaşda bu qorxunu
içimə doldurmuşam

ha çapala, ha vuruş
ata bilmərəm onu
heç belə gözləmirdim
mən ömrümün sonunu

yazıq ömrümə yazıq
məni güdürmüş bu şər
atalar düz deyirmiş
qorxan gözə çöp düşər

***

bu yaşda sevmək üçün
havalanmaq gərəkdi
bu yaşda sevmək üçün
sevdalanmaq gərəkdi

o da mənim əlimdə
bu da mənim əlimdə
ortada ağlın gücü
adın mənim dilimdə

adına od düşəcək
içimdəki alovdan
üz tutacaqsan mənə
bir gün söküləndə dan

çətin gəlib çıxasan
ayrılığın içindən
durmusan durduğun yerdə,
yad adam var içində...

gəlib çıxa bilməzsən
ayrılıq yaşayırsan
sən elə gəlirsən ki,
gedənə oxşayırsan...

***

hara gedir bu məmləkət görəsən
gedir şellənə-şellənə
qarşıdan bir bəla gəlir
aman yellənə-yellənə

adamları adamlıqdan çıxıbdı
boyunbağı körpüləri taxıbdı
öz əliylə öz evini yıxıbdı
yollarını daş- kəsək yox
sular tutub
sular sellenə-sellənə

sözlərinə heç bir məhəl qoyan yox
təklənibdi bir kimsədən həyan yox
tikənindən dağıdanı daha çox
danışmağa dili də var
eşitmirlər
qalıb dillənə-dillənə

yaman uzun sürdü bu alış-veriş
zamana sığmayır bu vaxtsız gərdiş
xeyrə yozulmayır bu gediş-gəliş
bizsə qalmışıq ortada
hələ küllənə-küllənə

küçələri gül-çiçəyə bürünür
adamları yaşamır ki, sürünür
kimsə bilmir sabah necə görünür
gözlər ora millənib
qalıb millənə-millənə...

***

mən on il əvvəlki Tofiq deyiləm
heç beş il əvvəlki Tofiq deyiləm
gəlib dayanmışam bir ah içində
quş kimi çırpınnam günah içində
sevmək cəsarəti sıfırın altda
sevilməksə ondan bir aşağı
sabah duaları dilimdə şəkər
axşam duaları sabahı çəkər
titrək yarpaq kimi içim əsməkdə
bu yaşda, bu gündə bu əsarətdə
yenə də olanlar məni üzməkdə

mən on il əvvəlki Tofiq deyiləm
heç beş il əvvəlki Tofiq deyiləm
bəzən çiçəklər də incidir məni
yazıq böcəklər də incidir məni
nəymiş bu dünyanın bilinməz yeri
bu halla, bu günlə, bu ağrılarla
yeri tofiq abdin geriyə yeri
yeriyə bilsən
niyə gəlmişdin ki
niyə bezmisən
dünya elə buymuş
dözüb yaşa sən

***

Bir eldə doğuldum - mərkəzdən uzaq,
Üz tutub bir böyük şəhərə gəldim.
Başımı soxmaqçün gəzdim künc-bucaq,
Nə bir soyuq bildim, nə isti bildim.
Döydüm bir qapını, dedim ki, mənəm,
Gəlin tanış olaq, Tofiq Abdinəm!

Şairlik sevdası vardı başımda,
Bilmirdim dünyanın nizamı varmış.
Hardan biləydim ki, bu yolbaşında
İnsan öz-özünə bədbəxt olarmış -
Bəzən qoymadılar danışam, dinəm,
Gəlin tanış olaq, Tofiq Abdinəm!

Bəzən qaraladım tale yazanı,
özüm gedirdimsə bəxtin nə işi.
Sevdim şairlikdə Rəsul Rzanı,
sən demə başqaymış dövrün gərdişi -
İnanın, inanın peşman deyiləm,
Gəlin tanış olaq, Tofiq Abdinəm!

***

sevdim elə bildim ki
səni xoşbəxt edərəm
bilmədim ki nə vaxtsa
səni yalqız buraxıb
səndən öncə gedərəm.

bu sözləri yazanda
içimdə ayrılıqlar
illər öncə bir idik
indi isə ortada
yaşanmaz ayrılıq var.

titrək yarpaq bilirəm
uzanan əlimizi
güc yox tale tükənib
qınamaz kimsə bizi

mənsiz qalmağın da dərd
mənlə getməyin də dərd
gör nə gec anlamışam
dünya namərdmiş, namərd.

tez getsəm də bağışla
gec getsəm də bağışla
səni də bədbəxt etdim
bu bəxtlə, bu naxışla.

***

məni sevmək nə böyük bəla imiş
alnınıza ay doğdu sevmədiniz
güllər yağdı başınıza sevmədiniz
bu güllərlə çıxdım sizin qarşınıza
sevmədiniz
mən neyləyim
məni sevmək nə böyük bəla imiş

bu yaşımda şeir yazdım sevilməkçin
mənə imkan yaratdınız əyilməkçin
qarşınızda boynu bükük dayandım
dırnaq boyda şəfqət üçün
qapınıza dayandım
bu vətənin havasını çox gördünüz
düz üstümə yeridiniz
sonra məni qınadınız

Allah mənə bel vermişdi
qarşınızda dik durmağa
ömrüm boyu əymək üçün sınadınız
içimdəki dözüm məni sınamadı
evimdəki iki gözüm sınamadı
bəlkə onlar sınasaydı
öyrəşərdim beli bükük yaşamağa
sizin kimi onun,bunun yüklərini
daşımağa

mənə olan qəsdiniz nə
niyə qənim kəsilmisiz
Allah verən bu ömürə.

***

bu dünyaya düşəli
getmək günün gözlədim
dərdimi danışmadım
günahımı gizlədim

yaşamaq bu imişsə
demək yalanam yalan
nə məni satan oldu
nə də ki məni alan

qarşımda bir daş divar
bundan o yana yol yox
ha çırpın bu üzündə
o üzdə gözləyən çox

görəsən tanıyarlar
səsimi çıxarmasam
bəlkə də qınayarlar
neçə illərdi yoxam
mənmi vəfasız çıxdım
onlarmı vəfasızdı
əgər son bu imişsə
bu yazı nə yazıdı

***

sənə ağırlığım yox
bu ömür mənim ömrüm
niyə tələsirsən ki
mən səndən qabaq ölüm.

sənə elə gəlir ki
çox yaşadım deyəsən
mənlik deyil bu işlər
bunları bilməlisən.

içimdə çiçək açıb
ayrılığın qorxusu
sanki ərşə çəkilib
gözlərimin yuxusu

canım ruhum həyatım
səni kimə tapşırım
sən çağrılmaz bayatım
bayatıtək yaşarım.
gəlmişəm gedəcəyəm
qalası deyiləm ki
məni üzmək nə verir
axı niyə ölüm ki...

***

nə yaşadım yaşamışam
bundan sonrası Allahın
güman üstdə köklənmişəm
yarı dərdin yarı ahın

dualarla yatıb qalxmaq
indi ömrümün mayası
məndən o yanda yaşayır
ömrümün böyük yarısı

baxıram yaşanan yola
"çoxu getdi, azı qaldı"
nə mənlikdi nə də sizlik
kimdisə qapımı çaldı

aman tanrım kimdi görən
hansı əsrdən yol gəlib
ya qapını yanlış salıb
ya məni tanışmı bilib

***

indi baxıb görürəm ki
nə mən deyən oldun sən
nə sən deyən oldum mən
bu yol hara uzanacaq
bu yol harda bitər görən.

nə mən gözlərdim bu günü
nə sən gözlərdin bu günü
hədər yaşadın ömrünü
hədər yaşadım ömrümü.

bir acıq var bu şeirdə
ünvanını tapammıram
səndən ayrı bir ömürü
ömür kimi yaşamıram

bəs niyə içimiz dolu
acıqla, heyflə dərdlə
yüz kərə dedim mən sənə
mənə itirdiyin ömrü
yaşamısan sən hədərlə

artıq gecdi döz bu zülmə
hələ buna nə var gülüm
məzarımın üstündəki otlara
baxıb ağlarsan
zülüm-zülüm

bəlkə belə də olmadı
gözündə yaş qalmaz olar
hələ sağam düşünürəm
sonrası nə olar olar.

***

zaman-zaman nə havadı içimdə
bu türkümü bayatımı ağımı
alıb bütün ovqatımı əlimdən
qaralığa qərq eləyər ağımı

ağac idim budağımı vurdular
sonra gəlib əhvalımı sordular
uzun illər öncələri qırdılar
pərvazlanan qolumu qanadımı

nə sevdadı bu içimdə göyərən
hara qaçım bu sevdanın əlindən
bu nə dünya gəlib onda durdum mən
kimsə sevməz mənim kimi adamı

içim sızlar sızıltısı o yanlıq
mən etmədim kimlərəsə yamanlıq
yazıq könlüm yazıq oldu çox yazıq
görən kimə tapşırım mənim adımı

bu sızıltı xəstə qasım havası
yoxa çıxdı içimin gur davası
bu hal məni yıxasıdı yıxası
bir bəndə yox alsın mənim qadamı.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 45 (2468) 28 noyabr 2025-ci il

# MÖHTƏŞƏM QƏLƏBƏMİZ DÜNYAYA SƏS SALDI



**Müharibələr heç bir xalqa, heç bir dövlətə, heç bir ölkəyə xeyir gətirməyib. Əksinə, müharibələrdə milyonlarla insan məhv olub, evlər-eşiklər, xəstəxanalar, məktəblər, uşaq bağçaları dağılıb. Ən böyük faciə isə ondan ibarət olub ki, müharibələrdə günahsız uşaqlar öldürülüb və onların ah-naləsi o müharibə eləyənləri heç şübhəsiz ki, nə vaxtsa tutur. Amma görünür, müharibə eləyən dövlətlərin başçıları o müharibədən çox böyük pul qazanırlar. Yoxsa onlara nə olub ki, hər hansı məmləkəti altını-üstünə çevirir, əhalisini məhv edir, iqtisadiyyatını dağıdır, fabrik və zavodunu yerləyeksan edir.**



Bax, uzun illərdə, daha dəqiq desək, 30 il ermənilər Qarabağın işğal altında saxladığı rayonları, şəhərləri və qəsəbələri belə viran günə qoymuşdular. Əlbəttə, bunlar elə təsəvvür edirdilər ki, bu hadisələr 30 il davam edib və bundan sonra da əilli il davam edəcək. Ən azından ona görə ki, onlar öz havadarlarına çox arxayın idilər. Düşünürdülər ki, Qarabağ problemini dondurduqları kimi hələ bundan sonra da bu problem elə-belə qalacaq. Hələ üstəlik də bütün sərhəd boyu yerlərdə onlar atəşkəsi pozur, döyüş mövqelərimizi, yaşayış məntəqələrimizi iriçaplı silahlardan atəşə tuturdular.

Əlbəttə, səbrin də bir həddi vardı. Və biz səbr edib düz otuz il dözdük. Bu səbr 2020-ci ilin sentyabrın 27-nə qədər davam elədi. Və sentyabrın 27-də Ali Baş Komandan, prezident İlham Əliyevin əmri ilə Azərbaycan Ordusu əks hücuma keçdi, yer-göy titrəyirdi. Ermənilər gözləmədiyi və ağıllarına gətirmədiyi hücumu görürdülər. Onlar görürdülər ki, ən müasir silahla təchiz edilmiş ordumuz ildırım sürətilə hücuma keçib və onların 30 il yaratdığı və mif kimi dünyaya təbliğ etdiyi "Ohanyan səddi" bu hücumun qarşısında darmadağın oldu.

Bir erməni generalı xatirələrində yazır ki, bizim ağlımıza gəlməzdi ki, Azərbaycan Ordusu belə qüdrətli və döyüşkən ola bilər. Bizə deyirdilər ki, Azərbaycan Ordusu çox zəifdir və erməni ordusunun qarşısında tab gətirə bilməz. Amma biz sentyabrın 27-də onların hücumlarını görəndən sonra hamımız dəhşətə gəldik. Sadə əsgərdən tutmuş generala qədər çıxış yolu axtardıq. Çünki biz bu ordunun qarşısında tab gətirə bilmirdik. Hətta baş nazir Nikol Paşinyana müdafiə naziri çatdırdı ki, Rusiyadan və Fransadan xahiş eləsin ki, Azərbaycan bu hücumu saxlaya bilsin. Amma deyəsən, Nikol Paşinyan xahiş eləsə də nə Makronun, nə də Putinin Azərbaycan Ordusunun qarşısını almağa gücləri çatmadı. Bizə də yuxarıdan dedilər ki, qorxmayın, döyüşün, Ermənistandan əlavə qüvvələr gələcək. Düzdür, Ermənistandan əlavə qüvvələr gəlirdi. Amma onlar da bir-iki gün döyüşəndən sonra ya məhv olurdu, ya yaralanırdı, ya da silahı qoyub qaçırdı. Mən bir general kimi gördüm ki, döyüş meydanında öldürüləcəyəm Təcili tibbi yardım maşınına əyləşib ordan qaçdım. Çünki tankla, digər döyüş maşını ilə getsəydim azərbaycanlılar onu vuracaqdılar. Ancaq Təcili tibbi yardım maşınına onlar atəş açmırdılar. Bu, döyüş mövqeyindən qaçan və əsgərləri məhv olan erməni generalının düşüncələridir.

44 günlük İkinci Qarabağ savaşında sözün həqiqi mənasında Azərbaycan Ordusu dünya tarixində görünməyən və analoqu olmayan bir qəhrəmanlıq göstərdi. Azərbaycan Ordusu göstərdi ki, işğal altında olan torpaqlarımızı azad edərkən ermənilərin bir mülki əhalisinin belə burnu qanamadı. Azərbaycan Ordusu onu da göstərdi ki, onlar dünyanın ən güclü, ən çevik, ən mobil ordusudur. Bu ordunun qarşısında nə erməni ordusu, nə erməni əsgəri, nə də onların havadarları 44 günlük savaşda dayana bildilər. Çünki Azərbaycan Ordusuna güc-qüvvət verən Ali Baş Komandan, prezident İlham Əliyev və xalqımız idi. Düzdür, ordumuz hər cür müasir texnika və döyüş maşınları ilə təchiz edilmişdi, amma ondan da öncə Azərbaycan əsgərinin vətənə olan sevgisi, prezidentə olan məhəbbəti və xalqa olan sevgisi idi. Onlar döyüşə ağlaya-ağlaya yox, gülə-gülə gedirdilər. Hətta elə şəhidlərimiz vardı ki, döyüşəndə belə, şəhid olanda belə alnını belə turşutmamışdı. Əlində silah gülə-gülə, amma böyük qəzəblə ermənilərin üstünə getmişdi. Bu əsgərlərimiz qalib oldular, şəhid oldular, qazi oldular.

Həmin günlərdə Füzuli rayonunun Böyük Bəhmənli kəndində böyüyüb boya-başa çatmış Elçin Tehran oğlu Süleymanov, Tural Firəddin oğlu Qurbanov, Şamil Xançoban oğlu Əliyev, Məhəmməd Aydın oğlu Talıbov döyüşün ilk günlərindən Vətənə, dövlətə və prezidentə olan məhəbbətini göstərdilər. Onlar Füzulinin, Cəbrayılın, Qubadlının və Zəngilanın yaşayış məntəqələrinin azad olunmasında bir Azərbaycan əsgəri kimi öz sözlərini deməyi bacardılar. Bu igid oğullar kənddən çıxanda and içmişdilər ki, işğal olunmuş torpaqlarımızı azad eləməyənə qədər kəndə qayıtmayacaqlar.

Bəli, onlar işğal olunmuş torpaqlarımızın böyük bir hissəsini azad etdilər, amma şəhid oldular, sağ qayıtmadılar. Şəhid kimi qayıtdılar və Bəhmənlinin tarixində öz qəhrəmanlıqları ilə qızıl hərflə şanlı bir tarix yazdılar. O tarixi Elçin yazdı, o tarixi Şamil yazdı, o tarixi Tural yazdı, o tarixi Məhəmməd yazdı. Bu gün də bəhmənlilər onların ruhuna hər gün dualar oxuyur, məzarlarını ziyarət edir. Kəndin girəcəyində Birinci və İkinci Qarabağ savaşlarında şəhid olan oğulların yolun kənarında portretləri vurulub. Eyni zamanda kənddə Şəhidlər Kompleksi Abidəsi inşa edilib. Onların xatirəsinə bulaq tikilib. Və bu gün də bu müqəddəs yer, bu müqəddəs ocaq bəhmənlilər tərəfindən ziyarət edilir. Hər açılan səhərə, üstündə gəzdikləri torpağa, udduqları təmiz havaya görə camaat bu şəhidlərə, Azərbaycan Ordusuna minnətdarlıq edir.

**Dünya tarixində belə möhtəşəm qələbələr çox nadir olub. 44 gündə arxasında böyük dövlətlər duran və ona havadarlıq edən düşmənin dizini yerə qoymaq və Qarabağı azad etmək hər xalqa, hər orduya nəsib olmur. Bunu yalnız və yalnız Ali Baş Komandan, prezident İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Azərbaycan Ordusu bacardı. O ordu ki, bu gün ABŞ prezidenti Donald Tramp da deyib ki, Azərbaycanın çox güclü ordusu var. Dünya artıq Azərbaycanla hərb yoluyla danışa bilməz, çünki dünya bizim gücümüzü gördü!**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



*Əntiqə Kərimzadə*

# Ölümü özünə bənzəyən insan

***24 noyabr Azərbaycan kino sənətində özünəməxsus obrazları ilə sevilən xalq artisti Əjdər Həmidovun anım günü idi.***

***Aktyor 28 sentyabr 1953-cü ildə Şabran rayonunun Aygünlü kəndində müəllim ailəsində anadan olub. Ailədə dörd uşaq olublar. Atasının ağır xəstəliyə tutulması Həmidovlar ailəsinin vəziyyətini çətinləşdirir. Uşaqlıq illərini xatırlayan aktyor qardaşı ilə bir plaşı növbə ilə geyindiyini söyləyirdi.***

***O, 1976-cı ildə İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə qəbul olur. Bununla da atasının arzusunu yerinə yetirir. Aktyor müsahibələrinin birində deyir ki, atam məni aktyor kimi görmək istəyirdi. Mən də onun arzusunu yerinə yetirdim.***



***Aktyor kino sənətində uğur qazansa da, teatr fəaliyyəti də danılmazdır.***

***O, 1979-cu ildə təyinatla Sumqayıt Dövlət Musiqili Dram Teatrına göndərilib. Orada Vəzir "Lənkəran xanının vəziri", Qulu "Tamahkar", Milis "Bəxt üzüyü", Həfçi Məlik "Adamın adamı", Sərsəri "Bütün Şərq bilsin", Dursunəli "Dursunəli və balıbadı" və s kimi yaddaqalan obrazların müəllifi olur.***

***1990-cı ildə isə Akademik Milli Dram Teatrının aktyor heyətinə qəbul edilib. Məhz həmin teatrda da Şeytan "Özümüzü kəsən qılınc", 1-ci kafir "Burla Xatun", Daşdəmir "Bu dünyanın adamları", Vanya Koxa, Müxbir "Hökmdar və qızı", "Dəlilər və ağıllılar", Məşədi Oruc "Ölülər" v.s obrazlarla geniş tamaşaçı sevgisi qazanıb.***

***Aktyrun ən böyük qazancı tamaşaçı alqışıdır deyən Əjdər Həmidov ailəsini dolandırmaq üçün uzun illər tamada kimi fəaliyyət göstərib.***

***Atyor "Gənc qadının kişisi", "Lətifə", "Mənim ağ şəhərim", "Qarabağ şikəstəsi", "İblis qadın" "Tənha durna uçuşu" v.s filmlərdə rol alsa da, o, daha çox "Kişi sözü" filmindəki Qasım obrazı ilə sevilir.***

***Əjdər Həmidov 2002-ci ildə Azərbaycan Respublikasının Əməkdar Artisti, 2018-ci ilə isə Azərbaycan Respublikasının Xalq Artisti adına layiq görülüb.***

***2007-ci ildə Azərbaycan Televiziyası ilə nümayiş etdirilən "Yoxlama" adlı çoxseriyalı televiziya filmindəki Müfəttiş obrazı sənətçiyə böyük uğur gətirib. Lakin bu uğur aktyora heç də asan başa gəlmir. O, filmdə kaskadyorun əvəz etdiyi səhnələri özü oynamağı qərar verir. Aktyor bu inadkarlığı üzündən səhhətində ciddi problemlər yaşamağa başlayır. Sözügedən filmdə qazandığı uğur aktyorun kino fəaliyyətinə işıq salır. Lakin onun səhhətində problem o qədər kəskinləşir ki, o, şəhərdən kəndə köçür.***

***Elə 2007-ci ildə insult keçirir. Səhhətində yaşanan problemlərə görə həkimlər ona aktyor kimi fəaliyyət göstərməməyi məsləhət görürlər. Lakin sənətə olan sevgisi onun teatr səhnəsindən ayıra bilmir. Belə ki, aktyor bütün sağlıq problemlərinə baxmayaraq, yenidən teatrda rol alır.***

***Səhhətində yaranan problemləri ətrafında çox insana demirdi. Təbiətən sakit xarakterli olan aktyorun ölmü də özünə bənzəyir. O, 2020-ci il noyabr ayının 24-də Kliniki Tibbi Mərkəzdə insultdan vəfat edir.***

# Mətanət Əsədova: "Qardaş demişəm, səhv etmişəm"



**Müğənni Mətanət Əsədova ilə Manaf Ağayev arasında incilik davam edir.**

Adalet.az bildirir ki, M.Əsədova ad çəkməsə də, ancaq incidiyi sənət dostunun M. Ağayev olduğuna işarə edib:

"Çox adama demişəm ki, dostumsan, böyük qardaşımsan. Amma sonra elə dəyər verməyə peşman olmuşam. Düşünürəm ki, səhv etmişəm. Şou aləmində heç kəsdən adama dost olmaz. Bunu bir daha dəqiq anladım. Adamın dostu onun doğmasıdır".

**Əntiqə**

# Avropanın ən arzuolunan şəhəri: İstanbulun sehrini kəşf edin

**2026-cı ilə doğru irəlilədikcə dünyanın aparıcı səyahət platformalarında siyahılar gələn ilin səyahət trendlərini müəyyənləşdirəcək və turistlərin yeni marşrut planlarına ilham verəcək şəkildə dərc olunur.**

Adalet.az xəbər verir ki, mədəni müxtəlifliyi, dinamik həyatı və dörd mövsüm davam edən cazibəsi ilə tanınan Türkiyənin məşhur metropolisi İstanbul isə qlobal səyahət xəritəsində öz mövqeyini daha da möhkəmləndirir. Şəhər "Səyahət üçün 50 ən yaxşı məkan", "Avropada şəhər turları üçün ilk 5 istiqamət" və "Ailələr üçün ən əlverişli şəhər turları" kimi nüfuzlu siyahıların zirvəsində və ya əsas mövqelərində yer alıb.

Ən son olaraq isə İstanbul, yalnız oxucuların səsverməsi əsasında müəyyən edilən 2025 Wanderlust Reader Travel Awards mükafatlandırma mərasimində "Avropanın ən arzuolunan şəhəri" nominasiyasında Qızıl Mükafata layiq görülüb. Mərasim Londondakı Milli Qalereyada keçirilib.

Səs verən oxucular İstanbul haqqında "hər səfərdə yenidən təəccübləndirən şəhər" ifadəsini işlədərək onun daim yenilənən, canlı və zamanın axınına meydan oxu-



yan bir istiqamət olduğunu vurğulayıblar. Artan beynəlxalq tanınma fonunda İstanbul 2026-cı il üçün səyahət planlarına ilham verməyə davam edir və dünyanın ən cəlbedici şəhərlərindən biri kimi öz mövqeyini qoruyur.

İstanbula səfər edən hər kəs üçün şəhərin nəfəskəsən gözəlliyini ən dolğun şəkildə hiss etməyin ən unudulmaz yolu şübhəsiz ki, Bosfor körfəzində qayıq turuna çıxmaqdır. Dünya şöhrətli bu boğaz boyunca səyahət edərkən hər iki sahili boyu düzülmüş tarixi sahilyanı köşklər - zərif memarlığı ilə seçilən məşhur "yalılar" - şəhərin özünəməxsus siluetini daha da möhtəşəm göstərir və ziyarətçilərə unudulmaz İstanbul xatirəsi bəxş edir.

İstanbulun gizli incilərindən biri olan Böyükada və digər Prens adaları isə şəhərin gur ritmindən uzaq, sakitlik və təbiət qoynunda istirahət imkanı yaradır. Yaxşı hava şəraitində bu adalar şəhərin səs-küyündən uzaq, təmiz hava, rəngarəng mənzərə və mədəni ruhun harmoniyasını hiss etmək istəyənlər üçün ideal istiqamətə çevrilir.

İstanbulun cazibəsini artıran ən mühüm cəhətlərdən biri isə, şübhəsiz, onun zəngin mətbəxidir.

MICHELIN ulduzlu restoranlardan tutmuş ən sadə, amma dadına söz olmayan küçə yeməklərinə qədər şəhərdə hər təam İstanbulun çoxşaxəli kulinariya irsini və yaradıcı qastronomiya mədəniyyətini əks etdirir. Səyahətçilər günə dünyaca məşhur türk süfrəsi ilə başlaya, klassik kabab və məzələrin dadına baxa, Bosfor sahillərindəki balıq bazarlarını gəzə və fasilə zamanı türk paxlavası və ya lokumu ilə müşayiət olunan türk qəhvəsindən zövq ala bilərlər.

**İstanbulda görüləcək və yaşanacaq təcrübələri maksimum etmək istəyənlər üçün "Bucket List" geniş seçim imkanı və ilhamverici istiqamətlər təqdim edir.**

**Sübhan**

# Toy günü gəlinə niyə şərab içirdirlər?

**Çin mədəniyyətində toy mərasimləri zəngin adətənənələrlə doludur. Bu mərasim və şənliklərdə düyü şərabı xüsusi rol oynayır. Çində düyü şərabı qədim tarixə malik olan və xüsusi mərasimlər üçün hazırlanan ənənəvi bir içkidir. Toy mərasimlərində gəlinə düyü şərabı təqdim etmək də bu ölkədə ən qədim adətlərdən biridir.**

Düyü şərabı, adətən düyü, su və maya qarışığından hazırlanır. Bəzi bölgələrdə bu məhlula müxtəlif bitki və ədviyyatlar da əlavə olunur. Şərabın hazırlanması uzun bir proses keçir. Hazırlanma prosesi bir neçə həftə, hətta aylar davam edə bilər. Bu işi adətən, ailədəki yaşlı və təcrübəli qadınlar həyata keçirirlər. Şərabın keyfiyyətini, dadını qoruyan həmin qadınlar mütləq xüsusi təcrübə və bacarıqlara sahib olmalıdırlar. Toyda düyü şərabı təq-



dim ediləcək şərab qabı xüsusi zövqlə bəzədilir. Qabın üzərinə müxtəlif naxışlar, simvollar və xoşbəxtlik diləkləri yazılır. Şərab qabını bəzəyərkən ən çox qırmızı və qızılı rənglərdən istifadə edirlər. Çünki bu rənglər çin mədəniyyətində uğur, sevinc və bərəkət simvolu hesab olunur. Qabın bəzədilməsi də adətən, ailənin qadın üzvlərinə həvalə edilir. Bu cür qabları zərif fırçalarla bəzəyən qadınlar mütləq yüksək yaradıcılıq enerjisinə və incə zövqə sahib olmalıdılar.

Düyü şərabı, toy mərasiminin müxtəlif məqamlarında ortalığa gələ bilər.

Bu zaman nənevi olaraq ən birinci, gəlin və bəy biri-birinə şərab təqdim edirlər.

Həmin mərasim onların birliyinin və sevgisinin simvolu kimi qəbul edilir. Bəzi bölgələrdəki adətlərə görə bəy həm gəlinə, həm də gəlin tərəfdən olan yaşlı adamlara şərab verir. Eləcə də gəlin, naxışlanmış xüsusi qablarda həm bəyə, həm qayınanasına, eyni zamanda həmin ailənin digər yaşlı üzvlərinə şərab təqdim edir. Onların bu jesti iki nəslin doğmalaşmasına zəmin yaradır. Bəyin və gəlinin bu alicənablığı doğmalaşdığı və üzv olacağı ailəyə hörmətin, sevginin simvolu kimi dəyərləndirilir. Şərabın təqdim edilməsi zamanı qarşı tərəf müxtəlif dualar və xoşbəxtlik diləkləri səsləndirirlər.

**Düyü şərabının toy mərasimində təqdim edilməsi, çin mədəniyyətində yeni ailənin xoşbəxtlik üzərində qurulmasına zəmin yaradır. Bu adət, ailənin yeni insanı, yəni gəlini öz daxilinə sevinclə qəbul etməyi, eləcə də qarşılıqlı sevgi və hörməti simvolizə edir. Düyü şərabı, həmçinin bərəkət, uğur və xoşbəxtlik gətirən bir içki hesab olunur. Buna görə də toy mərasimlərində düyü şərabının olması, gənc cütlüyün rifah içində xoşbəxt və uzun bir ömür sürməsinə güclü inam yaradır.**

**Murad Köhnəqala**

# Nazənin: "O uşaqdır, nə etdiyini bilmir"

**Müğənni Qumral Musayeva şou-proqramların birində həmkarı Nazənin Musayevanın şəklini heç bir xanaya yerləşdirmədən kənarlaşdırıb. Aparıcı Zaur Nəbioğlunun "onu hansı xanaya yerləşdirəcəksən" sualına isə "həyatımda heç bir xanada o xanıma yer yoxdur" fikrini söyləyib.**

Mözvu ilə bağlı Adalet.aza danışan Nazənin Musayeva Qumralın bu addımını çılğınlıq hesab edib:

"Heç bilmirəm nə deyim. Mənə həmin videonu göstərəndə təəccüblü gəlmədi.



Belə də olmalı idi. Qumral anasının tərəfindən danışır. Normaldır.

Bir də o uşaqdır, nə etdiyini bilmir. Günahkar aparıcıdır ki, mənim şəklimi ona təqdim edir. Bu da qəsdlə edilir".

**Əntiqə**

Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 256
Çapa imzalanmışdır: 27.11.2025